Xalqın qəzeti!

# Xalq qəzeti

№ 96 (30790) 11 may 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azad Qarabağ abad Qarabağa çevrilir

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

### *Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib*




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına əvvəlcə "Bərdə–Ağdam dəmir yolu xətti" layihəsi, Bərdə–Ağdam–Xankəndi dəmir yolunun tikintisi, Xankəndi dəmir yolu və avtovağzal kompleksi barədə məlumat verdilər.

Qeyd edildi ki, Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

*(ardı 2-ci səhifədə)*

## Qarabağ: Çoxalan təməllər, ürəkaçan əməllər

**İşğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış Azərbaycanın iqtisadi potensialının artmasına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin yüksəlməsində, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir.**



İşğaldan azad edilmiş ərazilərin zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın gerçəkləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı təsdiqlənib.

*(ardı 17-cü səhifədə)*

## Yeni "yaşıl" layihələrə yatırım – 30 milyon manat!

**Azərbaycanın zəngin bərpa olunan enerji potensialına maraq getdikcə artır. Bu da ölkədə yaradılmış əlverişli biznes mühiti və xarici investisiyaların təşviqi ilə bağlıdır. Artıq bir sıra xarici investorlar, dünyanın enerji keçidi sahəsində fəaliyyət göstərən tanınmış şirkətləri tərəfindən ölkəmizdə irimiqyaslı layihələr həyata keçirilir.**



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş nazir Əli Əsədovun 2025-ci il mayın 8-də imzaladığı qərarla dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə ümumi investisiyanın minimum məbləği müəyyənləşdirilib. Qərara əsasən, bu məbləğ 30 milyon manat məbləğində təsdiq edilib. Bu da ölkə ərazisində bərpa olunan enerji layihələri ilə bağlı imzalanmış müqavilələrdə öz əksini tapacaq.

*(ardı 17-cü səhifədə)*

## Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası



*(əvvəli ötən saylarımızda)*

Heydər Əliyevin həmin gün Azərbaycan parlamentindəki nitqində ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi haqqında aşağıdakı qətiyyətli bəyanatını səsləndirmişdir: "Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətlərin əsarəti altına düşməyəcəkdir".

Cəmi bir neçə gün sonra Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Bakı şəhərini tərk edərək təyyarə ilə Naxçıvana uçmuş, oradan da doğulduğu Kələki kəndinə getmişdir. Heydər Əliyev 24 iyun 1993-cü il tarixindən etibarən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini də həyata keçirməyə başlamışdır. Azərbaycan Respublikasının Milli Məclisinin "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında ümumxalq səsverməsinin (referendumun) keçirilməsi haqqında"kı 29 iyul 1993-cü il tarixli qərarına əsasən bir ay sonra, 29 avqust 1993-cü ildə keçirilmiş referendumda vəzifəsini tərk etmiş prezidentə etimad göstərilməməsinə səs verilmişdir.

*(ardı 8-ci səhifədə)*

## Heydər Əliyev və Ukrayna hetmanları: dövlət rəhbərliyi tipologiyası



Səhifə ⇨ 10

## Milyardlar nədən xəbər verir, Vardanyan?



Səhifə ⇨ 16

## Pakistan–Hindistan: mənasız toqquşmadan ümidverici atəşkəsə



Səhifə ⇨ 15

## "Avropa üçlüyü" Kiyevdən Moskvanı hədələdi



Səhifə ⇨ 19

## Paşinyanın silahdaşı Patriarx Kirili hədəfə alıb

Səhifə ⇨ 16

# Azad Qarabağ abad Qarabağa çevrilir

## Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib





*(əvvəli 1-ci səhifədə)*

Dəmir yolu vağzalı gündəlik 800–1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300–1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək.

Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb.

Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Kompleksin ərazisində, həmçinin müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması tikilib. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Sonra Bərdə–Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı yola salındı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.

## Yerli icra strukturlarının inzibati binasına baxış



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olub.**

Burada əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaranacaq. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün iş otaqları yaradılıb.



## Kəngərli kəndinin birinci mərhələsinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verdi.

Qeyd edildi ki, işğaldan azad olunmuş digər ərazilərdəki kimi, Ağdam rayonunda da genişmiqyaslı quruculuq işləri aparılır. Bu işlərin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

## Klub-icma mərkəzində yaradılan şəraitlə tanışlıq






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.**

İkimərtəbəli mərkəzdəki otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var.



# Azad Qarabağ abad Qarabağa çevrilir

## Kəngərli məktəbinin binası istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbinin binasının açılışında iştirak edib.**

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 30 sinif otağı olan 484 şagird yerlik məktəbdə təhsil prosesinin müasir səviyyədə təşkili üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada biologiya, kimya və fizika laboratoriyaları, informatika, çağırışaqədərki hərbi hazırlıq kabinetləri, kitabxana, akt və idman zalları, yeməkxana mövcuddur.

Təhsil ocağının ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, kənddə inşa olunmuş bir çox qeyri-yaşayış binasının, o cümlədən məktəb binasının damında da Günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Yeni istifadəyə verilən Kəngərli tam orta məktəbi bunun daha bir nümunəsidir.

## Körpələr evi-uşaq bağçasının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.**

Dövlətimizin başçısına məlumat verildi ki, müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Ölkəmizdə yeni uşaq müəssisələrinin yaradılması prosesi işğaldan azad olunmuş ərazilərimizdə də uğurla davam edir. Həyata keçirilən bu layihələr həmin ərazilərimizə köçən uşaqların asudə vaxtlarının səmərəli təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərin uğurlu nəticələrindəndir.

## Yeni evlərdə yaradılan şəraitlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.**

Birinci mərhələ üzrə buraya 1279 nəfərin köçürülməsi planlaşdırılır. Artıq 292 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır.

Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb.






# Prezident İlham Əliyev Kəngərli kəndində sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.**



Kənd sakinlərini salamlayan **Prezident İlham Əliyev** dedi**:** Kəngərliyə xoş gəlmisiniz.

**Sakinlər:** Sağ olun. Bu günün qəhrəmanı, Siz xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi təbrik edirəm, Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Siz uzun illər ağır şəraitdə – ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız. Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır. Mənfur düşmən bütün bu bölgəni viran qoymuşdu. Ağdam rayonunda bir dənə də salamat bina qalmamışdır. Şəhər, bütün kəndlər tamamilə yerlə-yeksan edilmişdir. Təkcə Ağdamda yox, demək olar ki, o vaxt işğal altında olan bütün torpaqlarda Ermənistan dövləti tərəfindən məqsədyönlü siyasət aparılırdı ki, heç vaxt azərbaycanlılar bu bölgəyə qayıtmasınlar. Onlar istəyirdilər bu torpaqları əbədi işğal altında saxlasınlar. Onlara mənəvi və maddi dəstək verən bəzi ölkələr də onlarla həmrəy idi. Amma onlar bir şeyi unudurdular ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan vətəndaşları heç vaxt öz doğma torpaqlarını unutmayacaq və Azərbaycan dövləti ayağa qalxacaq, güc toplayacaq və düşməni öz torpağından qovacaq. Bunu onlar hesablaya bilməmişdilər.

Bütün bu əzablı illər arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır. Kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək. Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi – hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik.

Ağdam şəhəri də artıq ərsəyə gəlir. Bu gün səhər Ağdam vağzal kompleksinin açılışını etdim. Bu tədbirdən sonra Ağdam Muğam Mərkəzinin açılışı olacaq. Muğam Mərkəzini Ağdamda ilk layihələrdən biri kimi inşa etməyimiz bizim mənəvi köklərə bağlı olduğumuzu göstərir. Yəni, bizi millət kimi, xalq kimi saxlayan bizim musiqimiz, dilimiz və əyilməz ruhumuz olub.

Köçkünlər ən çətin şəraitdə yaşayıblar. Siz bilirsiniz ki, işğal dövründə köçkünlərlə mənim çoxsaylı görüşlərim olub, həm çadır şəhərciklərində, – onlara söz vermişdim ki, birinci prezidentlik dövrümdə bir dənə də çadır şəhərciyi qalmayacaq və artıq 2007-ci ildə bir dənə də qalmamışdı, – həm də yeni salınmış qəsəbələrdə, qəsəbələrin açılışında. Biz 300 minə yaxın ovaxtkı köçkünü gözəl evlərlə təmin etmişdik. O görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, torpaqlar azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq.

*(ardı 4-cü səhifədə)*

# Azad Qarabağ abad Qarabağa çevrilir

## Prezident İlham Əliyev Kəngərli kəndində sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib

*(əvvəli 3-cü səhifədə)*

**Sakin:** Bu günə çox şükür.

**Prezident İlham Əliyev:** Bugünkü mərasim o sözlərin, necə deyərlər, möhürüdür. Bilirəm, sizdə də, bizdə də – bütün Azərbaycan xalqında heç vaxt şübhə olmayıb ki, biz öz torpaqlarımıza qayıdacağıq. Amma çox möhtəşəm qayıtdıq. 44 gün ərzində düşməni böyrü üstə qoyduq. Ondan sonra da 23 saat ərzində, bəlkə də daha da tez separatçıların kökünü tamamilə kəsdik. Siz – yaşlı nəslin nümayəndələri sovet dövrünü xatırlayırsınız. O vaxt sizin yanınızda yaşayan, bizim torpaqlarımıza çar Rusiyası tərəfindən köçürülən ermənilər bizə, xalqımıza, xüsusilə ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətində yaşamış azərbaycanlılara mənfi münasibət göstərirdilər, həm Xocalıda, həm Şuşada onlar mənəvi əzab çəkirdilər.

Bu gün isə Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar.

Kəngərli kəndi bizim bərpa etdiyimiz sayca 14-cü yaşayış məntəqəsidir. Ağdam rayonunun isə ikinci. Birinci Sarıcalı, indi Kəngərli. Xıdırlı kəndi də demək olar ki, açılışa hazırdır. Yaxın aylarda orada da həyat qaynayacaq. Yəni siz burada darıxmayacaqsınız, qohum-əqrəba, dost, tanış – hamınız birlikdə bu bölgəni – Qarabağı quracaqsınız, hamımız birlikdə quracağıq.

Sizi təbrik edirəm, cansağlığı arzulayıram. Burada xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

***

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

***

**Sakin:** Möhtərəm Prezident, bir arzum var və Sizə çatdırmaq istəyirəm.

**Prezident İlham Əliyev:** Buyurun.

**Sakin:** Əlbəttə ki, çətin dövrdə yaşamışıq və bugünkü gözəl həyatı da görürük. Müqayisə aparanda düşünürəm ki, buradakılar hər kəsin arzusudur, arzu edirəm ki, ömrünüz uzun olsun, canınız sağ olsun və nə qədər ömrünüz var, hakimiyyətdə olun. Çünki biz inanmırıq ki, Ulu öndərdən sonra Azərbaycanı Sizdən başqa kimsə bu vəziyyətdə idarə etsin. Sağ olun, var olun, daim hakimiyyətdə olun.

**Sakinlər:** Amin!

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Sakin**: Hörmətli Prezident, icazə verin, mən ürək sözümü deyim.

**Prezident İlham Əliyev**: Bəli, əlbəttə, buyurun. Kimin sözü varsa, buyursun.

**Sakin**: Mən Kəngərlinin yaşlı sakiniyəm, 76 yaşım var. Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin.

**Prezident İlham Əliyev**: Allah rəhmət eləsin.

**Sakin**: Onun fəaliyyəti dövründə mən ən yaxşı, mükəmməl müəllimlik dövrümü yaşamışam. Əməkdar müəllim kimi iş təcrübəm respublikada yayılıb və bu gün fəxr edirəm ki, onun varisinin, bu günün qəhrəmanının qarşısında mən söz demək qüruru keçirirəm. Allah Sizə cansağlığı versin.

**Sakinlər:** Amin!



**Sakin**: Müqəddəs kitabımız "Qurani-Kərim"də belə bir ayə var: "Salam olsun doğru yolun yolçularına". Doğru yolun yolçusu olmaq böyük şərəfdir. Bu şərəfi Siz çox ləyaqətlə yerinə yetirdiniz, tarix yazdınız, möcüzələr qurdunuz, bütöv Azərbaycanı. Eşq olsun Sizə!

**Prezident İlham Əliyev**: Hamımız birlikdə bunu etdik, hamımız birlikdə!

**Sakin**: Mən bir ana məhəbbəti ilə, müəllim şəfqəti ilə bu doğru yolun yolçusuna, bu günümüzün qəhrəmanına Dədə Qorqud qopuzundan qopub gələn bir el alqışı diləmək istəyirəm. Arxanızda el dayansın, "El gücü, sel gücü" deyiblər. Nəsibiniz el alqışı olsun. El alqışı kəsərli olar və bir də qüdrətli Allahın gözəl kəlamı ilə salam olsun doğru yolun yolçusuna.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Sizə böyük uğurlar, ailə səadəti və ailəlikcə Azərbaycanın, cənnətə döndərdiyiniz Azərbaycanın, bütöv Azərbaycanın, bütün güllü-çiçəkli dağlarında, bağlarında, sularında gəzdikcə Allah, Xudavəndi-aləm Sizə uzun ömür, cansağlığı və alın açıqlığı versin.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Həmişə qalib "dəmir yumruq" yerindədir, Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev**: Yerindədir, çox sağ olun.

**Sakin**: Cənab Prezident, Ağdamın Pirhəsənli Kəngərlisinə xoş gəlmisiniz. Biz bu yolu çox gözləyirdik və Sizin apardığınız məqsədyönlü siyasət nəticəsində 44 gün ərzində torpaqlar azad olundu, biz yaşlı nəslin ömrünü göydə Allah uzatdı, yerdə Siz. Bu kəndin 2600 nəfər əhalisi var. Başda mən olmaqla, əli silah tutanların hamısı Sizin əsgərinizdir.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Allah Sizi qorusun, Allah Sizin kölgənizi Azərbaycan xalqının başının üstündən əskik etməsin.

**Sakinlər**: Amin.

**Sakin**: Siz Allahın bizə göndərdiyi bir əmanətsiniz. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Yoldaşım da odur, bir xatirə şəkli çəkdirək.

**Prezident İlham Əliyev**: Gəlsin, hamımız çəkdirək.

**Sakin**: "Qarabağ şikəstəsi" deyərdim, feyzyab olun.

**Prezident İlham Əliyev**: "Qarabağ şikəstəsi" bu gün Muğam Mərkəzinin açılışında səslənəcək.

**Sakinlər**: Allah qoysa. Allah Sizi həmişə toyda, bayramda - belə məclislərdə eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun.

***

Sonra şəkillər çəkdirildi.

***

**Sakin**: Möhtərəm Prezident, Qarabağ Universitetinin ilk tələbəsidir.

**Digər sakin:** Bu, mənim nəvəmdir.

**Prezident İlham Əliyev**: İdmançıdır, hansı idman növü?

**İdmançı**: Alpaqut Turan Türk döyüş sənəti, əlbəyaxa döyüş.

**Sakin**: Dörd dəfə dünya çempionu olub.

**Prezident İlham Əliyev**: Maşallah.

**Sakin**: Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: İlham müəllim, mənim bir ürək sözüm də var.

**Prezident İlham Əliyev**: Buyurun, əlbəttə.

**Sakin**: Bu gün bu möhtəşəmliyə rəng verən ulu öndərimiz Heydər Əliyevin doğum günüdür. Allah Sizi qorusun! Onun ruhu bu saat bax, bu təntənəni seyr edir.

**Prezident İlham Əliyev**: Elədir.

**Sakin**: Onun vəsiyyəti yerinə yetirilmişdir, şəhidlərin qisası alınmışdır. Allah onlara rəhmət eləsin.

**Prezident İlham Əliyev**: Amin.

**Sakin**: Heydər Əliyev gözümüzün qabağında müdriklikdən müqəddəsliyə ucaldı və müqəddəslər kimi ölümsüzlüyə qovuşdu, göylərə çəkildi. Onun ruhu həmişə bu müvəffəqiyyətləri seyr edir, bilir, fəxr edir. Onun Sizin kimi varisi var, Allah qorusun. Onun vəsiyyətini bir övlad kimi, Prezident kimi yerinə yetirdiniz. Üç–dörd ay bundan əvvəl buraya gəldim. Hələ onda bünövrə qoyulmamışdı. Dağıdılmış evlərə, daşkəsəyə baxanda fikirləşdim, bunu necə təmizləmək olar ki, burada ev tikəsən. Budur, Kəngərli gülzara çevrilib. İndi Kəngərlidə mənim kimi yaşlı tək-tük adam var. Hazırda buraya köçən adamların demək olar ki, hamısı mənim şagirdim olub. Şəhidlərimizə Allah rəhmət eləsin!

**Prezident İlham Əliyev**: Allah rəhmət eləsin!

**Sakin**: Kəngərlilər adından Sizə uzun ömür, cansağlığı, ailə səadəti arzulayıram.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Həmişə fikir vermişik, başqa prezidentlər çıxışlarını vərəqdən oxuyurlar, Siz isə şifahi danışırsınız. Həmişə başın ucadır, alnın açıqdır, bütöv Azərbaycan yaratdın, möcüzələr yaratdın qardaş, möcüzə, Allah qorusun!

**Sakinlər**: Amin.

**Prezident İlham Əliyev**: Sağ olun. Mayın 10-u, təbii ki, mənim üçün, Azərbaycan xalqı üçün əziz bir gündür. Hesab etdim ki, mən məhz bu gün burada olmalıyam, mayın 10-da biz bu mərasimi keçirməliyik – həm Kəngərli kəndinin, həm Muğam Mərkəzinin açılışını. Əlbəttə, başqa gün də ola bilərdi. Ancaq siz də tamamilə haqlısınız. Ulu öndər Heydər Əliyev başda olmaqla bizim bu günümüzü görməyənlərin hamısının ruhları bu gün bu dağlarda, bu səmada dolaşır. Onların ruhlarını şad elədik. Allah şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev**: Sizin kimi müəllimlər igid gənclər yetişdirmisiniz. O gənclər ki, gedib sinələrini qabağa verib torpaqlarımızı düşməndən azad etdilər. Bu, tarixi hadisədir və bugünkü dünyada gedən prosesləri hər birimiz izləyirik. İndi internet dövrüdür, hər bir məlumatı dərhal tapmaq mümkündür. Bizim qədər qələbəyə layiq olan ikinci xalq bəlkə də yox idi. Çünki biz 30 il bu günü gözləyirdik. Nəinki gözləyirdik, biz hər gün hər birimiz o günü yaxınlaşdırırdıq. Prezident, Ali Baş Komandan kimi mənim, siz vətəndaşların, ordumuzun, müəssisələrdə çalışanların – bizim hamımızın bütün səyləri, bütün amalı bir ideya uğrunda birləşmişdi: bu torpaqları, doğma diyarımızı mənfur düşməndən azad etmək! Bunun yeganə yolu var idi, ancaq döyüş meydanında. Çünki bütün başqa yolları biz sınadıq, çalışdıq. Nə qədər çalışdıq Ermənistan rəhbərliyini inandıraq ki, bu torpaqlardan öz xoşu ilə getməlidir.

Mən dünən gəldim buraya. Xatırlayırdım, biz 2018-ci ilin noyabr ayında Quzanlıda Muğam Mərkəzi açdıq. O vaxt yadınızdadır, Quzanlını biz Ağdam rayonunun mərkəzi elan etdik. Orada Ağdamdan və digər bölgələrdən olan bizim tanınmış ziyalılarla görüş zamanı demişdim ki, Ermənistan torpaqlarımızı azad etməlidir. Demişdim ki, biz gec-tez ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, eşitmədilər bizi. Ona görə bizim tarixi Zəfərimiz artıq dünyada bir möcüzə kimi qəbul edilir. Çünki bu, mütləq və tam Qələbədir. Nə o Qələbəyə qədər onilliklər ərzində, nə ondan sonra keçən 4–5 il ərzində mütləq və tam qələbə heç kim tərəfindən qazanılmamışdır. Bunun əsas səbəbi Azərbaycan xalqının əyilməz ruhudur. Bax, mən bunu sizə açıq deyirəm. Hər birimizin payı var. Əlbəttə, Ali Baş Komandan, bütün əməliyyatlara və bütün işlərə rəhbərlik edən şəxs kimi mənim payım da var, təbii olaraq, amma hər birimizin. Çünki xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı. Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma. Bilirsiniz bu nədir?!

Xalqımız böyük xalqdır. Biz haqlı olaraq xalqımızla fəxr edirik, sizinlə fəxr edirik. Otuz il əzab-əziyyət içində – çadırda, istidə, soyuqda, vaqonun altında, yataqxanada, uşaq bağçasında yaşamısınız, amma inamınızı, iradənizi itirməmisiniz, belə oğullar yetişdirmisiniz. Onlar Bakıda, Bərdədə, Sumqayıtda yaşayıblar, bu bölgələri heç vaxt görməyiblər, amma gəliblər. Çünki torpaq çəkir. Onlarda vətənpərvərlik hissini sizin kimi analar, müəllimlər, məktəb və ailə formalaşdırıb. Bizi saxlayan bizim dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz və gənc nəsil yetişdirən ailə və məktəb olub.

**Sakin:** Allahın qüdrətiköməyiniz olsun.

**Prezident İlham Əliyev:** Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq.

**Sakin**: Haqdan yanan çıraq heç vaxt sönməz. Sağ olun.

***




Sakinlərdən biri muğam ifa edir.

***

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin:** Qarabağ bülbüllərindəndir.

**Prezident İlham Əliyev:** Bu gün Muğam Mərkəzinin açılışında da konsert olacaq. Həm Sarıcalıdan, həm Kəngərlidən vətəndaşlar dəvət olunub. Ona görə sizin bəziləriniz orada iştirak edəcəksiniz. Bir daha təbrik edirəm.

**Sakin**: Mənim ürəyimdə bir söz var, oraya qədər deyim. Sizin çox gözəl kəlamınız var. Hər bir vətəndaşın Prezidenti olacağam.

**Prezident İlham Əliyev**: Bəli, onu 2003-cü ildə demişdim.

**Sakin**: Mübarək ad gününüzü xalq arasında keçirirsiniz. Bu gün isə Ulu öndərimizin, – qəbri nurla dolsun, – ad günüdür. Eyni zamanda, mənim də ad günümdür, sağ olun. Allah Sizə cansağlığı, uzun ömür versin.

**Prezident İlham Əliyev**: Təbrik edirəm. Sağ olun.

# Azad Qarabağ abad Qarabağa çevrilir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.**

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə məlumat verib.

Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb.

Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib.

Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında da mühüm rol oynayacaq.

Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun təşkilatçılığı və dəstəyi ilə bu istiqamətdə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr həyata keçirilir. Bu layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınıb.

Sonra dövlətimizin başçısı tədbirdə çıxış edib.

# Prezident İlham Əliyevin çıxışı






– Əziz dostlar, əziz ağdamlılar, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir. Məhz onun 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu. Vəziyyət çox ağır idi. O günləri yaşayan insanlar bunu çox yaxşı xatırlayırlar. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə özbaşınalıq, xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat iflic vəziyyətdə, torpaqlarımız isə işğal altında idi və işğal davam edirdi. Ermənistan xarici dəstək ilə Azərbaycana qarşı öz işğalçılıq siyasətini həyata keçirirdi. Nizami ordu demək olar ki, yox idi. Belə bir böhranlı vəziyyətdə - daxili çəkişmələr, müxtəlif bölgələrimizdə xoşagəlməz hadisələr baş verdiyi bir dövrdə xalqın tələbi ilə Ulu öndərin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir.

Otuz iki il ərzində bir çox hadisələr baş vermişdir. Ancaq bütün hadisələrə, bütün çətinliklərə baxmayaraq, biz inkişaf yolumuzdan dönmədik. O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın, nizami ordu yaradılsın. Yəni biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir.

Əlbəttə, həyat yerində durmur. Son 22 il ərzində dünyada və ölkəmizdə bir çox hadisələr baş vermişdir. Ancaq strateji xətt Ulu öndər tərəfindən müəyyən edildi və biz o xətdən bir addım kənara atmadıq. Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir. Bu gün Qarabağ dirçəlir, bərpa edilir. İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır. O cümlədən Ağdam şəhərində də bunu görmək mümkündür. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işləri aparılır. İşğal dövründə Ermənistan dövləti məqsədyönlü siyasət apararaq bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Buraya və azad olunmuş digər bölgələrə səfər edən xarici qonaqlar öz təəccübünü və bir çox hallarda hiddətini gizlədə bilmirlər. Onlara başa salanda ki, bu dağıntılar müharibə zamanı yox, atəşkəs zamanı törədilmişdir, əlbəttə ki, erməni faşizminin eybəcər sifəti açıq-aydın görünür.

Bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı urbisid törədilmişdir, ekosid törədilmişdir. Erməni faşizmi bu bölgəni daim işğal altında saxlamaq istəyirdi və əfsuslar olsun ki, onların arxasında duran bəzi xarici dövlətlər onlarla həmrəy idi. Açıq olmasa da, gizli kanallarla onlara verilən mesajlar ondan ibarət idi ki, Azərbaycan cürət edib heç vaxt azadlıq müharibəsinə başlamayacaq, biz sizin arxanızdayıq, biz sizə dəstək olacağıq, sizə silah veririk, mənəvi dəstək veririk, sizin üçün mənəvi dayağıq. Bütün bu amillər Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız.

İşğal dövründə – 30 il ərzində biz hər gün bu müqəddəs azadlıq gününü yaxınlaşdırırdıq. Hər birimiz öz iş yerində vahid amal uğrunda birləşərək, azadlıq üçün, azadlıq müharibəsi üçün yorulmadan çalışırdıq. Bütün cəmiyyət bir amal uğrunda birləşəndə o cəmiyyət böyük işlərə qadirdir. Heç bir qüvvə xalq qarşısında dura bilməz. Xalqımızın böyüklüyü məhz bundadır. Biz açıq-aydın başa düşürdük və görürdük ki, hansı qüvvələr Ermənistana dəstək verir, hansı qüvvələr onların arxasındadır, hansı qüvvələrlə biz üz-üzə gələ bilərik və gəlmişik də. Amma bu, bizi çəkindirmədi. Artıq biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Bu, bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı mütləq və tam qələbə qazanmaq üçün öz canından keçməyə hazırdır. Qələbəmizi bir çox amillər şərtləndirdi. Biz son dörd il yarım ərzində bu barədə dəfələrlə danışmışıq, fikirlərimizi bölüşmüşük.

Bütün bunlar cəmiyyətdə birmənalı qəbul edilir: siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü Ordu, vətənpərvərlik və gənc nəsil – milli ruhda tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil. Müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar – bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq. Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdır və elə görünür ki, qazanmayacaq. Bunu mən müqayisə üçün demirəm. Amma dünyada hər şey müqayisə ilə ölçülür. Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, – hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur.

Buraya gələrkən yeddi il əvvəl Quzanlı qəsəbəsində Muğam Mərkəzinin açılışını xatırlayırdım. O vaxt Ağdam şəhəri və rayonun böyük hissəsi işğal altında olduğu üçün biz Quzanlı qəsəbəsini Ağdam rayonunun mərkəzi elan etdik, orada mənim iştirakımla Muğam Mərkəzinin təməli qoyuldu və 2018-ci ilin noyabr ayında açılışı oldu. Mən orada incəsənət xadimləri ilə görüş əsnasında demişdim ki, biz ədalət tələb edirik. Demişdim ki, əgər Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmasa, biz istənilən varianta hazırıq. Ermənistan rəhbərliyi buna məhəl qoymadı. Onlara dəstək olan dairələr onlara pis məsləhət verdilər və Azərbaycan xalqı haqqında yanlış təsəvvür yaradılmışdı. İndi onlar peşmandırlar. O gündən iki il sonra Vətən müharibəsi başladı və cəmi 44 gün ərzində biz tarixi Zəfər çaldıq, Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur oldu və Qarabağın əsas hissəsi, böyük hissəsi işğaldan azad edildi. Ancaq biz bilirdik ki, bu, tarixi Qələbə olsa da, ölkə suverenliyi hələ tam bərpa edilməyib. Hələ ki, Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədinə biz nəzarət etmirdik, bəlli olan səbəblərə görə. Əlbəttə ki, biz 2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 20-nə qədər yenə də hər gün, hər saat siyasi, diplomatik, hərbi və digər alətləri işə salaraq bax bu günü – 20 sentyabr gününü yaxınlaşdırırdıq. Nəhayət 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası "Dağlıq Qarabağ Respublikası" artıq tarixin zibilxanasına göndərildi.

Bu gün biz azad Qarabağda azad yaşayırıq. Bu gün Ağdam və bütün digər şəhərlərimiz bərpa edilir. Bu gün səhər Ağdam dəmir yolu vağzalının açılışını qeyd etdik. Bakıdan, Gəncədən, digər bölgələrdən Ağdama rahat gəlmək üçün indi gözəl imkanlar var. Eyni zamanda, biz Ağdam-Xankəndi dəmir yolunun bərpası istiqamətində işlərə başlamışıq və yəqin ki, bir il yarım, maksimum iki il ərzində Xankəndi şəhərində vağzal kompleksi tikiləcək. Bildiyiniz kimi, artıq Xankəndidə Qarabağ Universiteti fəaliyyət göstərir, 8 mindən çox insan yaşayır və eyni zamanda, Xankəndidən, həmin o vağzal kompleksindən Şuşaya gedən yol qısalır. O yolu da biz qısaldırıq. Həm genişləndiririk, həm qısaldırıq ki, maksimum 10 dəqiqə ərzində Xankəndidən Şuşaya gəlmək mümkün olsun. Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq.

*(ardı 6-cı səhifədə)*

# Azad Qarabağ abad Qarabağa çevrilir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında










*(əvvəli 5-ci səhifədə)*

Ağdam-Bərdə avtomobil yolu. İndi Bakıdan gələn qonaqlar o yolla gəliblər. Möhtəşəm bir yoldur. Sovet vaxtında belə yol olmamışdır. Ağdam–Xankəndi–Şuşa yolu, dəmir yolu, infrastruktur layihələri, tarixi abidələrimizin bərpası – birinci bərpa edilmiş bina Ağdam Cümə məscidi idi. İndi Qiyaslı məscidində bərpa işləri aparılır. Yaşayış kompleksləri inşa edilir, iki mehmanxana inşa edilib. İmarət kompleksi bərpa edilib, Xaçınçay su anbarı əkin sahələrini, torpaqları suvarma suyu ilə təmin etmək üçün fəaliyyətə başlayır və bir çox başqa layihələr icra edilir. Bunlar təkcə Ağdam rayonuna aiddir. Əgər bütün görülən işlərin miqyasını götürsək, sözün düzü, mən bilmirəm hansı ölkədə hazırda bu miqyasda quruculuq, inkişaf işləri aparılır. Yəni bu, yenə də xalqımızın zəhməti hesabına qazanılan nailiyyətdir. Bütün bunları biz öz hesabımıza edirik və bütün işləri də özümüz planlaşdırırıq. Bütün insanlar həvəslə, zövqlə işləyirlər. Belə gözəl mədəniyyət ocaqları yaradırıq və bu gün burada məndən sonra çıxış edəcək bizim tanınmış ifaçılar öz məharətlərini göstərəcəklər. İstərdim ki, artıq bu gözəl salonda müntəzəm olaraq gözəl muğam bayramları, o cümlədən muğam müsabiqələrinin tədbirləri keçirilsin. Əminəm ki, belə də olacaq.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm, həm bu möhtəşəm Muğam Mərkəzinin açılışı, həm də bizim bütün uğurlarımız, əldə etdiyimiz bütün nailiyyətlər və gələcək nailiyyətlər münasibətilə. Biz müzəffər xalqıq, qalib xalqıq. Öz torpağımızda yaşayırıq. Bir daha sübut etdik ki, bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq və bundan sonra da bu torpaqlarda əbədi yaşayacağıq.

Yaşasın Ağdam, yaşasın Azərbaycan!

***

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışına həsr olunan konsert proqramına baxıblar.

***

Konsertdən sonra dövlətimizin başçısı və birinci xanım incəsənət ustaları və müharibə veteranları ilə söhbət etdilər.

**Xalq artisti Bəyimxanım Cavanşirova-Verdiyeva:** Bu gün Azərbaycan muğamının təntənəsidir. Bu gün ən gözəl gündür. Doğma Qarabağımızda Ulu öndərimizin ruhu şaddır. Xatirinizdədirsə, həmişə o, öz çıxışlarında deyərdi ki, biz Qarabağa qayıdacağıq. Bu gün həmin gündür. Ruhu şad olsun. Çox-çox təşəkkür edirik, minnətdarıq Sizə. Var olun hamınız. Sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Bəyimxanım Cavanşirova-Verdiyeva:** Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sizi bir daha təbrik edirəm, həmişə toy-bayram olsun Qarabağda, Azərbaycanın hər bir guşəsində.

**Bəyimxanım Cavanşirova-Verdiyeva:** Amin. Xalqa ruh verən Sizsiniz. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Qəhrəmanlarımız da bizimlə bərabərdirlər. Onları alqışlayaq.



**Birinci Qarabağ müharibəsi qazisi Rey Kərimoğlu:** Cənab Prezident, Siz bu millətə sahib çıxdınız. Mən özüm Birinci Qarabağ müharibəsinin qazisiyəm. Amma yiyəmiz olmadı o vaxt. Siz millətə sahib çıxdınız. Sizinlə fəxr edirik. Allah Sizi qorusun. Allah Sizi var eləsin.

**Xalq artisti Ramiz Quliyev:** Möhtərəm cənab Prezident, əzizimiz, çox gözəl xanım, canımız, ciyərimiz. Siz bizə gözəl bir gün bəxş etdiniz. Cənab Prezident, gözəl bir gündür. Ulu öndərin 102-ci ildönümü günüdür, ruhu şad olsun. Yüz illər ötsə də Ulu öndərin xatirəsi yaşayacaq. Necə ki, Qarabağı bu cür düzəltdiniz, yüz illər gəlib gedəcək, dünyanın bütün ölkələri Sizdən nümunə götürəcək, bu gün də götürür. Muğam da var, xalqımız da var, Siz də varsınız. Sizi bağrıma basıram. Çox sağ olun, var olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qazi Qəhrəman Hüseynov:** Cənab Prezident, ömrümün bu çağında Allaha yalvarmışam ki, Sizinlə görüşə bilim. Bir dəqiqə Sizinlə görüşərdim.

**Prezident İlham Əliyev:** Gəl, gəl görüşək.

**Qazi Qəhrəman Hüseynov:** Şükür İlahi. Mehriban xanım, xoş gördük. Gecələr Allaha yalvarırdım, ay Allah, Prezidentimlə görüşüm.

***Ağır gündə zireh geyən,***
***Düşmənlərin qəddin əyən,***
***El yığılıb alqışlayan***
***Rəhbərimə salam olsun!***

***Zəfərlərə meydan quran,***
***Keşiyində məğrur duran,***
***Yağı başa yumruq vuran***
***Rəhbərimə salam olsun!***

***Heydər baba dərsin alan,***
***Yağıları lərzəyə salan,***
***Qalib yazıb, qalib olan***
***Rəhbərimə salam olsun!***

***Əməlləri işıq saçan,***
***Səmasında qartal uçan,***
***Turanlara yollar açan***
***Rəhbərimə salam olsun!***

***Qəhrəmanlar vüqarından,***
***Ağdamlılar baharından,***
***Şəhidlərin diyarından***
***Rəhbərimə salam olsun!***

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sevinc Alızadə:** Cənab Prezident, Sizə təşəkkür etmək istəyirəm. Mən şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşıyam, həm də "Zəfər" təşkilatının sədriyəm.

**Prezident İlham Əliyev:** Tanıyıram. Allah rəhmət eləsin.

**Sevinc Alızadə:** Mehriban xanım həmişə bizə dəstək olub.

***AZƏRTAC***





# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu öndərin xatirəsini anıblar







**Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümüdür.**

Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

***XQ***

# XİN Hindistan ilə Pakistanı dialoqa çağırır

**Azərbaycan Hindistan Respublikası ilə Pakistan İslam Respublikası arasında elan edilmiş atəşkəsi alqışlayır.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında deyilir:

"Bu atəşkəsin regionda gərginliyin azaldılmasına, eləcə də davamlı sülh və sabitliyin bərqərar olmasına töhfə verəcəyinə ümidvarıq. Tərəfləri mövcud məsələlərin həlli istiqamətində və qarşılıqlı etimadın yaradılmasına yönəlmiş məhsuldar dialoqa çağırırıq".

***XQ***



# Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyevin doğum günü münasibətilə paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: "Heydər Əliyev – 102. Dahi şəxsiyyətin nurlu xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

# Prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət ediblər



**Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət edərək dünya şöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad edib.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

***XQ***

# Naxçıvan ictimaiyyətinin Ümummilli liderə ehtiramı

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət edib, məzarı önünə gül dəstələri qoyub, xatirəsinə dərin ehtiramını bildirib.**



Səlahiyyətli nümayəndə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyub.

* * *

Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü qeyd olunub

Mayın 10-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov, Naxçıvan Muxtar Respublikasının baş naziri Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları və digər rəsmi şəxslər müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Muzeyin dəyərli eksponatlarına baxış zamanı ulu öndər Heydər Əliyevin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib.

***XQ***

# Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası



**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**



*(əvvli 1-ci səhifədə)*

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirən Heydər Əliyevin həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində ölkəmizin cənub bölgəsində süni surətdə elan edilmiş Talış-Muğan Respublikası ləğv olunmuşdur. İctimai-siyasi sabitliyin bərpa edilməsi, iqtisadi böhranın aradan qaldırılması üçün dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilmişdir.

Görkəmli dövlət xadiminin 21 sentyabr 1993-cü il tarixində Azərbaycan Elmlər Akademiyasında ölkə ziyalıları ilə keçirdiyi görüş, apardığı müzakirə və səsləndirdiyi bəyanatlar respublikada ictimai-siyasi böhranın aradan qaldırılmasına ümid və inam yaratmış, beyin axınının qarşısını almış, EA-nın gələcək inkişafı ilə əlaqədar narahatlıqlara son qoymuşdur. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, elm xadimlərindən Şəfayət Mehdiyev, Mahmud İsmayılov, Yaqub Mahmudov, Maqsud Cavadzadə, tanınmış incəsənət adamlarından Həsənağa Turabov, Fərhad Xəlilov, Amaliya Pənahova çıxış edərək görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən böyük siyasətə və dövlət idarəetməsinə qayıdışının müstəqil dövlətimizin, xalqımızın taleyi üçün zəruri olduğunu əsaslandırmışlar. Azərbaycan xalqı 3 oktyabr 1993-cü il tarixində keçirilmiş prezident seçkisində görkəmli dövlət xadimi Heydər Əliyevə yekdilliklə səs vermişdir. Beləliklə, müstəqil Azərbaycan dövlətinin inkişafında yeni tarixi epoxa başlanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil dövlətimizin itirilmək təhlükəsindən qurtulması, vətəndaş müharibəsinin qarşısının alınması, ictimai-siyasi sabitliyin bərpa olunması, ölkəmizin hərbi-iqtisadi böhrandan çıxarılması və gələcək inkişafın möhkəm təməllərinin atılması dövrüdür. Həmin tarixi mərhələ "kiçik ölkənin dövlət başçısıyla ən böyük məmləkətlərin rəhbərlərinin hesablaşdığı dövrü", "xilaskarlıq dövrü", "müstəqil dövləti qurmaq və inkişaf etdirmək dövrü" kimi səciyyələnir.

Heydər Əliyev dövrünün ən mühüm amilləri aşağıdakılardan ibarətdir:

Ulu öndər müstəqil Azərbaycan dövlətinin başçısı kimi 1994-cü il fevralın 8-dən 11-dək ilk rəsmi səfərini Türkiyə Cümhuriyyətinə etmişdir. Bu, Azərbaycan Respublikasının dövlətlərarası münasibətlərdə Türkiyə Cümhuriyyəti və Türk dünyası ilə əlaqələri ön mövqeyə çəkməsinin əyani göstəricisi idi.

Prezident Heydər Əliyevin 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfəri ölkə rəhbərinin Azərbaycan Respublikasının Asiya ölkələri, may ayında Belçikaya rəsmi səfərə getməsi isə Avropa dövlətləri ilə əməkdaşlıqda qərarlı olduğunu bəyan etmək demək idi.

Müstəqil Azərbaycan dövlətinin adından Heydər Əliyev 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi"ni imzalamışdır. "Əsrin müqaviləsi" Azərbaycanın yeni dövrünün mühüm tarixi hadisəsi idi. Görkəmli şəxsiyyətlər "Əsrin müqaviləsi"ni həm də Heydər Əliyevin "Neft kontraktı" kimi qiymətləndirmişlər. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının neft strategiyasının əsasını təşkil edir. Beynəlxalq miqyasına və iqtisadi əhəmiyyətinə görə çətin və mürəkkəb şəraitdə "Əsrin müqaviləsi"nin imzalanması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətidir. "Əsrin müqaviləsi" Azərbaycan xalqının və müstəqil Azərbaycan Respublikasının gələcək inkişafında əvəzsiz rol oynayan böyük tarixi sənəddir.

Yeni tarixi şəraitdə Azərbaycan Respublikasında torpaq islahatlarının, bazar iqtisadiyyatına keçidlə əlaqədar zəruri islahatların həyata keçirilməsi müstəqil və demokratik dövlət quruculuğunun tarixi addımlarıdır. Heydər Əliyevin düşünülmüş məqsədyönlü siyasəti ilə atılmış bu addımlar müstəqil dövlət quruculuğu sahəsində görkəmli dövlət xadiminin mühüm xidmətləridir.

Heydər Əliyevin 4 oktyabr 1994-cü ildə dövlət çevrilişi cəhdinin qarşısını alması müstəqil dövlətçiliyin qorunub saxlanılması və möhkəmləndirilməsi sahəsindəki tarixi qələbəsidir. Ali Baş Komandan Heydər Əliyev 1995-ci ilin mart ayında ikinci dəfə Azərbaycana qarşı təşkil olunmuş dövlət çevrilişi cəhdinin qarşısını almaq və bu hadisəni törədənləri, onların havadarlarını ifşa etməklə müstəqil dövlətçiliyimizi qorumuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasının 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendum əsasında qəbul edilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlət quruculuğu yolundakı mühüm xidmətlərindən biridir. Təsadüfi deyildir ki, bu Əsas qanun ölkəmizin tarixinə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ulu öndər Heydər Əliyevin şah əsəridir.

Prezident Heydər Əliyev Azərbaycan Respublikasının 12 fəsil və 158 maddədən ibarət olan ilk müstəqil Konstitusiyasının qəbul edilməsini dövlət müstəqilliyi yolunda atılmış ən mühüm addım kimi yüksək qiymətləndirmişdir: "Mən sizi, bütün Azərbaycan xalqını müstəqil Azərbaycan Respublikasının Ümumxalq səsverməsi Referendum yolu ilə Konstitusiyasının qəbul olunması münasibətilə ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu Konstitusiya dövlət müstəqilliyinin möhkəmləndirilməsi, insanların, vətəndaşların hüquq və azadlıqlarının qorunması, Azərbaycanda hüquqi dövlətin qurulması və inkişaf etdirilməsi üçün öz xidmətlərini göstərəcəkdir. Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır. Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıb, bütün təminatları veribdir".

Heydər Əliyevin təşəbbüsü və səyləri nəticəsində 12 may 1994-cü il tarixində Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün atəşkəs sazişi imzalanmışdır. Bu, Azərbaycana Qarabağın işğaldan azad edilməsinə vaxt və imkan qazandıran çox mühüm siyasi hadisədir. Ali Baş Komandanın rəhbərliyi ilə 5 yanvar 1994-cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsi və daha 22 kəndin düşmən əsarətindən xilas edilməsi ilə Qarabağın azad edilməsi uğrunda mübarizədə mühüm dönüş əldə olunmuşdur. Bu, xalqımızda Qarabağın işğaldan azad ediləcəyinə dərin inam yaratmışdır.

ATƏT-in 1996-cı ildə keçirilən Lissabon Sammitində 53 dövlətin Azərbaycanın ərazi bütövlüyünü tanımaq haqqında qərar qəbul etməsi Heydər Əliyev siyasətinin diplomatik qələbəsi idi. Dünyanın bir sıra dövlətləri və beynəlxalq qurumları məhz Lissabon Sammitindən sonra Qarabağ məsələsində Ermənistanı dəstəkləməkdə tərəddüd etməyə başlamış, Qarabağın qədim Azərbaycan torpağı olması haqqında gerçək informasiyalar özünə yol tapa bilmişdir.

Dövlət başçısı Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Azərbaycanda ölüm hökmü ləğv edilmişdir. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında"kı Fərmanla ölkəmizdə sovet dövründən qalmış Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin – "Qlavlit" təşkilatının ləğv edilməsi demokratik dövlət quruculuğu yolunda atılmış ən mühüm addımdır. Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında senzuranı ləğv edən ilk ölkə olmuşdur. Tarixi İpək yolunun bərpa edilməsi üçün dövlət səviyyəsində ilk təşəbbüs də 1998-ci ildə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyev 11 oktyabr 1998-ci il tarixdə keçirilmiş seçkilərdə 76,2 faiz səslə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu, Azərbaycan xalqının Ulu öndərə bəslədiyi ümumxalq ehtiramının növbəti ifadəsi idi.

Prezident Heydər Əliyev 1997-2000-ci illərdə Azərbaycan xalqının milli varlığının möhtəşəm ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin beynəlxalq miqyasda – UNESCO-nun baş iqamətgahında, Türk dövlətləri rəhbərlərinin Zirvə toplantısı səviyyəsində qeyd edilməsini həyata keçirmişdir. Bu, müstəqil Azərbaycan dövlətində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, azərbaycançılıq və vətənpərvərlik ideyalarının dərinləşdirilməsi və inkişaf etdirilməsi baxımından böyük tarixi-mədəni hadisədir. "Kitabi-Dədə "Qorqud" eposunu Azərbaycan xalqının "ana kitabı" elan edən, Dədə Qorqudu "bizim ulu babamız, əcdadımız" adlandıran görkəmli dövlət xadimi bu möhtəşəm Oğuz abidəsinin 1300 illik yubileyini geniş şəkildə, təntənəli surətdə keçirməklə milli-mənəvi özünüdərk və azərbaycançılıq ideallarının həyata keçirilməsinin daha da genişləndirilməsini, xalqımızın və müstəqil dövlətimizin dünyaya tanıdılması kimi ali məqsədləri nəzərdə tutmuşdur. Ulu öndər yubiley mərasimində demişdir: "Biz bu yubileyləri ona görə keçiririk ki, xalqımız öz tarixini dərk edə bilsin. İkinci tərəfdən də dünya bizim nə qədər zəngin tarixə, mədəniyyətə malik olduğumuzu bilsin".

Elm sahəsində Heydər Əliyevin həyata keçirdiyi mühüm tədbirlərdən biri də 31 yanvar 1997-ci il tarixində Elmlər Akademiyasının rəhbər heyəti, EA-nın həqiqi və müxbir üzvləri, tanınmış alimlərlə keçirdiyi görüş və həmin tarixi görüşdə qəbul edilmiş qərarlarla əlaqədardır. Prezident Aparatında keçirilmiş həmin görüş zamanı ölkə elminin müstəqil dövlət qurulucuğuna xidmət göstərməsi, alimlərin cəmiyyət qarşısındakı mənəvi borcu və mövqeyi, Azərbaycanın XIX–XX əsr tarixinin yenidən yazılması, elm adamlarının sosial vəziyyətinin yaxşılaşdırılması haqqında aparılan müzakirələr və dövlət səviyyəsində atılmış addımlar bu akademik qurumun inkişafında mühüm dönüş nöqtəsi olmuşdur. Xüsusən, Elmlər Akademiyasının statusuna dair müəyyən edilmiş konsepsiya müstəqil dövlətin elm siyasətinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Heydər Əliyevin "İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycan Elmlər Akademiyası dövlət elmi akademiyasıdır... Keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb, onları təkrar etmək düzgün deyil. Ona görə də indi siz elmin inkişafı üçün Akademiyanın strategiyasını müəyyən edərkən, gərək işə, bax, bu prinsiplər əsasında yanaşasınız".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusunun verilməsi ilə bu ali dövlət elmi təşkilatının mövqeləri möhkəmləndirilmiş, onun ləğv edilməsi haqqındakı bəyanatlara son qoyulmuşdur.

Ulu öndərin tərcümeyi-halının elmlə əlaqədar bir səhifəsi də onun Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi üçün seçkinin keçirilməsi ilə əlaqədardır. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti akademik Fəraməz Maqsudov görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmiz və xalqımız qarşısındakı böyük xidmətlərini və Elmlər Akademiyasını ləğv edilməkdən xilas etməsini, elm adamlarına və akademiyaya göstərdiyi əvəzsiz qayğını rəhbər tutaraq ölkə rəhbərinin EA-nın həqiqi üzvü seçilməsini alimlərin mənəvi borcunun ifadəsi kimi zəruri saymışdır. Bu məqsədlə Elmlər Akademiyası Rəyasət Heyətinin 22 may 1998-ci il tarixli iclasında görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi elmlər üzrə EA-nın həqiqi üzvlüyünün müzakirəyə çıxarılması və müvafiq qərarın qəbul olunması üçün ümumi yığıncağın çağırılması məqsədəuyğun hesab edilmişdir. EA-nın Nizamnaməsinə uyğun olaraq, məsələyə əvvəlcə ictimai elmlər üzrə akademik katibi, akademik Cəmil Quliyevin sədrliyi ilə İctimai Elmlər Bölməsində baxılmış və yekdilliklə Heydər Əliyevin siyasi elmlər üzrə bu ali dövlət elmi təşkilatının həqiqi üzvü seçilməsi üçün EA-nın Ümumi Yığıncağı qarşısında vəsatət qaldırılmışdır. Elmlər Akademiyasının 23 may 1998-ci il tarixində keçirilmiş Ümumi Yığıncağında akademiyanın prezidenti, akademik Fəraməz Maqsudov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasi elmlər üzrə bu elmi qurumun həqiqi üzvlüyünə seçilməsini akademiklərin müzakirəsinə təqdim etmişdir. Akademik Fəraməz Maqsudovun sədrliyi ilə keçirilmiş Elmlər Akademiyasının Ümumi Yığıncağında çıxış edən akademiklər EA-nın akademik katibi Asəf Nadirov, Neft Akademiyasının keçmiş rektoru İsmayıl İbrahimov, Geologiya İnstitutunun direktoru Akif Əlizadə, Azərbaycan İqtisadçılar Cəmiyyətinin sədri Ziyad Səmədzadə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun müşaviri Kamal Talıbzadə, Neft-Kimya Prosesləri İnstitutunun direktoru Musa Rüstəmov, Zoologiya İnstitutunun direktoru Musa Musayev və başqaları Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətimiz, xalqımız və elmimiz qarşısındakı xidmətlərini misilsiz nəzərə alaraq onun Elmlər Akademiyasının həqiqi üzvi seçilməsinə yekdilliklə tərəfdar çıxdıqlarını bildirmiş və həmin münasibətlə keçirilmiş seçkidə onun lehinə səs vermişlər.

Heydər Əliyevin fəaliyyətinin yeni mərhələsində Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu prosesləri daha da dərinləşdirilmişdir. Dövlət səviyyəsində 1998-ci ildə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın qəbul edilməsi və ilk dəfə olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin təsis edilməsi, 2002-ci ildə İnsan Hüquqları üzrə müvəkkillik – Ombudsman institutunun yaradılması Heydər Əliyevin hüquqi-demokratik dövlət quruculuğuna xidmətidir. Prezident Heydər Əliyevin Fərmanı ilə 2002-ci ilin avqust ayında Azərbaycan Respublikası Konstitusiyasına dəyişiklik edilməsi üçün referendumun keçirilməsi ilə müstəqil dövlətin idarə edilməsinin daha da təkmilləşdirilməsi təmin olunmuşdur. Bu, Azərbaycan Respublikasının yeni inkişaf mərhələsinə keçməsinin parolu idi.

Bu dövrdə iqtisadi sahədə islahatlar daha da genişləndirilmişdir. "Əsrin müqaviləsi"nin həyata keçirilməsi məqsədilə 18 noyabr 1998-ci ildə ATƏT-in İstanbul Sammitində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Azərbaycan neftinin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair Saziş imzalanmışdır. Bundan bir neçə ay əvvəl, 17 aprel 1999-cu ildə Bakı–Supsa neft kəmərinin istifadəyə verilməsi və Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsinə start verilməsi uzaqgörən dövlət xadimi Heydər Əliyevin dövlətlərarası münasibətlərinin məqsədyönlü şəkildə tənzimlənməsi baxımından yeritdiyi düşünülmüş siyasətin böyük uğuru idi.

Azərbaycan xalqının arzusunu həyata keçirərək Heydər Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərində də iştirak etmişdir. Lakin o, 1 oktyabr 2003-cü il tarixində Azərbaycan xalqına müraciət edərək səhhəti ilə əlaqədar olaraq prezident seçkilərində layiqli siyasi varisi, Azərbaycan Respublikasının Baş naziri, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevə səs verməyə çağırmışdır: "Üzümü Sizə, həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firəvanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümüdlər bəsləyirəm".

Müasir tarixin yeni tipli lideri İlham Əliyev Prezident seçkilərində inamlı qələbə qazanaraq Heydər Əliyev siyasətini davam və inkişaf etdirmək haqqı əldə etmişdir. Həmin dövrdən keçən 21 ildən artıq bir dövr ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev yolunu yaradıcı şəkildə, yeni epoxanın meydana çıxardığı reallıqlar nəzərə alınmaqla, davam etdirməklə ölkəmizin tarixi salnaməsinə böyük zəfərlər qazandırmışdır. Müzəffər Ali Baş Komandanın əsl sərkərdəlik məharəti ilə 44 günlük Vətən müharibəsində və cəmi bir günlük hərbi əməliyyat nəticəsində qazanılan tarixi Zəfər və dövlət suverenliyinin tam təsdiqi çoxəsrlik Azərbaycan tarixinin ən parlaq hadisəsidir.

Bu mənada Prezident İlham Əliyevin simasında yeni tarixi epoxanın əsl liderini yetirib böyük siyasət meydanına gətirməsi görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı ən böyük xidmətidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu liderlərindən biri kimi qəbul olunur. Hazırda müstəqil Azərbaycan Respublikasının bütün istiqamətlər üzrə yüksələn xətlə inkişaf etdirilməsi Heydər Əliyevin dövlətçilik ideallarının təntənəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 12 dekabr 2003-cü ildə Amerikanın Klivlend klinikasında dünyasını dəyişmişdir. Bakı şəhərində 15 dekabr 2003-cü il tarixində keçirilən ümumxalq vidalaşma mərasimi Azərbaycan xalqının özünün böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevə bəslədiyi sonsuz ehtiramın böyük təntənəsinə çevrilmişdir. Dünyanın görkəmli dövlət xadimlərinin ümumxalq vida mərasimində iştirak etmək üçün ölkəmizə gəlmələri və onların bu dahi şəxsiyyətin fəaliyyətinə verdikləri yüksək qiymət Heydər Əliyevin dünya miqyaslı böyük dövlət xadimi olmasının real təsdiqi idi.

Azərbaycan xalqının Ümummilli liderinin məzarı üzərində ucaldılmış xalq rəssamı Ömər Eldarovun yaratdığı möhtəşəm heykəl kompleksi Heydər Əliyev dühasının əbədiyyətini nümayiş etdirir.

Haqlı olaraq qeyd edildiyi kimi, "tarix, əslində, Heydər Əliyevə bir dövlət adamı, böyük vətənpərvər və dahi azərbaycanlı kimi öz qiymətini verib. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri miqyasında qəbul edilir. Ulu öndərin adı dünyanın qüdrətli dövlət xadimlərinin sıralarında çəkilir, Azərbaycan xalqı isə özünün böyük oğlu Heydər Əliyevi daim ən uca zirvədə görür və onun böyük ideallarından güc və qüvvət alır.

Xalqımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderliyi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik və azərbaycançılıq ideallarının işığında daha parlaq gələcəyə doğru inamlı yolunu uğurla davam etdirir.



# Müstəqil Azərbaycan Ulu öndərin xalqımıza əmanətidir

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

*(əvvəli ötən sayımızda)*

Yaradılan möhkəm təməlin nəticəsidir ki, bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil dövlətin yeni Konstitusiyasının hazırlanması oldu. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Ümummilli lider demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratdı. 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda qəbul edilən Konstitusiyamızda əksini tapan maddələrin böyük əksəriyyəti insan hüquq və azadlıqlarının qorunmasını özündə ehtiva edirdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi və onlarla digər bu kimi islahat xarakterli demokratik təşəbbüslər bilavasitə ümummilli lider Heydər Əliyevin gərgin əməyinin nəticəsidir.

Dahi şəxsiyyətin fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycanın beynəlxalq aləmdə tanıdılması idi. O, müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələri açıqlayarkən ayrı-ayrı dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın qurulmasını, inkişaf etdirilməsini vacib amillərdən biri kimi vurğulayırdı. Ümummilli liderin düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu möhkəmləndi, dünya birliyinin fəal üzvü kimi söz sahibliyi irəli sürdüyü təşəbbüslərdə, qəbul edilən qərarlarda öz təsdini tapdı.

### Müstəqilliyin qarantı olan ordu

Atılan bütün addımlar bir məqsədə xidmət edirdi – Azərbaycan daha da qüdrətlənsin, beynəlxalq nüfuzu, iqtisadi qüdrəti artsın, müstəqilliyimizin qarantı olan ordumuzda peşəkarlıq, döyüş ruhu yüksəlsin. Ümummilli lider bu çağırışı edirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır. Məhz müstəqilliyimizin bərpasının ilk illərində nizami ordunun olmamasının nəticəsi idi ki, torpaqlarımız işğal edildi, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Silahlı Qüvvələr torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Orduda fərarilik baş alıb gedirdi. Ümummilli lider Heydər Əliyevin hələ sovet dönəmində 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. 1971-ci ildə böyük zəhmətlər bahasına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin – görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail olundu. Müstəqilliyin ilk illərində mövcud olan ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində və Qarabağda həyata keçirdiyi birgünlük lokal antiterror tədbirləri zamanı şanlı zəfərləri ilə sübuta yetirdi.

Ümumilikdə, 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, tərəqqi dövrü kimi daxil olub. Bu illərdə dahi şəxsiyyətin yaratdığı möhkəm təməl Azərbaycanın bugünkü uğurlarını təmin etdi. Ulu öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi, dünyaya Günəş kimi doğdu, Ümummilli lider 1993-cü ildə Azərbaycanın ən çətin günlərində xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bu çətin günləri keçib gedəcəyimizi, hər kəsin belə qüdrətli dövlətin vətəndaşı olması ilə qürur duyacağını böyük əminliklə qeyd edirdi.

### YAP – Ulu öndərin partiyası

Ümummilli liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Ulu öndər Heydər Əliyev dünənin, bugünün və gələcəyin partiyasını yaratdı. Qafqazın ən böyük siyasi partiyasının yaradıcısı məhz ulu öndər Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaradıldı. Azərbaycanın taleyini düşünən, xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalı ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış edərək ümummilli lider Heydər Əliyevə müraciət etdi. Dahi şəxsiyyətin bu müraciətə cavabı Azərbaycanın bugünkü inkişafının əsası oldu. Məhz bu reallıqlara söykənərək Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının 2021-ci ildə keçirilən Zəfər ruhlu VII Qurultayında bildirmişdir: "Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş – 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı. Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən deməsəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox… O dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi." Dövlət başçısı belə bir əminliyi də ifadə etdi ki, Yeni Azərbaycan Partiyası bundan sonra da ölkədə gedən bütün proseslərin mərkəzində olacaq.

### Böyük siyasətin davamı

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərini sadalamaqla bitməz. Onlardan ən mühümü 2003-cü ilin 1 oktyabr tarixində xalqa tarixi müraciəti oldu. Bu müraciət Heydər Əliyev siyasətinin uğurlu davamının əsasına çevrildi. Ümummilli Lider həmin tarixi müraciətdə bildirirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə 2003-cü ildən başlanan Böyük Yolun davamı Azərbaycana möhtəşəm uğurlar qazandırdı. Bu yolun davamı Ümummilli liderin arzularının gerçəkliyə çevrilməsi ilə xarakterizə olunur. Dahi şəxsiyyət Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması idi. Ümummilli lider Heydər Əliyev arzusunu belə ifadə etmişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik."

### Ata vəsiyyəti yerinə yetirildi

Möhtəşəm uğurlarımızın miqyasını təsəvvür etmək üçün son 21 ildən artıq dövrün reallıqlarına diqqət yetirmək kifayətdir. Cənab İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçildikdən sonra andiçmə mərasimində Azərbaycanın qarşısında dayanan vəzifələrdən bəhs edərkən böyük əminliklə bildirdi ki, onları həyata keçirmək üçün ən başlıcası Heydər Əliyev siyasəti davam etdirilməlidir. Bu əminlik də ifadə olundu ki, Ümummilli liderin əsəri olan müasir müstəqil Azərbaycanı inkişaf etdirəcək, zənginləşdirəcək, zəfərlərə doğru aparacağıq. Günümüzün reallıqları bu vədlərin hər birinin uğurla yerinə yetirildiyinin təsdiqidir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atdı. Dünya hərb tarixinə yeni səhifə yazan ordumuz nəyə qadir olduğunu bir daha nümayiş etdirdi. Dünya bir daha gördü ki, güclü, qüdrətli ordu Azərbaycan Ordusudur. Yenilməz, məğrur, qurucu xalq Azərbaycan xalqıdır. Prezident İlham Əliyev adını tarixə Zəfərimizin memarı kimi qızıl hərflərlə yazdırmaqla Ümummilli liderin 2003-cü ildə xalqa tarixi müraciətində ifadə etdiyi inamı və etimadı doğrultdu. Bundan keçirdiyi xoşbəxtlik hissini Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində belə ifadə etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

### Uğurlarla zəngin illər

Tarixi Zəfərimizdən ötən 5 il mühüm uğurlarla zəngindir. 2023-cü il çağdaş tariximizə suverenliyimizin tam bərpası ili kimi yazıldı. Həmin ilin sentyabr ayında rəşadətli ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpası ilə Azərbaycan yeni dövrə qədəm qoydu. Prezident İlham Əliyevin Sərəncamı ilə 20 Sentyabr Dövlət Suverenliyi Günü elan edildi.

Ümummilli lider Heydər Əliyevin yaratdığı möhkəm təməlin, gələcəyə hesablanmış inkişaf strategiyasının nəticəsidir ki, hazırda Azərbaycan hər günü tarixinə uğur səhifəsi kimi yazır. Bunun üçün son bir ilin reallıqlarına diqqət yetirmək kifayətdir. Ötən il dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili", bu il isə "Konstitusiya və Suverenlik İli" elan edildi. Azərbaycan ötən il COP29 tədbirinə yüksək səviyyədə ev sahibliyi edib uğurlu nəticələrə imza atmaqla iqlim diplomatiyasında dönüş nöqtəsi yaratdı. Dünyanı Bakıya toplayan COP29 ölkəmizin beynəlxalq nüfuzunun təqdimatı oldu. "Mən bunu bir daha çox böyük uğur adlandırardım" söyləyən dövlət başçısı İlham Əliyev onu da qeyd edir ki, bizim üçün daha bir mühüm amil ölkənin təqdimatı idi. Bizim regionda hələ buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilməyib. Bu, ölkənin təqdimatı idi: "Mənim görüşdüyüm və ölkəmizə ilk dəfə səfər edənlərin hamısı gördüklərinin onlarda dərin təəssürat yaratdığını söyləyirdilər. Çünki Azərbaycan haqqında məlumat qıtlığı, ölkəmiz haqqında məqsədyönlü dezinformasiya bir çoxlarının fikirlərinə təsir edir və onlar Azərbaycana gəlib fəal cəmiyyət, savadlı insanlar, peşəkar personal, şəhərin gözəlliyi və cəmiyyətdə ümumi rahatlığı gördükdə, bu, əlbəttə ki, fərqli təəssürat yaradır. Beləliklə, biz müxtəlif hədəflərə çatmışıq və bu, Azərbaycanın növbəti uğurudur".

COP29-un ardınca Azərbaycanın növbəti uğuru ötən ilin dekabr ayında D-8 təşkilatına üzv qəbul olunması oldu. Bu mühüm hadisə də bir daha ölkəmizin nüfuzunu dünyaya nümayiş etdirdi. Təşkilat 30 il bundan əvvəl Türkiyənin təşəbbüsü ilə yaranmışdır. Azərbaycanın üzvlüyünə qədər səkkiz ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra təşkilata üzv qəbul edilən ölkə Azərbaycan oldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir. D-8 müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır. Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, Azərbaycan üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir.

### Yeni hədəflərə doğru

Bu ilin əvvəli isə Azərbaycanda müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində bələdiyyə seçkilərinin keçirilməsi ilə yadda qaldı. Ötən ilin fevral ayında bütün ölkə ərazisində prezident, sentyabrında isə parlament seçkiləri keçirilmişdi. Hər üç seçki kampaniyası ölkəmizdə mövcud ab-havanı əks etdirir. Yeni dövrün başlanğıcı olan 7 fevral 2024-cü il prezident seçkilərində cənab İlham Əliyevin inamlı qələbəsi qalib Azərbaycanın yeni hədəflərə doğru inamla irəliləməsini şərtləndirir. Prezident İlham Əliyev 7 fevral 2024-cü il seçkilərindən sonra keçirilən andiçmə mərasimində bildirdi ki, yeni dövr uğurla başlayıb, uğurla da davam edəcək. Tarixi ədalətə söykənərək atdığımız addımların uğurları davamlılığı ilə diqqətədir. Ötən ilin mühüm diplomatik uğurlarından biri Qazaxın 4 kəndinin işğaldan azad edilməsi oldu. Ötən ilin 28 May Müstəqillik Günündə Xocalı şəhəri, oktyabrın 4-də isə Cəbrayıl şəhəri sakinlərinə qovuşdu. Soydaşlarımızın mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıdışı Böyük Qayıdış Proqramının uğurlu icrasından xəbər verir. Növbəti qayıdış ünvanının Ağdam şəhəri olacağı bildirilir.

Bu il zəfərlərlə dolu çağdaş tariximizə "Konstitusiya və Suverenlik ili" kimi yazılacaq. Prezident İlham Əliyevin bununla bağlı imzaladığı Sərəncamda qeyd olunduğu kimi, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1993-cü ildə Ümummilli liderin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın bugünkü reallıqlarına yol açdı. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün möhkəm qanunvericilik bazası rolunu oynayır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdi. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Prezident İlham Əliyevin cari ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, imzaladığı bu Sərəncam, eyni zamanda, təsdiqlənən Tədbirlər Planı Azərbaycanın bu illər ərzində keçdiyi inkişaf yolunun təqdimatı olacaq.

### Ulu öndərin irsi misilsiz xəzinədir

Təbii ki, Heydər Əliyev siyasətinin uğurlarını bir yazıda əhatə etmək qeyri-mümkündür. Bu işlərin, ən əsası Ulu öndərin irsinin təbliğində Heydər Əliyev Fondunun xidmətləri misilsizdir. Fondun missiyası çoxşaxəlidir. Heydər Əliyev Fondu Azərbaycanın hərtərəfli inkişafına dəstəyini reallaşdırdığı mühüm layihələri ilə təsdiqləyir. Bu gün missiyasına sadiq qalan Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərimizdə tarixi və dini abidələrimizin bərpasını yüksək səviyyədə həyata keçirir.

Son illərin uğurları sırasında idarəçilik sistemində təkmilləşmənin həyata keçirilməsi diqqəti xüsusilə cəlb edir. Bu baxımdan dövrün çağırışlarına uyğun olaraq Azərbaycanda vitse-prezidentlik institutunun yaradılmasını, 2017-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsini xüsusi qeyd etməliyik. Bu mühüm addım Azərbaycanın həyatında yeni bir mərhələnin əsası kimi dəyərləndirildi. Bu gün dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri əsasında qalib, bütövləşən Azərbaycan möhtəşəm uğurları, tarixi ədalətə söykənərək imza atdığı zəfərləri ilə dünyanın diqqətindədir.

### Böyük Qayıdışın bərpa-quruculuq missiyası

Bütövlükdə son beş ilin, başqa sözlə, tarixi Zəfərimizdən sonrakı dövrün reallıqlarına diqqət yetirsək Prezident İlham Əliyevin milli bayramlarımızda, ölkəmiz üçün əlamətdar günlərdə, ümummilli lider Heydər Əliyevin doğum günündə işğaldan azad edilmiş ərazilərimizə səfər etdiyini, bu məkandan Azərbaycanın uğurlarına baxış əsasında xalqa təbriklərini çatdırdığını, eyni zamanda, həmin tarixlərin soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı ilə yaddaşlara yazıldığının da şahidi oluruq. Müzəffər Ali Baş Komandan İlham Əliyev 2023-cü il "Heydər Əliyev İli" çərçivəsində Ümummilli liderin anadan olmasının 100 illik yubileyi ilə bağlı Qarabağın tacı Şuşadan xalqa müraciətində bu fikri xüsusi qeyd etdi ki, mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Dövlət başçısı bu məqamı da xüsusi qeyd etdi ki, ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik. Prezident İlham Əliyev həmin çıxışında bu çağırışı da etdi ki, bu gün Ulu öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda, hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq. Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik: "Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək."

Ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak etdilər və şəhərə köçmüş ilk sakinlərlə görüşdülər. Prezident İlham Əliyev bu məkandan bir daha bəyan etdi ki, biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq.

Göründüyü kimi, Heydər Əliyev siyasətinin uğurları davamlıdır. Hər günün tariximizə uğur səhifəsi kimi yazılması uğurlarımızın miqyasının nə qədər böyük olduğunu nümayiş etdirir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, müasir müstəqil Azərbaycan Ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Nə qədər ki müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır!

# Heydər Əliyev və Ukrayna hetmanları: dövlət rəhbərliyi tipologiyası

**Tarixi dönüş mərhələlərində məhz siyasi liderlik dövlətin taleyini müəyyən edən əsas amilə, dövlətçiliyi qoruyub saxlamağa, institutları bərpa etməyə və cəmiyyəti səfərbər etməyə qadir olan güclü və uzaqgörən şəxsiyyət Əsrin simvoluna və milli inkişafın təməl sütununa çevrilir. Bu baxımdan, Mayın 10-u görkəmli Azərbaycan dövlət xadimi, Kiyev şəhərinin Fəxri vətəndaşı Heydər Əliyevin doğum günü münasibətilə onun rəhbərliyinin Ukrayna hetmanları ilə tarixi paralellər kontekstində təhlilinə həsr olunmuş elmi-publisistik məqaləmizlə biz dünya miqyaslı görkəmli siyasətçi və dövlət xadimi olan Ulu öndərimizi də xatırlayırıq. Onun həyat yolu, bəşər tarixində milli dövlətlərin qurucuları ilə müqayisəyə layiq bir irsdir. Onun liderliyi – siyasi elitalar üçün nümunə və bir daha sübutdur ki, dövlət ağıl, ləyaqət və fədakarlıqla qurulur.**

1990-cı illərin mürəkkəb və böhranlı dönəmində Azərbaycanı dağılmaqdan xilas etmiş, müasir milli kimlik konsepsiyasını irəli sürmüş və çoxetnik mühitdə sabit dövlətin əsaslarını yaratmış ümummilli lider – Heydər Əliyevin şəxsiyyəti xüsusi diqqətə layiqdir.

Ukrayna tarixində isə buna bənzər rol əvvəlki əsrlərdə hetmanlar – ilk növbədə Boqdan Xmelnitski, İvan Vyhovski, İvan Mazepa və Kiril Razumovski tərəfindən ifa olunmuşdur. Onlar mürəkkəb geosiyasi şəraitdə Ukraynanın muxtariyyəti və ya müstəqilliyi uğrunda mübarizə aparan dövlət xadimləri olmuşlar. Həmin liderlərin fəaliyyəti hərbi, diplomatik və islahatçı təşəbbüslərin birliyinə əsaslanaraq Kazak–Ukrayna dövlətinin birliyinin qorunması, dövlət institutlarının inkişafı və ukraynalı əhalinin hüquqlarının müdafiəsi məqsədi daşıyırdı. Ukrayna hetmanlarının Polşa–Litva Birliyi, Moskva dövləti və Osmanlı imperiyası kimi güclü qonşulardan gələn təhdidlərə qarşı fəaliyyət göstərdiyi kimi, Heydər Əliyev də separatizmin, xarici müdaxilənin və daxili qeyri-sabitliyin təsirini neytrallaşdırmaq gücündə olan milli siyasət formalaşdıra bilmişdir. Onun strateji düşüncə tərzi, suverenliyə yönlük fəaliyyəti, etniklərarası harmoniya və modernləşmə siyasəti, Ukrayna dövlətçiliyi tarixindəki hetmanlıq ənənəsi ilə tipoloji bağlılığı ortaya qoyur.

Dövlət qurucusu, islahatçı, xalqla birbaşa əlaqə qura bilən lider və milli ideoloji əsasların memarı olan rəhbər tipi, həm Ukrayna hetmanlarına, həm də Heydər Əliyevə xas olan ortaq xüsusiyyətdir. Bu tipologiyanın təhlili, müxtəlif tarixi kontekstlər arasında paralelləri üzə çıxarır və milli liderliyin effektiv formalaşma mexanizmlərini daha dərindən anlamağa imkan verir.



## Milli ideya dövlət rəhbərliyinin təməli kimi

Siyasi fəlsəfədə milli ideya, xalqın birliyi, məqsədi və gələcəyi haqqında təsəvvürləri formalaşdıran kollektiv kimliyin əsas elementi kimi dəyərləndirilir. Bu ideya süni şəkildə yaradılmır, əksinə – tarixi yaddaşdan, ənənələrdən və millətin keçmiş təcrübəsindən qaynaqlanaraq, xüsusilə də böhran dövrlərində üzə çıxır. Bu baxımdan, həm Ukrayna hetmanları, həm də Heydər Əliyev dərin milli ideyanın daşıyıcısı və həyata keçiricisi kimi çıxış etmişlər. XVII–XVIII əsr Ukrayna hetmanları üçün milli ideya, kazak dövlətinin muxtariyyəti uğrunda mübarizə, pravoslav inancının, ənənəvi ictimai quruluşun və kazak hüquqlarının qorunması forması almışdır. Boqdan Xmelnitski əvvəlcə Krım xanlığı, sonra isə Moskva dövləti ilə ittifaq bağlamaqla Ukraynanın geosiyasi balanslı mühitdə siyasi subyektivliyini təmin etməyə çalışmışdır. İvan Mazepa isə XVIII əsrdə siyasi kursu dəyişdirmək və Moskvadan İsveçin dəstəyinə yönəlmək cəhdi ilə milli özünü idarə ehtiyacını dərk etdiyini nümayiş etdirmişdir. Bu liderlər üçün milli ideya ilk növbədə dövlətçilik anlayışı ilə bağlı idi — öz torpaqlarında hüquqi və sosial Ukrayna modelinin qorunması ilə.

Heydər Əliyev isə bu məntiqi XX əsrin sonlarında, postsovet siyasi qeyri-sabitliyi şəraitində tətbiq etmişdir. 1990-cı illərdə Azərbaycan dağılmaq təhlükəsi ilə üz-üzə qaldıqda, o, vəziyyəti sabitləşdirməklə yanaşı, milli birliyin ideoloji əsasını – azərbaycançılıq ideyasını formalaşdırdı. Bu konsepsiya etnik ayrı-seçkilik üzərində deyil, ümumi tarix, dil, mədəniyyət və məqsəd – müstəqil, güclü dövlət qurmaq ideyası üzərində qurulmuşdu.

Uğurlu dövlət rəhbərliyi, cəmiyyəti ortaq dəyərlər və gələcək baxışı ətrafında birləşdirən ideoloji təməlsiz mümkün deyil. Milli ideya – xalqın siyasi şüurunun tarixi inkişafının nəticəsidir və bu ideya konkret fəaliyyət proqramlarında, simvolikada və siyasi praktikalarda ifadə olunur. Belə bir ideyanı formalaşdırmaq və reallaşdırmaq bacarığı – dövlət səviyyəsində liderliyin əsas göstəricilərindən biridir.

## Sınaq dövründə lider

Postsovet dövrünün başlanğıcında Azərbaycan Respublikası dərin siyasi xaos, iqtisadi dağılma və ərazi bütövlüyünün itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Bu kritik məqamda xalq və siyasi elita nəzərlərini böyük idarəçilik təcrübəsinə malik, həm ölkə daxilində, həm də beynəlxalq arenada yüksək nüfuza sahib bir şəxsiyyətə – Heydər Əliyevə yönəltdi. Onun 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın yeni tarixi mərhələsinin başlanğıcı oldu: Heydər Əliyev yalnız daxili sabitliyi təmin etmədi, eyni zamanda gələcəyin konseptual əsaslarını formalaşdıraraq "azərbaycançılıq" ideyası üzərində qurulan milli ideoloji platformanı irəli sürdü.

Bu milli platforma aşağıdakı üç əsas komponentə əsaslanırdı: 1) Etnik, dini və mədəni müxtəlifliyə hörmət – vahid siyasi məkan daxilində; 2) Dövlət müstəqilliyi və suverenliyin şərtsiz ali dəyər kimi tanınması; 3) Ənənəvi dəyərlərin müasir qlobal inkişaf modelləri ilə inteqrasiyası – siyasət, iqtisadiyyat və mədəniyyət sahələrində.

Bənzər ideyalar XVII–XVIII əsrlərdə Ukraynanın siyasi həyatında da müşahidə edilirdi. Belə ki, Boqdan Xmelnitski 1648–1657-ci illərdə yalnız Polşa hakimiyyətindən azadlıq uğrunda mübarizə aparmamış, eyni zamanda, öz ordusu, administrasiyası və diplomatik orqanları olan muxtar kazak dövləti qurmağa çalışmışdı. Hetman İvan Mazepa isə dövlətin modernləşdirilməsi üçün Avropa yönümlü kursa üstünlük verir, təhsil, mədəniyyət və kilsə muxtariyyətinin inkişafına diqqət yetirirdi. Poltava döyüşündəki məğlubiyyətə baxmayaraq, onun müstəqil Ukrayna ideyası milli siyasi ənənədə dövlət müstəqilliyi uğrunda mübarizənin simvoluna çevrildi. Həm Ukrayna hetmanlarının, həm də Heydər Əliyevin fəaliyyəti sübut edir ki, milli ideya nə etnik, nə də dini çərçivələrlə məhdudlaşır. Əksinə, onun əsas funksiyası — müxtəlif mənşəli və kimlikli vətəndaşları vahid dövlətçilik şüuru ətrafında birləşdirməkdir. Bu, çoxmillətli cəmiyyətlərdə sabitliyin açarıdır.

Heydər Əliyev "azərbaycançılıq" konsepsiyasını dünyəvi görüş və praktiki idarəçilik paradiqması kimi həyata keçirdi. O, etnik azərbaycanlı kimliyini digər kimliklərə qarşı qoymadı, əksinə, onu açıq, inklüziv və konstitusion şəkildə tanınmış dövlət ideologiyasına çevirdi. Bu da yeni dövlət ideyasının ictimai legitimliyini və siyasi birliyini təmin etdi. Bu ideya yalnız tarixi yaddaşa əsaslanmırdı, həm də müasir çağırışlara cavab verdiyi üçün effektiv və davamlı idi.

Bənzər şəkildə, XVIII əsrdə hetman Kirilo Razumovski də Rusiya imperiyasının mərkəzləşdirici təzyiqləri qarşısında Ukrayna muxtariyyətini qorumaq məqsədilə idarəetmə, təhsil və mədəniyyət sahələrində modernləşməyə çalışırdı. Böyük dövlət liderinin ən önəmli tipoloji xüsusiyyətlərindən biri onun ən dərin böhran şəraitində effektiv qərarlar qəbul edə və onları həyata keçirə bilmə qabiliyyətidir – istər hərbi, istər siyasi, istərsə də sosial-mənəvi böhran şəraitində.

1993-cü ildə Azərbaycan dövlət olaraq dağılma təhlükəsi ilə üz-üzə idi. Siyasi qeyri-sabitlik, Ermənistan tərəfindən hərbi təcavüz, dövlət idarəçiliyinin zəifliyi və səmərəsizliyi fonunda iqtisadiyyatda sərt tənəzzül yaşanır, dövlət institutlarına etimad kəskin şəkildə azalır, separatizm meylləri güclənirdi. Qərar vermə mexanizmləri iflic vəziyyətdə idi, ordu dağınıq, hakimiyyət isə ərazilərin bir hissəsinə nəzarəti itirmişdi.

Məhz bu kritik məqamda xalqın və siyasi rəhbərliyin çağırışı ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı: mərkəzləşdirilmiş idarəçilik yox idi, ərazi itkiləri real təhlükəyə çevrilmişdi və hakimiyyətə etimad kritik səviyyədə idi. Heydər Əliyev siyasi elitanı birləşdirdi, xaosa son qoydu, konstitusiya qaydasını bərpa etdi və güclü, müstəqil, beynəlxalq səviyyədə tanınan bir dövlətin qurulmasına start verdi. Əvvəlcə Milli Məclisin sədri, daha sonra Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin tarixində dönüş nöqtəsi oldu.

Prezidentliyinin ilk günlərində o belə bəyan etdi: "Azərbaycan xalqı öz tarixinin ən çətin, faciəli dövrünü yaşayır. Mən üzərimə düşən məsuliyyətin miqyasını dərindən dərk edirəm və xalqın yüksək etimadını doğrultmaq üçün əlimdən gələni edəcəyəm."

Heydər Əliyev dərhal sabitləşdirmə tədbirlərinə başladı: münaqişəli bölgələrin demilitarizasiyası, dövlət idarəçiliyinin vertikal strukturunun bərpası, milli ordunun formalaşdırılması, xarici siyasətin regional güc mərkəzləri arasında balans əsasında yenidən qurulması həyata keçirildi. Nəticədə milli suverenlik prinsipi 1995-ci il Konstitusiyasında hüquqi baxımdan rəsmiləşdirildi.

## Tarixi paralellər: Heydər Əliyev və Ukrayna hetmanları

Ukrayna tarixi bənzər tarixi presedentlərlə zəngindir. XVII əsrin ortalarında Boqdan Xmelnitski, Polşa–Litva Birliyinə qarşı azadlıq mübarizəsinə rəhbərlik edərək, əslində yeni bir dövlət modelinin – Zaporojye Kazak Ordusunun əsaslarını qoydu. 1648-ci ildə, uzunmüddətli sosial və dini təzyiqlərdən sonra, xalq muxtar idarəçilik ideyası ətrafında birləşdi və məhz hetman silahlı üsyanı dövlət layihəsinə çevirməyə nail oldu. Bənzər şəkildə, İvan Mazepa XVII–XVIII əsrlərin qovşağında Moskva dövlətinin güclənən mərkəzləşmə siyasəti fonunda muxtariyyətini qorumağa çalışırdı. İsveçlə ittifaqa yönəlmiş geosiyasi kursun dəyişdirilməsi təkcə siyasi cəsarət deyil, həm də dövlət müstəqilliyini qorumağa yönəlmiş düşünülmüş bir addım idi. Siyasi məğlubiyyətə baxmayaraq, Mazepa tarixdə strateji təfəkkürə malik lider kimi qaldı – millətin gələcəyi naminə riskə getməyə hazır bir dövlət adamı kimi.

Heydər Əliyev isə, Ukrayna hetmanlarından fərqli olaraq, yenicə müstəqillik qazanmış bir dövlətlə üz-üzə idi. Onun tarixi missiyası, Azərbaycanı xaosdan çıxarıb müasir dövlətçiliyin təməlini qoymaqdan ibarət idi. Bu məqsədə o, radikal qarşıdurma ilə deyil, mərhələli şəkildə etimadın, qanunçuluğun və hakimiyyətin legitimliyinin bərpası yolu ilə nail oldu. O, inqilabçı yox, islahatçı idi və inqilabi üsulların fəlakətə səbəb ola biləcəyi bir şəraitdə sülh və sabitlik siyasəti ilə zorakılığın qarşısını aldı, iqtisadi dirçəlişə təkan verdi, xarici investisiyaları cəlb etdi və ən əsası – ölkənin ərazi bütövlüyünü qorudu. Əliyevin liderlik qabiliyyəti onun qətiyyətli qərarlar qəbul etməsi və onların məsuliyyətini daşıması, dövlət maraqlarını həm daxili siyasətdə, həm də beynəlxalq diplomatiyada ardıcıl müdafiə etməsi ilə ifadə olunurdu.

Xmelnitski, 1648-ci ildə başlanan xalq üsyanının başçısı olaraq, bu hərəkatı tezliklə azadlıq müharibəsinə və müstəqil kazak dövlətinin qurulması prosesinə çevirdi. O, dövlət idarəetmə sistemini yaratdı, Avropanın aparıcı dövlətləri ilə diplomatik əlaqələr qurdu və yeni Ukrayna muxtariyyətinin hüquqi əsaslarını formalaşdırdı. Onun siyasi inancı – dağınıq qüvvələri milli özünüidarəçilik ideyası ətrafında birləşdirmək idi.

Hər iki lider aydın dərk edirdi ki, milli təhlükə anında əsas olan ideoloji təmizlik və ya ani qələbə deyil, dövlətin qorunması, institutların möhkəmləndirilməsi və gələcək inkişafın əsaslarının qoyulmasıdır.

İvan Mazepa, mürəkkəb xarici siyasi şəraitə baxmayaraq, geniş miqyaslı daxili modernləşməni həyata keçirdi: təhsilin, mətbuatın, memarlığın, kilsə muxtariyyətinin inkişafına dəstək verdi. O, Ukraynanın Avropa məkanına mədəni inteqrasiyasını təşviq edir, diplomatik əlaqələr qurur və Moskvanın artan təzyiqi fonunda real muxtariyyətini təmin etməyə çalışırdı.

Heydər Əliyev də strateji islahatçı kimi çıxış edirdi: iqtisadiyyatın bərpası, hüquqi dövlət institutlarının qurulması, yeni Konstitusiyanın qəbulu, enerji və nəqliyyat dəhlizlərinin inkişafı – onun dövlətçilik proqramının əsas sütunları idi. O, Azərbaycanı qlobal əməkdaşlıq üçün açdı, bununla yanaşı milli-mədəni özünəməxsusluq və siyasi sabitlik qorundu.

Mazepa və Əliyev – modernləşmə yönümlü, eyni zamanda ənənəyə hörmətlə yanaşan liderlərin timsalıdır. Onlar dövlətçiliyi yad modellər əsasında deyil, orijinal milli layihə kimi qururdular.

Sol sahil Ukraynasının son hetmanı Kiril Razumovski, imperiya təzyiqləri altında fəaliyyət göstərsə də, diqqətini institusional modernləşməyə yönəltmişdi: məhkəmə sistemini və təhsil sahəsini islah etmiş, muxtariyyəti idarəetmədə səmərəlilik və dünyəvi yanaşma ilə möhkəmləndirməyə çalışmışdı. Onun fəaliyyəti dəyişkən geosiyasi reallıqlar şəraitində Ukraynanın siyasi subyektliyini qorumağa yönəlmişdi.

Eyni şəkildə Heydər Əliyev də hələ sovet dövründən malik olduğu dərin idarəçilik təcrübəsi sayəsində yeni dövrdə müasir və effektiv idarəetmə modelini qurmağa nail oldu: güclü icra vertikali, dayanıqlı institutlar və dövlət iradəsinin üstünlüyü onun rəhbərliyində ön plana keçdi. Bu, keçid dövrünün xaosunu aradan qaldırdı – elə bir uğur ki, bir çox digər postsovet liderləri bunu bacarmamışdı. Əliyevin fərqləndirici xüsusiyyətlərindən biri də Azərbaycanın keçmiş inkişaf mərhələlərini inkar etməməsi, əksinə onları vahid tarixi konsepsiyaya inteqrasiya etməsi idi. O, keçmişə qarşı yox, onun yenidən mənalandırılması uğrunda çıxış edirdi – necə ki, Ukrayna hetmanları dövlətçiliyi Kiyev Rus dövləti, Litva-Rus mirası və kazak reyestri əsasında qururdular. Bu yanaşma Heydər Əliyevə dərin siyasi varislik ideyasını – tarixin davamlı inkişafını kəsmədən, yeni formada davam etdirmək imkanını verdi. Məhz bu cəhət lider-dövlətçini sadəcə, menecer siyasətçidən fərqləndirir.

## Müharibə ilə sülh arasında: geosiyasi balans sənəti kimi diplomatiya

Ukrayna hetmanları son dərəcə mürəkkəb beynəlxalq siyasi şəraitdə fəaliyyət göstərirdilər. Boqdan Xmelnitski Krım xanlığı, Osmanlı imperiyası, Rzeczpospolita (Polşa–Litva Birliyi) və Moskva dövləti ilə müttəfiqlik sazişləri bağlayırdı – bu, dövrün qüvvələr balansından irəli gələn praqmatik diplomatiya idi. Onun əsas məqsədi – Kazak dövlətinin muxtariyyətini qorumaq – xarici əlaqələrdə məhz bu praqmatizmi şərtləndirirdi.

İvan Vyhovski 1658-ci ildə Polşa ilə Hadyatski müqaviləsini imzalayaraq, Ukraynanın federativ dövlətin tərkibində Böyük Rusiya Knyazlığı kimi bərabər hüquqlu iştirakına ümid edirdi. İvan Mazepa isə Rusiyanın mərkəzləşmiş hakimiyyətinin güclənməsinə qarşı İsveçlə ittifaqa can atırdı. Bütün bu addımlar müstəqilliyi açıq münaqişə deyil, müttəfiqlik yolu ilə qorumağa yönəlmiş diplomatik təfəkkürün ifadəsi idi.

Heydər Əliyev hakimiyyətə qayıtdığı zaman Azərbaycan yalnız xarici siyasət kursundan məhrum deyildi, həm də qanlı Dağlıq Qarabağ münaqişəsinə cəlb olunmuşdu. Onun başlıca məqsədi müharibənin aktiv fazasını dayandırmaq, qonşu dövlətlərlə münasibətləri sabitləşdirmək və ölkənin ərazi bütövlüyünə beynəlxalq zəmanətlərin əldə olunması idi.

XX əsrdəki fəaliyyəti zamanı da Heydər Əliyevin o zaman Ukraynanın rəhbərləri olan Vladimir Şerbitskiy, Leonid Kravçuk və Leonid Kuçma ilə çox səmimi münasibətləri olduğundan Moskvadakı Azərbaycan və Ukrayna daimi nümayəndəliklərində görüşərək fikir mübadilələri aparıblar.

Türkiyə və Ukraynanın dəstəyi ilə Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq üçün 1994-cü il mayın 12-də Ermənistan və Azərbaycan atəşkəs haqqında saziş imzaladılar.

Hətta 1978-ci ildə Heydər Əliyevin Azərbaycan dilini dövlət dili kimi Azərbaycan Konstitusiyasına əlavə edəndə Ukraynanın belə addım atmasına Kremlin mane olduğunu da eşitmişdik.

Heydər Əliyevin xarici siyasət strategiyası dəqiq formalaşdırılmış və balanslaşdırılmış prinsiplərə əsaslanırdı:1) Çoxvektorluq – Qərblə strateji tərəfdaşlığın dərinləşdirilməsi fonunda, eyni zamanda Türkiyə və müsəlman dünyası ilə əlaqələrin inkişafı; 2) Qlobal layihələrdə iştirak – enerji və nəqliyyat dəhlizlərinin yaradılması (Bakı–Tbilisi–Ceyhan neft kəməri), regional təhlükəsizlik təşəbbüslərində iştirak; 3) Təcrid olmadan neytrallıq – hərbi bloklara qoşulmaqdan imtina etməklə yanaşı, BMT, ATƏT və Qoşulmama Hərəkatı çərçivəsində fəal diplomatik iştirak.

Bu siyasətin əsas məqsədi xarici risklərin minimallaşdırılması və daxili sabitlik, inkişaf üçün əlverişli şəraitin yaradılması idi. Həm hetmanlar, həm də Heydər Əliyev xarici siyasəti ideoloji qarşıdurma meydanı deyil, dövlətçiliyin qorunması vasitəsi kimi dəyərləndirirdilər. Onların yanaşması hansısa gücə loyal olmaqdan deyil, milli maraqlar kateqoriyasından irəli gəlirdi. Bu praqmatizm, müttəfiqlərin dini və ya dil baxımından deyil, dövlət suverenliyinə təminat verə bilmək qabiliyyəti əsasında seçilməsi demək idi. Necə ki, hetmanlar Moskva, Varşava, Konstantinopol və Stokholm arasında diplomatik tarazlıq yaradırdılar, Əliyev də Vaşinqton, Brüssel və Ankara arasında balanslı siyasət qururdu. O, geosiyasi səhvin qiymətini yaxşı anlayırdı və Azərbaycanın təcriddən yayınmasına, iqtisadiyyatının möhkəmlənməsinə və müstəqilliyinin qorunmasına imkan verən yolu seçdi. Bütün bunlar bizə əsas verir deyək: Heydər Əliyev – müasir dövrdə hetman miqyaslı bir siyasətçidir, çünki onun qarşısında duran çağırışlar bir vaxtlar Ukraynanın dövlətçilik liderləri ilə üzləşdikləri çağırışlarla mahiyyət etibarilə eyni idi. Onun diplomatiyası yalnız konkret bir dövrə aid deyil – bu, siyasi müdrikliyin tarixi davamlılığı idi.

**(ardı var)**

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru***

***Veronika ÇEKALYUK,***
***Kiyev Milli Universitetinin əməkdaşı***



# Ulu öndər DTK-nı necə milliləşdirmişdi?

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatinin 25 ili SSRİ DTK-sı ilə bağlıdır. Qeyd edək ki, onun 1949–1950-ci illərdə Leninqradda SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin rəhbər kadrların yenidən hazırlanması məktəbində təhsil aldığı 2 ili də sırf xidmət göstərdiyi 23 illik bir yola əlavə etmişik.**

1941-ci il avqust ayının 20-də SSRİ-nin hər yerində olduğu kimi, Naxçıvanda da Xalq Daxili İşlər Komissarlığı ilə Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı birləşdirilmişdi və Naxçıvan Xalq Daxili İşlər Komissarlığı adlandırılmışdı. 5 iyul 1997-ci ildə Heydər Əliyev Respublika Milli Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncağda söylədiyi nitqində demişdir: “Əgər 1920-ci ildən ta son illərə qədər bu orqanlar – vaxtilə ÇEKA, QPU idi, sonra NKVD idi, sonra NKQB, NKVD oldu, mən bunların adlarını rusca deyirəm, azərbaycanca tərcümə etmək olar, amma bunlar bizim beynimizə elə bu cür giriblər, sonra oldu MVD, MQB, sonra oldu MVD, KQB – görürsünüz, adları nə qədər dəyişilibdir”. Sovet təhlükəsizlik sisteminin keçdiyi yolun tarixinə nəzər salaq. SSRİ-nin Dövlət təhlükəsizliyinin mühafizəsi üzrə ilk orqanlar hərbi inqilab komitələri olmuşlar. İlk əvvəllər Ümumrusiya Fövqəladə Komissiyası yaradıldı. 1922-ci il fevralın 6-da ÜFR (Ümumdünya Fövqəladə Komissiyası) ləğv edildi. RSFR (Rusiya Sovet Federativ Respublikası) Daxili İşlər Komissarlığı nəzdində Dövlət Siyasi İdarəsi yaradıldı. Azərbaycanda da 1926-cı il avqustun 7-də Azərbaycan Fövqəladə Komissiyasının (Az ÇK) da adı dəyişdirildi və Dövlət Siyasi İdarəsi (DSİ) adlandırıldı. Rusca QPU (Государственное политическое управление) deyilirdi.

1923-cü il 2 noyabr tarixli qərarla SSRİ Xalq Komissarlığı nəzdində Birləşmiş Dövlət Siyasi İdarəsi yaradıldı. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1934-cü il 10 iyun tarixli qərarı ilə ittifaq respublikalarında da Xalq Daxili İşlər Komissarlığı (XDİK) yaradıldı. Qeyd edək ki, Birləşmiş Dövlət Siyasi İdarəsi də onun tərkibində idi. Amma bu zaman o idarə Baş Dövlət Təhlükəsizliyi İdarəsi (BDTİ) adlandırıldı.

1934-cü il iyulun 10-dan 1941-ci ilədək SSRİ-də vahid Xalq Daxili İşlər Komissarlığı XDİK (rusca NKVD) 1941-ci il fevralın 3-dən iki ayrı komissarlığa bölündü: Xalq Daxili İşlər Komissarlığına (XDİK) və Xalq Dövlət Təhlükəsizliyi Komissarlığına (XDTK) bölündü. Hər iki orqan müstəqil idi.

İkinci Dünya müharibəsinin başlanması ilə dövlət və ictimai orqanların ölkənin müdafiəsinə dair səylərini mərkəzləşdirmək məqsədilə 1941-ci il iyulun 3-də onları yenidən birləşdirdilər. Adı Xalq Daxili İşlər Komissarlığı adlandırıldı. 1946-cı il martın 5-də XDTK-nın adı dəyişdirilərək Dövlət Təhlükəsizliyi Nazirliyi (DTN) adlandırıldı. 1953-cü ildə iki nazirliyi (XDİK-ni və DTN-ni) yenidən vahid Daxili İşlər Nazirliyində birləşdirdilər. 1967-ci ildə Y.V.Andropovun iradəsi ilə DTK Nazirlər Sovetinin tabeliyindən çıxarıldı və Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin tabeliyinə keçirildi. 1954-cü il martın 13-də SSRİ Ali Sovetinin fərmanı ilə SSRİ Ali Soveti yanında Dövlət Təhlükəsizliyi (DTK) yaradıldı.

18 yaşlı Heydər Əliyevi 1941-ci ildə Naxçıvan XDİK-da işə qəbul etdilər. Heydər Əliyev 1941-ci ildə Xalq Daxili İşlər Komissarlığının əməkdaşı olmuş və 1943-cü ilədək həmin komissarlıqda çalışmışdır. O, komissarlığın “Arxiv” şöbəsində işə başladı. Onu şöbənin məxfi hissəsinin müdiri təyin etdilər. 1943-cü ilin axırlarında Heydər Əliyevə Dövlət Təhlükəsizliyi Komissarlığına işə keçməyi təklif edirlər. Şərəfli xidməti fəaliyyətini dərindən və incəliklə araşdıranda aydın olur ki, o, elə əvvəldən təhlükəsizlik işçisi kimi çalışıb.

1944-cü ilin 27 yanvarında Heydər Əliyev Dövlət Təhlükəsizliyi Xalq Komissarlığında əməliyyat müvəkkili vəzifəsinə təyin edilir. Heydər Əliyev sonralar özü bu haqda yazmışdır: “Məni XDİK-ə işə götürdülər. Bu vəzifə üçün mənə heç kimin köməyi olmadı. Səbəbini bu gün belə bilmirəm”. 1944-cü ilin may ayında Naxçıvan Muxtar Respublikasında yeni yaradılmış Dövət Təhlükəsizliyi Komissarlığında işə başlamış təzə əməkdaş – əməliyyat müvəkkili Heydər Əliyev bacarıqlı, bilikli, əqidəli, nöqsanlara barışmaz, həssas qayğıkeş münasibəti ilə fərqlənən olduğu üçün ona XDTK-nın leytenant rütbəsi verilir. Həmin illərdə Naxçıvan XDTK idarəsi şəhərin mərkəzində, Bazar çayının sol sahilində Hacı Vəli ağa Şahtaxtinskinin mülkündə yerləşirdi.

Bəzi araşdırmaçılar yazırlar ki, Heydər Əliyev Dövlət Təhlükəsizliyində xidmətə L.P.Beriyanın rəhbərliyi dövründə daxil olub. Amma N.Zenkoviçin apardığı araşdırmalar göstərir ki, bu fikir yanlışdır. Çünki 1941-ci ilin iyul ayında Xalq Daxili İşlər Komissarlığı və Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı birləşdirilmişdi. Birləşmiş Komissarlığın rəhbəri Beriya olsa da, Baş Dövlət Təhlükəsizliyi İdarəsinə müavin vəzifəsində işləyən Merkulov rəhbərlik edirdi. 1943-cü ilin aprel ayında Birləşmiş Xalq Komissarlığını yenidən böldülər. Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının rəhbəri yenə də Merkulov oldu.

Merkulov Bakı quberniyasının Zaqatala şəhərində anadan olmuş və Bakı Texniki Məktəbində oxumuşdur. O, Sovet xüsusi xidmət orqanlarının intellektual qanadının nümayəndəsi idi. Tarixi araşdırmaçı N.Zenkoviç yazır: “Beləliklə, biz ən geniş yayılmış yanlış fikirlərdən birinin əsassız olduğunu üzə çıxardıq və müəyyən etdik ki, Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarına V.N.Merkulovun rəhbərliyi dövründə gəlmişdir. Yazılanlardan məlum olur ki, Merkulovun rəhbərliyi dövründə dövlət təhlükəsizliyi orqanları çox səmərəli işləyirdi. Qeyd edək ki, kəşfiyyat, əks-kəşfiyyat və Siyasi Büronun mühafizəsi Merkulovun tabeliyində idi. Həmin vaxtlar Naxçıvanda da dövlət təhlükəsizliyi orqanı səmərəli işləyirdi. Merkulovun iş üslubu başqalarından fərqlənirdi. O, əsl ziyalı idi. Həm də qələm sahibi idi. O illərdə SSRİ-nin hər yerində, o cümlədən Bakıda və Naxçıvanda göstərilən “Mühəndis Sergeyev” pyesinin müəllifi Merkulov idi. Amma bunu heç teatrşünaslar da bilmirdilər. Çünki müəllif imzasında onun təxəllüsü yazılırdı: Vsevolod Rokk. Merkulovun zəkasını, savadını, yazmaq və danışmaq qabiliyyətini elm, mədəniyyət və incəsənət xadimləri yüksək qiymətləndirirdi”. 1946-cı ilin mayınadək Merkulov dövlət təhlükəsizliyi naziri vəzifəsində işləmişdir. “Merkulovun dövlət təhlükəsizliyini intellektuallaşdırmaq xəttini sonralar Andropov davam etdirmişdi. Merkulov özü ədəbiyyat sahəsində qələm işlədir, başqalarını da bununla məşğul olmağa həvəsləndirirdi. Andropov babat şeirlər yazırdı, amma onları dərc etdirmirdi. Lakin o da bədii yaradıcılığa meyli olan adamları özünə yaxınlaşdırırdı”.

Qeyd edək ki, dövlət təhlükəsizliyini intellektuallaşdırmaq xəttini daha mükəmməl formada Heydər Əliyev davam etdirib. Hətta o, müstəqil Azərbaycan Respublikasının Prezidenti vəzifəsində olduğu dövrdə də çox sevdiyi bu xəttə sadiq qalıb. Araşdırmalar göstərir ki, Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi illər ittifaq dövlət təhlükəsizliyinin 9 rəhbərinin dövrünə təsadüf edir: Merkulov – Abakumov – İqnatyev – Kruqlov – Beriya – Serov – Şelepin – Semiçastı – Andropov. Bunların içərisində Heydər Əliyev yalnız qeyri-adi şəxsiyyət olan Y.V.Andropovla səmimi dostluq münasibəti saxlamışdır. Çünki hər ikisi ziyalı, çox mütaliə edən və çox düşünən insan idi.

Heydər Əliyev çox yüksək səviyyədə intellektual şəxsiyyət olmuşdur. O, müxtəlif dilləri bilirdi, aktyorluq sənətinə və rəssamlığa böyük marağı vardı. İncəsənət tarixinin, nəzəriyyəsinin və fəlsəfəsinin mahir bilicisi olmaqla, Azərbaycan, rus və Qərbi Avropa teatrının ənənələrinə və novatorluğuna dərindən bələd idi. 1947-ci ildə artıq baş leytenant olan Heydər Əliyev Naxçıvan XDTK-sının 5-ci şöbəsinin rəisi təyin edilmişdir.



Zenkeviç haqlı olaraq yazır ki, heç vaxt – nə əvvəllər, nə də onlardan sonra – sovet dövründə Moskvada Lubyankanın və Bakıda “dəniz kənarındakı bina”nın rəhbərləri bu dərəcədə yüksək erudisiyalı, hərtərəfli hazırlıqlı şəxslər olmamışlar. SSRİ DTK-sı Andropovun dövründə və Azərbaycan SSR DTK-sı Əliyevin dövründə nəzərəçarpacaq dərəcədə ziyalılaşmışdı. Heydər Əliyev 1949–1950-cı illərdə göndərişlə SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqrad məktəbində təhsil almışdır. Daha dəqiq desək, 1949-cu ilin mayında onu Leninqrada – SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin operativ rəhbər heyətin yenidən hazırlanması məktəbinə oxumağa göndərdilər. Olduqca gizli fəaliyyət göstərən bu məktəb ən nüfuzlu məktəb idi. 26 yaşlı Heydər Əliyev bu məktəbi əla qiymətlərlə bitirir. Məktəbin rəisi Pinçukun imzaladığı xasiyyətnamədə deyilir: Oxuduğu müddət ərzində dərs əlaçısı olmuş, adı şərəf lövhəsinə yazılmışdır”. Heydər Əliyevə Leninqrad məktəbi tərəfindən verilmiş 1950-ci il iyun tarixli xasiyyətnamə bu sözlərlə bitir: “Xidməti vəzifədə irəli çəkilməyə layiqdir” .

1951-ci ildə Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil oldu. Artıq bu zaman o, DTK-nın mayoru idi. 1957-ci ildə Heydər Əliyev DTK-nın 2-ci şöbəsinin rəisi işləmişdir. Baş leytenant Heydər Əliyevin təyin olunduğu Azərbaycan DTN-nin 2-ci şöbəsinin altıncı bölməsi “Şərq istiqamətinə” baxırdı.

Özünə və başqalarına yüksək tələbkar, kütlələrlə daim əlaqə saxlayan, adamlara həssas, qayğıkeş münasibəti ilə fərqlənən təşkilatçılıq qabiliyyəti, tükənməz enerjisi, işgüzar təşəbbüskarlığı ilə fərqlənən və hörmət qazanan Heydər Əliyev 1953-cü ilin sonunda Azərbaycan DTN-nin əks-kəşfiyyat şöbəsinin rəisi, 1955-ci ilin ortalarında DTK-nın uçot-arxiv şöbəsinə baş əməliyyat müvəkkili təyin edildi. 6 aydan sonra Heydər Əliyev 2-ci şöbənin bölmələrindən birində rəis müavini, az bir müddət keçəndən sonra rəis vəzifəsində çalışdı. Yenidən DTK-nın keçirdiyi əməliyyatlarda qazandığı uğurlar nəticəsində Heydər Əliyevi 2-ci şöbənin rəis müavini təyin edirlər. Artıq 1958-ci ildə Heydər Əliyev Azərbaycanın əks kəşfiyyatına başçılıq edirdi. Bu vaxt o, 35 yaşlı gənc kəşfiyyatçı idi. Heydər Əliyev 1958–1964-cü illərdə əks-kəşfiyyatda vəzifə tutmuşdur. Onun DTK-da xidmət yolu 1944-cü ildə Naxçıvan MSSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının sıravi əməliyyat vəzifəsindən başlamışdı. Xidmət pillələrinin hamısını uğurla keçmişdi.

Ulu öndərin 1997-ci ildə Azərbaycan Dövlət Təhlükəsizliyi işçilərinin qarşısında dediyi kimi, xüsusi xidmət orqanları həmişə olub. Kəşfiyyat və əks-kəşfiyyat qədim dövrlərdə yaranıb. Bu orqanlar hakimiyyətin çox vacib təsisatlarıdır, onlarsız dövlət mövcud ola bilməz. Dövlət necədirsə, xüsusi xidmət orqanları da o cürdür.

1960-cı ildə əks-kəşfiyyatda dəyişikliklər aparıldı və o vahid strukturda cəmləşdi – bütün ixtisaslaşdırılmış əks-kəşfiyyatlar və sonralar 5-ci şöbənin məşğul olacağı sahə (ideoloji), hamısı böyük bir şöbədə birləşdirildi. Faktiki olaraq DTK aparatı o vaxt cəmi 2 xidmət sahəsindən ibarət idi: kəşfiyyat və əks-kəşfiyyat. Azərbaycan əks-kəşfiyyatının rəisi, podpolkovnik Heydər Əliyev DTK-da aparılan yeni siyasətin həyata keçirilməsində fəal iştirak edirdi.

Məşhur araşdırıcı N.Zenkoviç haqlı olaraq yazır ki, Ümumrusiya Fövqəladə Komissiyası – Dövlət Siyasi İdarəsi – Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı – Dövlət Təhlükəsizliyi Nazirliyi – Dövlət Təhlükəsizliyi Komitəsinin həqiqi tarixi hələ yazılmayıb.

1964-cü il dekabrın 23-də Heydər Əliyev Azərbaycan DTK-sının sədr müavini təyin edilir. 1965-ci il martın 31-də ona polkovnik rütbəsi verilir. O vaxtlar Azərbaycan DTK-sına sədrlik edən Semyon Sviqun Moskvaya – SSRİ DTK-sı sədrinin 1-ci müavini vəzifəsinə təyin edilən zaman öz yerinə Heydər Əliyevi məsləhət bilir. Sviqun onun təşkilatçılıq qabiliyyətinə, işdə dəqiqliyinə, analitik bacarığına, geniş dünyagörüşünə diqqət yetirmiş və böyük siyasətə yolunu açmışdı. Sviqun Moskvaya gedəndən sonra, Heydər Əliyev 1967-ci il iyunun 22-dən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə sədrlik etməyə başladı. Bir qədər sonra, 1967-ci ilin 26 oktyabrında Heydər Əliyevə general-mayor hərbi rütbəsi verildi. O, SSRİ DTK-sı tarixində general rütbəsi alan ilk azərbaycanlı idi.

Heydər Əliyev 1965–1969-cu illərdə Azərbaycan DTK-sının rəhbərliyində xalqımıza layiqincə xidmət etmişdir. 1969-cu ilin iyulunda Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi, 1982-ci il noyabr ayından isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində nümunəvi partiya işçisi kimi fəaliyyət göstərmişdir.

5 iyul 1997-ci ildə Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyev söylədiyi nitqində Dövlət Təhlükəsizliyinin tarixindən, Azərbaycan xalqının XX əsrdə və xüsusən 1918–1919-cu illərdən indiyə qədər keçdiyi yolun tarixinin bütün mərhələlərindən və özünün kəşfiyyatçı-əks kəşfiyyatçı fəaliyyətinin bəzi məqamlarından söhbət açmışdır. Özünün qeyri-adi fəaliyyətindən danışmasa da, araşdırmalar zamanı onun hələ gənc ikən mahir kəşfiyyatçı və əks-kəşfiyyatçı olduğu aşkar görünür. O vaxtlar Naxçıvan da SSRİ-nin Ukrayna və Belorusiya kimi strateji məkanı sayılırdı. Çünki mürəkkəb və ziddiyyətli siyasəti olan İranın ərazisi Amerikanın və Hitler Almaniyasının casus kəşfiyyatçıları ilə dolu idi. Buna görə də Naxçıvanda sınaqlardan bacarıqla çıxan gənc kəşfiyyatçı Heydər Əliyevə çox böyük ehtiyac duyulurdu. Təşəbbüskar, yenilikləri sevən, prinsipial, qətiyyətli, hərtərəfli savadlı Hedər Əliyevin məharətini Moskvada oturan çekistlər görürdülər. O, azərbaycanlı olduğu üçün paxıllığını çəkənlər tapılsa da, önünə sədd çəkə bilmirdilər. Ona böyük ehtiyacları vardı. Naxçıvan mühüm sərhədyanı diyar olduğundan Heydər Əliyevi birbaşa əks-kəşfiyyat bölməsinə əməliyyat müvəkkili vəzifəsinə götürdülər.

Dahi rəhbər Heydər Əliyev özünün tarixi nitqində fəaliyyətinin qısaca sxemini təsvir etmişdir. Cəsarətlə demək olar ki, bu parlaq nitq müstəqil Azərbaycanın Milli Təhlükəsizlik orqanlarının gənc əməkdaşlarının həvəslə öyrəndikləri çox vacib bir mənbədir. Heydər Əliyev həmin görüşdə demişdir: “Uzun fasilədən sonra mənim üçün gənclik illərindən başlayaraq çox əziz və maraqlı bir peşə – dövlət təhlükəsizliyi ilə məşğul olan orqanın işçiləri ilə bir daha görüşməyimdən çox məmnunam”.

Heydər Əliyev 1969-cu ildən partiya işində çalışanda, 1982-ci ildən sonra Moskvada, Kremldə yüksək vəzifədə olduğu vaxtlarda Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarına həmişə hamilik etmişdir. Müstəqil Azərbaycanın Prezidenti olduğu illərdə də biliyini və bacarağını bu sahədən əsirgəməmişdir. Bu gün inam və qürurla deyə bilərik ki, kəşfiyyat və əks-kəşfiyyat üzrə məxsusi bir Heydər Əliyev məktəbi var. Özünün dediyi kimi: “Bunlar tarixin səhifələridir, heç kəs tarixin səhifələrini dəyişdirə bilməz”.

Heydər Əliyev 4 ixtisas üzrə təhsil almışdır. Hərtərəfli biliyi və fəhmi ilə, həmçinin DTK-da öyrəndikləri və siyasi qətiyyəti ilə Müstəqil Azərbaycanı üzləşdiyi təhlükələrdən layiqincə qorumuşdur. O, DTK-da işlədiyi illərdə bu mühüm orqanda milli kadrların çox olmasına çalışmış və buna nail olmuşdur. Heydər Əliyev istəyirdi ki, xalq görsün və inansın ki, DTK dövlət mənafeyinə ziyan gətirməməklə, milli maraqları şərəflə qoruyur.

Heydər Əliyev DTK-da işlədiyi illərdə birbaşa onun rəhbərliyi ilə keçirilən “Alagöz”, “Duel”, “Duqlas”, “Naturalist”, “Radist” və digər əməliyyatlar haqqında bəzi mənbələrdə, az da olsa, məlumatlar vardır. Çünki hələ də məxfiliklər saxlanılmaqdadır. Bu yaxınlarda akademik R.Hüseynov “İran gəmisinin Bakı macəraları” adlı maraqlı məqaləsində belə əməliyyatlardan birindən ətraflı söhbət açmışdır. Digər müəlliflərin də ildönümü ilə bağlı yazılarında Heydər Əliyevin bilavasitə apardığı mühüm əməliyyatların bəziləri haqqında azacıq da olsa, məlumatlara rast gəlinir. Heydər Əliyevin DTK-da fəaliyyəti son dərəcə unikallığı ilə seçilir. Nə vaxtsa DTK-nın tarixi dərindən yazılsa, bu unikallığı hər bir azərbaycanlı apaydın görəcək.

Əsrlər ötüb keçəcək və hər gələn yüzillikdə azərbaycanlılar böyük siyasi xadim və kəşfiyyatçı Heydər Əliyevi ürəkdən sevəcəklər.

***Musa QULİYEV***
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

# Xalqa xidmətin uca nümunəsi



**Tarixi təcrübə məlum həqiqəti bir daha təsdiqləyir ki, liderin rolu, gücü, şəxsi keyfiyyətləri, idarəçilik qabiliyyəti ictimai sabitlik və tərəqqi ilə düz mütənasibdir. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli dövlətçilik və siyasi fəaliyyətinin ayrı-ayrı mərhələlərini nəzərdən keçirmək məqsədəuyğun olardı.**



Azərbaycanın mürəkkəb, keşməkeşli, eyni zamanda, şərəfli hadisələrlə zəngin olan çağdaş tarixinin çox böyük və mühüm hissəsi xalqımızın böyük oğlu və lideri, dünyanın ən nüfuzlu dövlət xadimlərindən biri olan Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti ilə bilavasitə bağlıdır.

Tariximizin ən təlatümlü, mürəkkəb dövrlərində Heydər Əliyev xalqına rəhbərlik məsulliyətini və missiyasını öz üzərinə götürmüş, yaradıcılıq potensialını düzgün istiqamətləndirməklə, onu real faciələrdən və fəlakətlərdən qorumağa nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, “Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş, qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.

Heydər Əliyevin həyatı və fəaliyyəti öz xalqına təmənnasız və sədaqətli xidmətin bariz nümunəsidir. Harada fəaliyyət göstərməsindən, hansı vəzifə tutmasından asılı olmayaraq, onun başlıca amalı doğma xalqının rifahı və maraqları olmuşdur. Təhlükəsizlik orqanlarında arxiv şöbəsinin məxfi hissəsinin müdiri kimi kiçik vəzifədən SSRİ kimi fövqəldövlətin rəhbərlərindən biri, müstəqil dövlətin başçısı kimi ən uca məqamlarda da o, bu amala həmişə sadiq qalmış, xalqının etimad və hörmətini uca tutmuşdur. Azərbaycan xalqı da, öz növbəsində, böyük övladına dəyər vermiş, tarixinin ən ağır anlarında ona üz tutmuş, öz nicat yolunu yalnız onda görmüşdü. Məhz bu qarşılıqlı inam və etimad, “Xalq – Heydər” birliyi dövlətimizi və millətimizi ən ağır facilərdən qorumuş, tərəqqi və rifah yoluna çıxarmışdır.

Heydər Əliyev Azərbaycan SSR-nin siyasi rəhbəri seçilənə qədər dövlət təhlükəsizlik orqanlarında çalışdığı 25 illik bir müddət ərzində sovet rejiminin reallığına uyğun olaraq çətin və şərəfli bir ömür yolu keçərək, leytenant rütbəsindən general-mayor rütbəsinədək, siravi əməkdaşdan DTK-nın sədri vəzifəsinə qədər yüksəlmişdir. Heydər Əliyev bu nəhəng və qorxunc represiya orqanını bir növ milliləşdirməklə, onun tərkibinə ləyaqətli kadrları yerləşdirməklə, xalqın gözündən “KQB xofunu” çıxarmaqla milli və vətənpərvər ziyalılarımızı amansız təqiblərdən qorumağa nail olmuşdur.

DTK-ya rəhbərlik etdiyi illərdə burada milliləşmə prosesinin əsası qoyulmuş, təhlükəsizlik orqanlarının milli kadrlarla təmin edilməsi və onların hazırlanmasına diqqət artırılmışdır. Məhz Ulu öndərin səyi və birbaşa iştirakı ilə həmin dövrdən təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi 1980-ci illərdə 70 faizə çatmış, bu proses dinamik dönməz xarakter almışdır. Azərbaycanda xüsusi xidmət orqanlarının azərbaycanlaşdırılmasını böyük uğur hesab edən Heydər Əliyev sonralar qeyd edirdi ki, “Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının milliləşdirilməsi prosesi bu təşkilatın Azərbaycana vurduğu zərərə baxmayaraq, bizim əldə etdiyimiz ən böyük nailiyyət idi. Təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqamətini Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu”.

DTK-da işlədiyi uzun illər ərzində də ermənilər Azərbaycan torpaqlarına olan seperatçı iddialarını bu və ya digər şəkildə dəfələrlə qaldırmış, lakin daim prinsipial və qəti mövqe tutan Heydər Əliyev belə çirkin niyyət və səylərin qarşısını qətiyyətlə almışdır. Heydər Əliyev bu dövrdə baş verən hadisələrdən bəhs edərək göstərirdi ki, “30-cu, 40-cı, 50-ci , 60-cı, 70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişlər. Onlar dəfələrlə qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam”.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövr onun ictimai-siyasi fəaliyyətinin xüsusi bir mərhələsini təşkil edir.1960-cı illərin sonunda Azərbaycana rəhbər təyin edilmiş Heydər Əliyev cəsarətli qərarları ilə respublikada hökm sürən hərc-mərcliklərə, qanunsuzluqlara mənəvi deqradasiyaya son qoyaraq, sosial-iqtisadi və mədəni inkişafa yol açdı. Onun Azərbaycan SSR-ə rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil oldu. Təsərrüfatın bütün sahələrində sabit və yüksək sürətli, dinamik artım əldə edildi. 1985-ci ildə sənayedə əmək məhsuldarlığı, 1970-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdır. Xalq təsərrüfatında mənfəət bütövlükdə 335 faiz çoxalmışdır.

Tarixi baxımdan qısa bir dövrdə Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf etdirildi, yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradıldı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular əlvan metallar, sintetik kauçuk, elektrik mühərriklər, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsal üzrə SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Ölkəmizdə tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, onlarca teatr açılmış, kino sənəti, mətbuat inkişaf etmiş, çox sayda qəzet və jurnal çap olunmuşdur.

Heydər Əliyev həmin illərdə sovet totalitor rejiminin yaratdığı məhdud imkanlardan istifadə edərək, Azərbaycanın sosial-iqtisadi, mədəni-mənəvi inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla doğma Vətənin çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir. Məhz Heydər Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində hələ o zaman Azərbaycanın müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mədəni-mənəvi potensial yaradılmış milli kadr problemi həll edilmişdir.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970–1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.

Beləliklə, 1970-ci illərdə əldə edilən tərəqqi, həmrəyliyə nail olunması, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu.

Ulu öndərin unikal idarəçilik, yüksək mənəvi keyfiyyətlərə, xarizmatik liderlik məziyyətlərinə malik olması onun sovet dövləti idarəçiliyinin zirvəsinədək yüksəlməsinə imkan vermişdir. 1982-ci ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi ilə onun ictimai-siyasi fəaliyyətinin yeni bir mərhələsi başlamışdır.

1982–1987-ci illərdə SSRİ-nin ali rəhbərliyində təmsil olunan Heydər Əliyev qlobal düşüncələri, fitri istedadı ilə insanlarda ruh yüksəkliyi yaratmaq, həvəsləndirmək, novatorluğu və kreativliyi, humanizm uğrunda apardığı davamlı, prinsipial mübarizəsi ilə tez bir zamanda bütün Sovet İttifaqında böyük nüfuz sahibinə çevrilmişdir. Həmin illərdə Heydər Əliyev SSRİ kimi nəhəng bir dövlətin sosial-iqtisadi həyatının ən mühüm sahələrinin rəhbəri olmuş, onun xarici siyasətinin həyata keçirilməsində fəal iştirak etmişdir.

Moskvada işlədiyi müddətdə Heydər Əliyev dəfələrlə ölkədə baş vermiş fəlakətli qəzalarla bağlı yaradılmış hökumət komissiyalarına rəhbərlik etmiş, hər dəfə də qarşısında duran çətin işlərin öhdəsindən bacarıqla gəlmişdi.

Sovet rəhbərliyində təmsil olunduğu illərdə həmişə olduğu kimi, öz siyasi və mənəvi prinsiplərinə sadiq qalmış, Qorbaçovun və ətrafının şovinist, ermənipərəst siyasətinə qarşı daim etirazını bildirmiş, öz xalqının maraqlarına heç vaxt xilaf çıxmamışdır. Həmin illərdə heç kim hansısa şəkildə Azərbaycan xalqının maraqlarına təcavüz edə bilməmişdi, respublikaya qarşı açıq-aşkar şəkildə ayrı-seçkilik edilməmişdir.

Heydər Əliyev Moskvada işlədiyi dövrdə Azərbaycanın tərəqqisi və inkişafına diqqət və qayğısını daha da artırmış, burada yaşadığı dövrdə respublikaya işgüzar səfərlər etmiş, problemləri yerində öyrənərək yüksək səviyyədə həllinə nail olmuşdur. Həmin illərdə Azərbaycan xalqı hər bir anda Heydər Əliyevin qayğısını öz üzərində hiss edirdi. Bu xüsusda sonralar Heydər Əliyev deyirdi: “Moskvada 5 ildən artıq işləyərkən yenə də, ümumiyyətlə, Azərbaycana himayədarlıq etmişəm”.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən azad olduqdan sonra Heydər Əliyevə qarşı başlanmış kampaniya çərçivəsində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsindən tutmuş, SSRİ Prokurorluğunun xüsusi qruplarına qədər saysız-hesabsız strukturlar səfərbər olunmuşdu. 1988-ci ilin sonunda Azərbaycan SSR-ə bu orqanların 1500 nəfər nümayəndəsi ezam olunmuşdu. Lakin onlar nə qədər “qazsalar” da özlərinin rəzil niyyətlərinə çatmaq üçün lazımi faktları əldə edə bilmədilər, çünki belə faktlar sadəcə yox idi.

Bütün bu təqib və təzyiqlər siyasi mübarizələrdə əzmkarlıq və cəsarət göstərmiş bu dahi insanı heç bir zaman öz mövqeyindən çəkindirməmişdi, əksinə, o, daha qətiyyətli addımlar atmışdı.

O zamankı SSRİ və Azərbaycan SSR rəhbərliyinin təqiblərindən doğma yurduna – Naxçıvana pənah gətirməli olan Heydər Əliyev bu kiçik Vətən torpağını erməni işğalından qurtarmaqla həm də naxçıvanlıların xilaskarlıq missiyasını öz üzərinə götürdü. Muxtar respublika üçün mürəkkəb bir dövrdə Heydər Əliyev orada yeni vüsət alan milli azadlıq və demokratik hərəkatın liderinə çevrildi. Onun başçılığı və təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi milli dövlətçiliyinin dirçəlişi istiqamətində mühüm tarixi qərarlar qəbul etdi. Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin 1990-cı ilin noyabrında keçirilmiş ilk sessiyasında muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılmış, ali dövlət hakimiyyət orqanının adında dəyişiklik edilmiş, Ali Sovet Ali Məclis adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmiş, Dağlıq Qarabağ hadisələrinə prinsipial münasibət bildirilmişdi. DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirən Ali Məclis, eyni zamanda, Dağlıq Qarabağ məsələsində mərkəzin və respublika rəhbərliyinin tutduğu mövqeyi qətiyyətlə pisləyərək, ermənilərin torpaq iddialarının qarşısını almaq üçün onlardan təsirli tədbirlər görməyi tələb etmişdi.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsi oldu. Onun bölgənin təhlükəsizliyinin təmin edilməsi, hərbi müdafiə sahəsində atdığı addımlar, rus qoşunlarının buradan qansız-qadasız çıxarılması və bu zaman bütün silah-sursatın Azərbaycanda qalması dünya hərbi diplomatiya sənətinin ən böyük hadisələrindən biri hesab edilməlidir.

1993-cü ilin iyununda Azərbaycanda çox ağır vəziyyət yaranmış, ölkədə iqtisadi, hərbi-siyasi gərginlik son həddə çatmış, AXC-Müsavat iqtidarının respublikada yaratdığı hərc-mərclik, xaos, daxili siyasətdə yol verilən nöqsanlar, iqtisadi-siyasi və mənəvi ziddiyyətlər xalqı böyük çətinliklər qarşısında qoymuşdu. Həmin ilin məlum iyun günlərində milli tariximizin ən ağır və qara səhifələrindən biri yazılırdı. Çünki, Azərbaycan xalqı şəhidlərin qanı bahasına qazanmış olduğu dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Tariximizin belə bir təlatümlü mürəkkəb dövründə məhz Heydər Əliyev xalqına rəhbərlik missiyasını və məsulliyətini öz üzərinə götürməklə onu real faciələrdən və fəlakətlərdən qorumuşdur. Məhz həmin dövrdə xalqın sağlam qüvvələrinə arxalanan Qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənir. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında formalaşırdı.

Xalqımızın düşdüyü ağır, çıxılmaz vəziyyətə biganə qalmayan Ümummilli liderimiz iyunun 9-da Bakıya gəldi. Gəncədən alovlanan vətəndaş müharibəsinin genişlənməsinə yol verməmək üçün oraya getdi, böyük qətiyyəti, nadir dövlətçilik zəkası və incə siyasi duyumu sayəsində hərbi müxalifəti neytrallaşdırdı və ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas etdi. Heydər Əliyevin bu xilaskarlıq missiyası Azərbaycan dövlətçilik tarixinə qızıl hərflərlə həkk olundu.

1993-cü ilin iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildikdən sonra Ulu öndər ölkədə daxili sabitliyin yaradılması istiqamətində kifayət qədər uğurlu addımlar atdı. Heydər Əliyevin ciddi səyləri nəticəsində 1994-cü ilin mayında Ermənistan – Azərbaycan müharibəsində ölkəmiz üçün həyatı əhəmiyyət kəsb edən atəşkəs sazişi imzalandı. 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı bir sıra neft yataqlarının birgə işlənməsi məsələsinə dair dünyanın iri ölkələrinin neft şirkətləri konsersiumu ilə “Əsrin müqaviləsi” adı verilmiş böyük saziş imzalandı.

Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi, yenilməz iradəsi sayəsində yaradılmış sabit ictimai-siyasi vəziyyət Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasına şərait yaratdı. 1995-ci ilin ortalarından başlayaraq, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başlanıldı. Azərbaycanda 1995–2003-cü illəri əhatə edən hüquqi demokratik dövlət quruculuğu dövrü başlandı. Heydər Əliyevin rəhbərliyi ilə dövlət quruculuğu istiqamətində atılan addımlar, ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi, o cümlədən yeni Konstitusiyanın hazırlanması və qəbul edilməsi, çoxpartiyalılıq əsasında demokratik parlament və prezident seçkilərinin keçirilməsi, eyni zamanda, hüquqi-demokratik islahatların həyata keçirilməsi respublikada sivil vətəndaş cəmiyyətinin formalaşmasına gətirib çıxardı.

Beləliklə, bütün bunlar belə bir qənaətə gəlməyə imkan verir ki, Azərbaycan xalqının istər 1970–80-ci illərdə, istərsə də müstəqillik dövründə qazandığı cahanşümul uğurlar Heydər Əliyevin ideyalarının və onun yürütdüyü siyasətin həyatiliyi ilə bağlıdır. 2003-cü ildən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin qazandığı bütün uğurlar, ərazi bütövlüyünün bərpa edilməsi, xüsusən, ikinci Qarabağ savaşının nəticələrinin və Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması faktının əksər dövlətlər tərəfindən qəbul edilməsi Heydər Əliyevin arxitekturasını yaratdığı milli dövlətçiliyimizin sarsılmaz təməllərinə əsaslanır.

Bu gün Prezident İlham Əliyevin və onun sadiq silahdaşı Mehriban xanım Əliyevanın rəhbərliyi altında Azərbaycan xalqı qüdrətlə və inamla irəliləyir, Heydər Əliyevin əbədiyaşar ideyalarının həyata keçirilməsi istiqamətində möhtəşəm nailiyyətlərə imza atır.

***Ədalət QASIMOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru***



# Heydər Əliyev: şəxsiyyət və lider

*IV MƏQALƏ*

## Paralellər və fərqlər

III məqalədə K.Adenauerin liderlik nümunəsinin əsas cəhətlərinin təhlili, onu ulu öndər Heydər Əliyevin liderlik nümunəsi ilə müəyyən məqamlarda müqayisə etməyə imkan verir. Hər iki lider ölkəsinin müstəqil və qüdrətli dövlət olması üçün çalışmışdır.

K.Adenauer uzun müddət güclü dövlət olmuş Almaniyanın dağıntıları üzərində yeni dövlət yaratmaq uğrunda mübarizə aparmışsa da, Heydər Əliyev uzun müddət dövlətçiliyi əlindən alınmış, müxtəlif istiqamətlərdən daim təzyiq altında saxlanan, müharibə alovu içində çırpınan və potensial baxımından Almaniyadan xeyli az imkanlı olan bir ölkədə müstəqil dövlət qurmalı idi.

Bundan başqa, Heydər Əliyev ərazisinin bir hissəsi işğal altında olan və bir neçə böyük dövlətin təcavüzkara geniş yardım etdiyi şəraitdə Azərbaycanda müstəqil dövlət qurmalı idi. Nəhayət, beynəlxalq təşkilatlar Almaniyaya qarşı tam dəstək nümayiş etdirirdilərsə, Azərbaycana münasibət tamamilə fərqli idi.

Bu parametrlərin müqayisəsi prizmasında Heydər Əliyev liderliyinin K.Adenauer liderliyindən üstün olduğunu görə bilərik. Onu da nəzərə almaq lazımdır ki, Heydər Əliyevin müstəqil dövlət quruculuğu siyasəti Azərbaycan Respublikasının dünya miqyasında mühüm yer tutmasını və əhəmiyyətli rol oynamasını da nəzərdə tuturdu.

Burada H.Kissincerin K.Adenaueri postmüharibə mərhələsində dünya strategiyasını müəyyən edən liderlər sırasında göstərməsinə heç bir nəzəri və praktiki etiraz yoxdur. Ancaq bu faktın fonunda belə Heydər Əliyev liderliyi həm zəkasına, həm də şəxsiyyət kimi sücaətinə görə daha üstün vəziyyətdədir. K.Adenauer böyük dahiliklə özündən öncəki güclü Almaniyanı böyük beynəlxalq dəstəyin yardımı ilə yenidən daha güclü etmişsə, yüksək nəticədir. Heydər Əliyevin xidməti məhz həmin aspektdə ikiqat çoxdur. Ulu öndər həm müstəqil olmayan bir ölkəni müstəqil etdi, həm də beynəxalq miqyasda ona əks olan güclü qüvvələri neytrallaşdırdı.

Bu məqamda Heydər Əliyev liderliyinin nəinki K.Adenauerdə və həm də Ş.de Qoll, R.Nikson, M.Tetçer, Ə.Sadat və Li Kuan Yu liderliyində mövcud olmayan əhəmiyyətli özəlliyi vardır.

## Yeni güc strategiyası

Henri Kissincerin "6 qəhrəman" liderin strategiyalarının xarakteristikasına təkrar nəzər salaq: Adenauer – barış strategiyası, Şarl de Qoll – iradə strategiyası, Riçard Nikson – tarazlıq strategiyası, Ənvər Sadat – üstünlük strategiyası, Li Kuan Yu – mükəmməllik strategiyası, Marqaret Tetçer – inandırma (əminlik, inanc, inamlılıq) strategiyası.

Bu strategiyaların hər birinin semantik sahəsində mövcud müstəqil dövlətin ya kardinal dəyişməsi, ya da keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəldilməsi məqamı mövcuddur. H.Kissincer təsnifində onların 5 liderin şəxsiyyət kimi daxili mənəvi-psixoloji özəlliyi ifadə olunur – K.Adenauerin realllığı cəmiyyət olaraq etiraf əsasında barışmağa can atması, Şarl de Qollun daxili iradi keyfiyyəti, Ənvər Sadatın müsəlman dövlətinin qarşı tərəfdən daha üstün keyfiyyətlərə malik olmasını nümayişi, Li Kun Yunun dövlətin mükəmməllik fəzilətinə layiq olması xətti, Marqaret Tetçerin toplumu inandırma, kollektiv miqyasda inam yaratma qabiliyyəti. Bunlar liderin şəxsi mənəvi, iradi, psixoloji, məntiqi empatiyalarının əsas keyfiyyətinin dövlətçilik müstəvisinə proyeksiyalarını ifadə edir. Yalnız Riçard Niksonda, bu, qarışıq halda, yəni daxili mənəvi keyfiyyətlə geosiyasi müstəvidə qüvvələr balansını təmin etmənin sintezi kimi təqdim olunmuşdur.

Dövlətin inkişafı sanki aksiom kimi bu ideyaların semantik və kommunikativ sferalarının özəlliklərində yer alır. Lider şəxsi keyfiyyətləri və mənəvi-psixoloji gücü ilə qarşıya qoyulan məqsədə çatmağı hədəfləyir. Konkret olaraq, K.Adenauer yeni güclü və barışçıl Almaniya, Şarl de Qol yeni güclü və qlobal nüfuzu olan Fransa, R.Nikson dünya geosiyasətində tarazlıq yarada bilən yeni lider – ABŞ, Ə.Sadat Misirin müstəqil dövlətçiliyinə xidmət kontekstində regionda hər bir qüvvəyə qarşı (o cümlədən İsrailə) üstünlüyü saxlayan dövlət formalaşdırmaq, Li Kuan Yu Sinqapurun müstəqil dövlət olaraq, mövcudluğunun təsdiqi kimi mükəmməl inkişaf səviyyəsinə yüksələ bilməsi imkanlarını reallaşdırmaq, Marqaret Tetçer ingilis cəmiyyətini kəskin böhrandan xilas olub, yenidən qüdrətli dövlətə çevrilməyə inamını bərpa etmək xəttini seçmişdilər. Və bunların hər biri, H.Kissincerə görə, onların dünya miqyasında strategiyanın müəyyən edilməsi miqyasında əhəmiyyəti vardır!

Heydər Əliyevin strategiyası isə onların fonunda daha mükəmməl və dövlət quruculuğunun siyasi aspektinə aid olan kursdur. Onu biz "yeni güc strategiyası" adlandıra bilərik. Bu ifadənin anlamları çoxdur. Özündə bir neçə aspekti – mənəvi-psixoloji, iradi, mədəni, siyasi, ideoloji və geosiyasi cəhətləri birləşdirir. Bu məqam Heydər Əliyevin konseptual olaraq "yeni güc" anlayışına verdiyi mənadan görünür. Heydər Əliyev "yeni güc" ifadəsini müxtəlif kontekstdə və konkret dövlət quruculuğu aspektində işlətmişdir. Məsələn, Ulu öndərin "güclü müstəqil milli dövlət", "Azərbaycan bundan sonra heç bir dövlətin təsiri altında olmayacaq", "biz güclü iqtisadiyyat, güclü cəmiyyət, güclü ordu yaratmalıyıq", "Azərbaycan müstəqil hüquqi və demokratik dövlət olmalıdır", "Azərbaycan nəinki regionda, həm də bütün dünyada münaqişələrin dinc yolla həllinə tərəfdardır", "Azərbaycan dünyaya Günəş kimi doğacaqdır" və digər kəlamlarını xatırlaya bilərik.

Bu fikirlərin hər birinin ana məna xəttini güclü dövlət, yəni müasir şərtlər daxilində müstəqil və suveren ola biləcək milli mahiyyətli dövlət qurmaq təşkil edir. Güclü dövlət anlamının Heydər Əliyev təqdimatında xarakteristikasının geosiyasi kontekstdə ümumi ifadəsi isə bizim nəzərdə tutduğumuz "yeni güc" anlamıdır. Azərbaycan Respublikası indi mövcud olan nüfuzlu güclərdən fərqli mənada "yeni güc" olmalı idi.

Çox əhəmiyyətlidir ki, Heydər Əliyev "yeni güc" anlayışını ümumnəzəri və siyasi-ideoloji səviyyədə saxlamadı, onun daha konkret aspektlərdə siyasi strategiya və diplomatik hədəf kimi anlamlarını açdı. Bizim üçün baxılan mövzu kontekstində məsələnin bu tərəfi çox önəmlidir. Onun üzərində bir qədər geniş dayanaq.

## Təməl siyasi-diplomatik faktorlar

Dövlət quruculuğunun dərin qatlarında Ulu öndər təməl istiqamətverici və müəyyənedici siyasi-diplomatik prinsipləri müəyyən etmişdir. Bu prinsiplərin ümumi mahiyyəti Azərbaycanı ölkə, cəmiyyət və dövlət olaraq xilas etmək əsasında öncə tam müstəqil və suveren dövlətə çevirməkdən ibarət idi. Bu məqsədə çatmanın iki mühüm ələməti olmalı idi – birincisi, milli ideyanın tam reallaşması, ikincisi, Azərbaycan Respublikasının regional liderliyinin real təmini və həm də onun qəbul edilməsi.

Milli ideyanın reallaşması özlüyündə Azərbaycan daxilində dövlət kimi uğurlu olmaq sərhədini aşmalı idi, çünki söhbət ərazi bütövlüyünün bərpasından gedirdi. Onun yanında bütün ölkədə Azərbaycanın dövlət olaraq suverenliyini təmin etmək vəzifəsi vardı. Bu məqsədlərin mühüm aspektini güclü istisadiyyat, sosial birlik, ordu qurmaq təşkil edirdi. Bununla siyasi prinsiplərin əmələ gətirməli olduğu bir sistem formalaşmalı idi.

Heydər Əliyev realpolitika çərçivəsində həmin sistemi formalaşdırdı. Onun komponentlərinə baxsaq görərik ki, daxili və xarici mühitlərə aid olan müxtəlif faktorların vahid məqsədə fokuslandırılmış dinamik parametrləridir. Doğrudan da, "müstəqil hüquqi, demokratik milli dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü", "güclü iqtisdiyyat", "güclü ordu" və digər anlayışlar Ulu öndərin siyasi ritorikasında mühüm yer tuturdular və eyni zamanda, onların siyasi semantikası ilə funksional cəhətləri Azərbaycanın daxili və xarici maraqlarının məntiqi kontekstində sistemləşdi.

Bununla müasir Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq müstəqil demokratik dövlət quruculuğu kursunun təməlinə bir-biri ilə məna və funksiya bağlantısında olan müxtəlif parametrlərin sistemi qoyuldu. Həmin sistem həm müstəqilliyin siyasi, geosiyasi, fəlsəfi və sosial-mədəni aspektlərini yığcam ifadə edirdi, həm də konkret praktiki siyasi-diplomatik fəaliyyətin milli maraqlar hüdudunda "dinamika dəhlizini" müəyyənləşdirirdi.

Əlbəttə, Heydər Əliyevin liderlik nümunəsi bu mərhələ ilə məhdudlaşa bilməzdi. Çünki təməl sistemin mahiyyəti və funksional hədəfləri göstərirdi ki, qarşıda milli ideyanın reallaşmasından sonra başlayacaq daha geniş miqyası nəzərdə tutan mərhələ olacaqdır. Heydər Əliyev dühası onun da öhdəsindən böyük strateji düşüncə və liderlik məharəti ilə gəldi. Baxılan mövzunun bu aspekti bizim üçün o dərəcədə önəmlidir ki, xüsusi təhlil edilməlidir. Çünki Heydər Əliyevin həmin xidməti bugünün deyil, gələcəyin perspektivli ssenarisi ilə birbaşa bağlıdır. Azərbaycan lideri dünyada yegana şəxsiyyət və dövlət başçısıdır ki, bunu bacarmışdır. Faktlara və məntiqi sübutluluq müstəvisinə keçək.

Öncə, qısa olaraq Ulu öndərin yaratdığı siyasi fəaliyyət sisteminin regional və qlobal miqyaslarda proyeksiyasını təqdim edək.

Yuxarıda vurğulanan və Azərbaycanın daxili mühiti ilə xarici mühiti (əsas olaraq, regional miqyasda) birləşdirən, daha doğrusu, dövlətdaxili reallıqlardan regional və qlobal miqyasa nüfuz etməyə imkan verən xətlər üzrə Heydər Əliyev əvvəlcə dövlətin regional siyasətinin əsas istiqamətlərini müəyyən etdi. Burada aparıcı olan məqamlar da sistem təşkil edir.

Milli ideya avtomatik Cənubi Qafqaz kontekstində dəqiq və uğurlu siyasi prinsipi formalaşdırmağı tələb edirdi. Çünki təcavüzkarı məğlub etmək mütləq region miqyasında əks-səda verəcəkdi və mövcud şərtləri köklü surətdə dəyişəcəkdi. Səbəbi onunla bağlı idi ki, Azərbaycan qələbə çaldığı halda 300 ildir türk-müsəlman dövlətçiliyinə, cəmiyyətinə, demoqrafiyasına, mədəniyyətinin nüfuzuna qarşı aparılan məkrli oyunlara son qoyulacaqdı. Bu isə yüzillərdir özlərini bu regionda böyük və güclü sayanların özlərini dəyişmələrini tələb edəcəkdi.

Baxın, məsələnin bu tərəfi onlar üçün öncədən qəbuledilməz sayılırdı. Təcrübə İranın, kollektiv Qərbin, hətta Hindistanın (qismən Rusiyanın) nümunəsində göstərdi ki, Ulu öndər proqnozunda qətiyyən yanılmamışdır və Azərbaycan Prezidenti, çox güclü və zəkalı lider İlham Əliyev həmin məqamı dərin qatlara qədər nəzərə almışdır!

Sistemin bu iki substantiv və funksional səviyyələri üzərində üçüncü, ümumiləşdirici və reallaşması daha mürəkkəb proses olan son pilləsi (yüksək altsistemi) qurulmuşdu. Onun substantiv və funksional potensiali indi dünyanın aparıcı siyasi liderlərini belə heyrətləndirir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

# Xalqımızın qəlbində yaşayan lider

*Bölgələrdə Ulu öndərin xatirəsinə ehtiram*

**Bu günlərdə ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ölkəmizin hər bir yaşayış məntəqəsində, istisnasız olaraq bütün şəhər və kəndlərində, çox sayda elm, təhsil, mədəniyyət, istehsalat müəssisələrində dərin hörmət və ehtiramla qeyd olunur. Danılmaz həqiqətdir ki, bu böyük tarixi şəxsiyyət Azərbaycanın hərtərəfli və sürətli inkişafı, xalqımızın tərəqqi və intibahı üçün misilsiz işlər görmüşdür.**

Ümummilli liderin növbəti doğum günü də ümumxalq bayramına çevrilmişdir. Bu əlamətdar hadisəyə həsr olunan çoxsaylı mərasimlərdə ölkə ziyalıları, rəsmi şəxslər və sadə insanlar Ulu öndərin yüksək dövlətçilik və parlaq quruculuq fəaliyyətindən dərin razılıq hissi ilə söz açırlar. Bu barədə redaksiyamıza daxil olan xəbər, şərh və reportajların bir neçəsini oxuculara təqdim edirik.

## Gəncə

**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təşkilatçılığı ilə Gəncə şəhər Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Aqrar islahatlar 30: nailiyyətlər və perspektivlər" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.**



Tədbiri giriş sözü ilə açan Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov konfransın əhəmiyyətindən bəhs edib. O, 1990-cı illərin sonlarından etibarən həyata keçirilən aqrar islahatların Azərbaycan kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaratdığını vurğulayıb, bu istiqamətdə ulu öndər Heydər Əliyevin müdrik siyasətinin strateji nəticələrindən danışıb.

Konfransda çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə qəbul edilən qərarlar, həyata keçirilən islahat və kompleks tədbirlər aqrar sahədə dayanıqlı inkişafın təməl prinsiplərini formalaşdırıb.

## Şirvan

**Şirvan Şəhər İcra Hakimiyyəti və Şirvan Şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Heydər Əliyev: Əbədiyaşar Lider" mövzusunda toplantı keçirilib.**



Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, əziz xatirəsi ehtiramla anılıb. Şirvan Şəhər Heydər Əliyev Mərkəzində davam edən tədbirdə dahi siyasətçinin Azərbaycan xalqı, dövləti qarşısında tarixi xidmətlərini, həyat və fəaliyyətinin mühüm məqamlarını əks etdirən eksponatlara baxış keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Heydər Əliyev: Əbədiyaşar lider" mövzusunda məruzə ilə çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyi, güclü dövlətə çevrilməsi, beynəlxalq aləmdə tanınması üçün həyata keçirdiyi siyasi, iqtisadi, mədəni islahatlardan danışıb.

Sonra Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən qısametrajlı film nümayiş olunub. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə partiya üzvlük vəsiqələri təqdim edilib. Daha sonra şəhərin N.Nərimanov parkında Ümummilli liderin anadan olmasının 102-ci ildönümü münasibətilə növbəti ağacəkmə aksiyası keçirilib.

## İsmayıllı

**İsmayıllı rayonunun İvanovka kəndində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə toplantı keçirilib. Mərasim İvanovka kəndində yerləşən və Ulu öndərin adını daşıyan tam orta məktəbdə təşkil olunub.**

Tədbir iştirakçıları əvvəlcə məktəbin həyətində ucaldılmış Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, görkəmli dövlət xadiminin əziz xatirəsini yad ediblər.

Tədbirdə çıxış edən natiqlər Ümummilli liderin xalqımızın tarixində əvəzsiz xidmətlərindən, dövlət quruculuğu sahəsində gördüyü işlərdən söz açıblar. Vurğulayıblar ki, Heydər Əliyev müstəqil Azərbaycanın hüquqi, siyasi və iqtisadi bünövrəsini formalaşdıraraq, ölkənin sabitliyini və inkişafını təmin edib.

Məktəbin şagirdləri bədii kompozisiyalarla çıxış edib, şeirlər və səhnəciklər təqdim ediblər. Daha sonra tədbir Mədəniyyət Mərkəzinin "Niyal" instrumental ansamblının konsert proqramı ilə davam edib.



## Naftalan

**Ömrünü Azərbaycan dövlətçiliyinin tərəqqisinə sərf etmiş Heydər Əliyevin 102 illik yubileyi münasibəti ilə Naftalanda toplantı keçirilib.**

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərindən, onun siyasi təcrübəsi və uzaqgörənliyi sayəsində ölkəmizin qazandığı uğurlardan söz açıb.

Digər çıxış edənlər Ulu öndərin insan hüquqları, qanunun aliliyi və Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanan milli hüquq sisteminin inkişafındakı misilsiz xidmətlərini vurğulayıblar. Onun dövlətçilik irsi və idarəçilik ənənələrindən danışıblar. Bildirilib ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu siyasi kurs uğurla davam etdirilir.

Toplantıda Ulu öndərin 102 illiyi münasibətilə bir qrup fəal şəhər sakinləri fəxri fərmanlarla təltif olunublar. Mərasim Heydər Əliyev parkının ərazisində ağacəkmə aksiyası ilə davam etdirilib.

***Hazırladılar:***
***Hamlet QASIMOV,***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Paytaxt Ulu öndəri yad etdi

**Dünən Bakıda ayrı-ayrı nazirlik, idarə, təşkilat və digər qurumların kollektivləri ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü müxtəlif tədbirlərlə qeyd ediblər. Keçirilən anım mərasimləri müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, ümummilli lideri Heydər Əliyevin ruhuna xalqın sonsuz ehtiramının ifadəsi olub.**

### Səhiyyə Nazirliyi

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan milli səhiyyəsinin inkişafına həmişə xüsusi diqqət və qayğı göstərib. Respublikada peşəkar tibbi kadrlarının hazırlanması da məhz dahi şəxsiyyətin adı ilə bağlıdır. İldönümü ilə əlaqədar olaraq Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi bu duyğularla Fəxri xiyabana gələrək əbədiyaşar böyük insanın məzarı önünə gül dəstələri düzüb, ruhu qarşısında baş əyiblər. Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

### Fövqəladə Hallar Nazirliyi

Fövqəladə Hallar Nazirliyinin strukturları Ulu öndərin anadan olmasının 102-ci ildönümü münasibətilə silsilə ağacəkmə aksiyaları keçirib. Yaşıllaşdırma tədbirlərindən məqsəd ətraf mühitin sağlamlaşdırılmasına töhfə vermək olub. Aksiyalarda torpaq-iqlim şəraiti nəzərə alınaraq, seçilmiş ağac növləri uyğun sahələrdə əkilib, onlara müvafiq aqrotexniki qulluq göstərilib.

ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərilib, azərbaycanlıların dövlət vəzifələrinə irəli çəkilməsi daim diqqət mərkəzində saxlanılıb.

Sonda Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

### Bakı Mühəndislik Universiteti

Bakı Mühəndislik Universitetinin kollektivi Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət edib. Universitet əməkdaşları xalqımızın dahi oğlu, görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı önünə tər çiçəklər düzülüb.

### Yasamal

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü böyük



sevgi və sayğı ilə qeyd olunub. MKS-nin direktoru Lətifə Məmmədova Ümummilli liderə tükənməz xalq sevgisindən konkret faktlarla söhbət açıb. Digər natiqlər özəl xatirələrini bölüşüblər. Sonda kitabxana əməkdaşlarının hazırladığı "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı kitab sərgisi və Ulu öndər haqqında videoçarx nümayiş olunub.

### Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

Ümummilli liderin növbəti ildönümü Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində silsilə tədbirlərlə yadda qalıb. Xidmət heyəti hamılıqla Qobu qəsəbəsində yerləşən Mərkəzi Çağırış Məntəqəsi Kompleksinin ərazisində ağacəkmə aksiyasına qatılıb. "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda toplantıda çıxış edənlər isə Ulu öndərin milli dövlətçilik tariximizdəki xidmətləri, həmçinin Azərbaycan Respublikası Konstitusiyasının inkişaf mərhələləri, onun ölkənin hüquq sistemində tutduğu yer barədə ətraflı söhbət açıblar.

Dövlət Xidmətinin rəhbərliyi və qurumun aparatının, həmçinin Bakı qarnizonunun bir qrup hərbi qulluqçusu Fəxri xiyabana gələrək, Ulu öndərin xatirəsini yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub, üzərinə çiçəklər düzülüb.

### Dövlət Sərhəd Xidməti

Dövlət Sərhəd Xidmətinin aparatında və struktur qurumlarında da silsilə tədbirlər keçirilib. Xidmətin rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabanda əvvəlcə xalqımızın dahi oğlunun əziz xatirəsini dərin ehtiramla yad edərək məzarı önünə güllər düzüb, daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər. Mərasimlərdə Ulu öndərin ölkəmizin hərtərəfli inkişafı və sərhəd mühafizəsinin formalaşdırılması ilə bağlı gördüyü işlər barədə geniş məlumat verilib. Qeyd olunub ki, məhz Heydər Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində sərhəd təhlükəsizliyi dövlətin prioritet istiqamətlərindən birinə çevrilib, sərhəd mühafizə orqanlarının formalaşmasına və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına zəmin yaradıb.

Heydər Əliyevin adını daşıyan muzey və mərkəzlərə şəxsi heyət üzvlərinin ekskursiyası təşkil olunub, dünya şöhrətli siyasətçinin həyat və fəaliyyəti barədə sənədli filmlərə baxılıb.

### Polis Akademiyası

Asayişimizin gələcək keşikçiləri də unudulmaz dahi şəxsiyyətin ruhuna ehtiram duyğularını ifadə ediblər. Mərasimi giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov Azərbaycanın əldə etdiyi nailiyyətlərin və bugünkü qələbələrimizin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib. Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov isə çıxışında qeyd edib ki, Azərbaycanın suveren, müstəqil ölkə kimi formalaşmasının özülləri hələ ümummilli lider Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza rəhbərliyi dövründə atılıb. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin təməli qoyulub, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başlayıb, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılıb. Qeyd olunub ki, məhz Ümummilli liderin rəhbərliyi ilə hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi

### Xətai

Ümummilli liderin abidəsi ziyarət olunub, önünə tər güllər düzülüb. Sonra mərasim iştirakçıları Heydər Əliyevin adını daşıyan istirahət parkında yerləşən amfiteatr səhnəsində Xətai Rayon İcra Hakimiyyəti, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının təşkilatçılığı ilə keçirilən mərasimə qatılıblar. Natiqlər Heydər Əliyevin nəsillərə örnək olan həyat və fəaliyyətindən, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatın inkişafında, eləcə də gənclərin milli ruhda tərbiyə olunmasında misilsiz xidmətlərindən bəhs ediblər. Möhtəşəm konsert proqramı təqdim olunub və sonda təşkil edilən atəşfəşanlıq səmanı al-əlvan rəngə boyayıb, tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

### Qaradağ

Lökbatan qəsəbəsində ulu öndər Heydər Əliyevin abidəsi önündə izdihamlı anım mərasimi keçirilib. Rayon rəsmiləri, icra hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Şuranın üzvləri, şəhid ailələri, hərbçilər, müharibə iştirakçıları və qazilər, eləcə də rayonun tanınmış ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ulu öndərin Azərbaycan xalqının taleyində və dövlətçilik tarixində oynadığı misilsiz rol, müdrik və uzaqgörən siyasəti nəticəsində ölkənin əldə etdiyi uğurlar dərin minnətdarlıq hissi ilə yad edilib. Yüksək təşkilatçılıqla keçirilən mərasimdə minlərlə insanın iştirakı, xalqın Ümummilli liderə olan böyük sevgisinin və ehtiramının bariz nümunəsi olub.

### Xəzər

Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci il dönümü ilə əlaqədar Xəzər Rayon İcra Hakimiyyəti aparatının məsul şəxsləri Fəxri xiyabana gələrək, abidə önünə əklil və gül dəstələri qoyublar. Rayonda keçirilən silsilə tədbirlər sırasında isə "Heydər Əliyev irsi – Gələcəyə yol" adlı mərasim xüsusilə yaddaqalan olub. Zirə Mədəniyyət Mərkəzi – Eko-Parkda keçirilən həmin mərasim film nümayişi ilə başlanıb. Sonra rayon ictimaiyyətinin nümayəndələri dünya şöhrətli dahi şəxsiyyətin fenomenal idarəetmə bacarığı, xalq qarşısında misilsiz xidmətləri ilə bağlı çıxışları dinləyiblər. Yeni Azərbaycan Partiyasına qəbul olunan gənclərə vəsiqələr təqdim edilib. Onlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını bildiriblər.

Daha sonra tədbir respublikanın tanınmış sənət adamlarının konsert proqramı ilə davam etdirilib.

*Hazırladı:*
***Ə.DOSTƏLİ***
***XQ***

# Dünya heyran olduğu lideri unutmur

**Xalqımızın ümummilli lideri, unudulmaz şəxsiyyət Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin təşkil etdikləri tədbirlərdə böyük ehtiram və sevgi ilə qeyd olunur. Adı Azərbaycan xalqının simvoluna, əməlləri hünər rəmzinə çevrilən, sağlığında əfsanələşən, siyasət olimpini fəth edən Heydər Əliyev haqqında dünya liderləri dəyərli sözlər deyiblər. ABŞ-ın sabiq prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasət nəhəngi", Fransanın sabiq prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin zirvəsi anadan olmasının 102-ci ildönümündə yenidən göz önünə gəlir, qəlbimizi qürur və iftixar hissləri ilə doldurur...**

### Türkiyə

Qars şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Ölkəmizin Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə düzənlənən tədbirin iştirakçıları Heydər Əliyev parkında toplaşaraq, Azərbaycanın müasir dövlətçiliyinin memarının büstü önünə gül dəstələri qoyublar.



Azərbaycanın Qarsdakı baş konsulu Zamin Əliyev çıxışında Heydər Əliyevin dövlətçiliyimizin xaosdan xilası, möhkəmlənməsi və inkişafı ilə birbaşa bağlı olan tarixi rolundan danışıb. Konsulun sözlərinə görə, Heydər Əliyev Türkiyə ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi. "Ölkələrimiz arasında dostluq, həmrəylik və dərinləşən əməkdaşlıq, şübhəsiz ki, Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarına əsaslanır" – deyən konsul 44 günlük Vətən müharibəsi dövründə Türkiyə xalqının və rəhbərliyinin can Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyin heç vaxt unudulmayacağını vurğulayıb.

### Özbəkistan

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşları ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə bağlı ümummilli liderin Daşkəndin mərkəzində yaradılan Heydər Əliyev parkındakı abidəsi önünə əklil və çiçək dəstələri qoyub.

Hüseyn Quliyev müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verib.

Səfir bildirib ki, ulu öndərin dövlət təhlükəsizlik orqanları, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, nəhayət, müstəqil Azərbaycan Respublikasının Prezidenti vəzifələrində çalışdığı müddətlərdə Azərbaycanın inkişafı və tərəqqisi istiqamətində göstərdiyi xüsusi xidmətlər heç zaman unudulmayacaq.

Hüseyn Quliyev deyib ki, müasir dövrdə Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin əsası ümummilli lider Heydər Əliyev və Özbəkistanın birinci Prezidenti İslam Kərimov tərəfindən qoyulub. Bu gün bu səmimi dostluq münasibətləri Azərbaycan və Özbəkistanın dövlət başçıları İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir.

### Gürcüstan

Gürcüstan paytaxtında Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü təntənəli şəkildə qeyd olunub. Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov və şirkətin əməkdaşları, Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) İdarə Heyətinin sədri Nəriman Qurbanov, Gürcüstanda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin rəhbərləri, "Alyans" Gənclər Mərkəzinin işçiləri, universitet tələbələri, ictimaiyyətin nümayəndələri Tbilisidəki Heydər Əliyev Parkında Ulu öndərin abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri düzüblər. Onlar, həmçinin parkda açıq havada təşkil olunmuş sərgidə H.Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgiyə baxıblar.

Mərasim iştirakçılarına dünyaşöhrətli siyasi xadim, gürcü xalqının yaxın dostu Heydər Əliyevin həyat və fəaliyyəti barədə ətraflı məlumat verilib. Daha sonra səfir və səfirliyin əməkdaşları, eləcə də iş adamları Ulu öndərin Rustavi şəhərində abidəsini ziyarət ediblər.

### ABŞ

Azərbaycanın ABŞ-dakı səfirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir keçirib. Bununla bağlı Vaşinqtondakı diplomatik missiyamız sosial şəbəkə səhifəsində paylaşım edib.

"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünü təntənəli şəkildə qeyd edirik. Onun uzaqgörən siyasəti, müdrik rəhbərliyi və milli təəssübkeşliyi sayəsində müasir Azərbaycanın təməli qoyuldu. Ulu öndərin irsi ölkəmizin gələcək inkişafı üçün istiqamətverici qüvvə olaraq qalır", – məlumatda bildirilib.

### Fransa

"1993-cü il dekabrın 3-də Heydər Əliyev Fransaya rəsmi səfər edərək, Prezident Fransua Mitterran ilə dostluq, qarşılıqlı anlaşma və əməkdaşlığa dair memorandum imzalayıb. Bu baxımdan, Fransanın ulu öndər tərəfindən ilk seçilmiş ölkə olması təsadüfi deyil. Bu, düşünülmüş və müdrik siyasətin təzahürü idi".

Bunu Fransanın paytaxtı Paris şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş mərasimdə çıxış edən Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva dedi. Heydər Əliyevin müasir və güclü Azərbaycan dövlətinin banisi olduğunu vurğulayan səfir bildirdi ki, dahi lider ölkəyə ən çətin və taleyüklü bir dövrdə rəhbərlik edib, xalqı sabitliyə və inkişaf yoluna çıxarıb. L.Abdullayeva qeyd edib ki, Azərbaycanın incəsənət xadimlərinin, tanınmış ziyalılarının Fransada göstərdiyi fəaliyyəti iki ölkə arasında mədəni körpü yaradılmasına töhfələr verib. Səfir, eyni zamanda, yüzlərlə azərbaycanlı əsgərin İkinci Dünya müharibəsi illərində Fransa xalqının azadlığı uğrunda apardıqları mübarizəyə də toxunub.

Tədbirdə çıxış edən Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev diqqəti qurumun ümummilli lider Heydər Əliyevin xüsusi önəm verdiyi beynəlxalq təşkilatlardan biri olduğuna yönəldib.

Sonda Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib, fleyta ustası Ağarəhim Quliyev tərəfindən dahi bəstəkar Tofiq Quliyevin "Səhər" musiqi əsəri səsləndirilib.

### Polşa

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünün qeyd olunması çərçivəsində Polşada silsilə tədbirlər keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Polşadakı səfirliyində Ulu öndərin büstünün önünə əklil qoyulub. Mərasimdə səfir Nərgiz Qurbanova başda olmaqla diplomatik nümayəndəliyin əməkdaşları, eləcə də Polşada akkreditə olunmuş Mərkəzi Avropa Ölkələri üzrə Ticarət Nümayəndəliyin aparatının əməkdaşları iştirak ediblər.

Polşanın ilk paytaxtı və dini mərkəzi olan Qnezno şəhərində yerləşən və üzərində Heydər Əliyevin və polşaəsilli Roma papası II İonann Pavelin Azərbaycan haqqında fikirləri əks olunmuş Azərbaycan–Polşa dostluq abidəsi" ziyarət edilib. Səfir N.Qurbanova, Qnezno şəhərinin merinin birinci müavini Yoanna Şmiqelska, Mərkəzi Avropa Ölkələri üzrə Ticarət Nümayəndəliyi aparatının rəhbəri N.Nağdəliyevin, həmçinin səfirliyin və meriya əməkdaşlarının iştirak etdiyi tədbirdə "Dostluq" abidəsinin üzərinə əklillər qoyulub. Çıxış edən səfir N.Qurbanova Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, müstəqil Azərbaycanın yenidən qurulmasında Ulu öndərin misilsiz xidmətlərindən danışıb.

*Hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Qlobal güc paritetinin dəyişən koordinatları

## Posttransatlantik münasibətlər müstəvisində baxış



### IV məqalə

**Əsrin ən böyük rəqabəti artıq sərhədlər məsələsində deyil, süni intellekt, kod və alqoritmlər üzərində cərəyan edir. Bu yeni qlobal düzəndə Çin texnoloji gücü və strateji investisiyaları ilə oyunun qaydalarını yenidən yazmağa çalışır.**

XXI əsrin əvvəllərindən etibarən beynəlxalq münasibətlər sistemində baş verən güc transformasiyası, xüsusilə də Çinin yüksəlişi klassik güc keçidi nəzəriyyələrinin akademik çərçivədə deyil, reallıqda necə gerçəkləşə biləcəyini göstərən canlı nümunəyə çevrilmişdir. Bu yüksəlişin statistik rəqəmlərlə – ÜDM, ixrac göstəriciləri və ya investisiya həcmi ilə izah olunması kifayət etmir. Çin Xalq Respublikasının beynəlxalq sistemdə tutduğu mövqe dərin və çoxşaxəli bir transformasiya ilə xarakterizə olunur: iqtisadi gücünün siyasi ambisiyalarla, texnoloji irəliləyişlərin geosiyasi strategiyalarla, hüquqi baxışların isə diplomatik davranışlarla qarışdığı kompleks bir yüksəliş modeli.

Çinin yüksəlişi klassik hegemon güc – əsasən ABŞ ilə sistem daxilində rəqabətə girən təşəbbüskar güc modelidir. Bu baxımdan, Çin nə tam şəkildə mövcud beynəlxalq düzənin əleyhinə çıxır, nə də ona tamamilə inteqrasiya olur; əksinə, sistemin içində qalaraq, onu öz maraqları istiqamətində "formalaşdırmağa" çalışır. "Bir kəmər, bir yol" təşəbbüsü, Asiya İnfrastruktur İnvestisiya Bankı və digər regional institutlar vasitəsilə Çin yeni güc mərkəzi olaraq öz təsir coğrafiyasını genişləndirir, beynəlxalq oyun qaydalarını təkcə iştirakçı kimi deyil, həm də təşəbbüskar kimi müəyyənləşdirmək istəyir.

Bu yüksəliş həm də dəyərlər və sistemlər mübarizəsidir. Qərb liberal nizamı insan haqları, şəffaflıq və bazar iqtisadiyyatı kimi prinsiplər üzərində qurulmuşkən, Çin daha çox iqtisadi performansa, dövlət yönümlü inkişafa və sabitliyə üstünlük verən model təqdim edir. Bu isə beynəlxalq hüquqdan tutmuş rəqəmsal suverenlik kimi yeni anlayışlara qədər müxtəlif sahələrdə normativ qarşıdurmanı qaçılmaz edir.

Bu məqalədə məqsəd Çin Xalq Respublikasının qlobal güc paritetini necə dəyişdirdiyini, bu gücün hansı ideoloji və institusional çərçivədə formalaşdığını və Qərb mərkəzli beynəlxalq sistemə necə alternativ baxışlar təqdim etdiyini təhlil etməkdir. Qlobal güc koordinatlarının dəyişdiyi bir mərhələdə Çin faktoru geosiyasi məkanın yeni memarı kimi diqqət mərkəzinə çevrilmişdir.

Çin son onilliklərdə qlobal nizamda alternativ siyasi və iqtisadi model irəli sürən mühüm aktor olaraq meydana çıxıb. Yüksəlişin mərkəzində dayanan əsas təşəbbüslərdən biri 2013-cü ildə Prezident Si Cinpin tərəfindən elan edilən "Bir kəmər, bir yol" layihəsidir. Əvvəlcə regional ticarət və infrastruktur təşəbbüsü kimi təqdim olunsa da, bu layihə qısa müddətdə Çinin qlobal ambisiyalarını əks etdirən çoxşaxəli strateji platformaya çevrilib.

"Bir kəmər, bir yol" təşəbbüsü artıq 150-dən çox ölkəni əhatə edir və Asiyadan Afrikaya, Avropadan Latın Amerikasına qədər geniş bir coğrafiyada logistika, nəqliyyat, enerji, rəqəmsal infrastruktur və maliyyə sahələrində irimiqyaslı layihələri özündə birləşdirir. Çin bu təşəbbüslə yeni ticarət marşrutları qurmaqla yanaşı, təsir dairəsini genişləndirir. İnfrastruktur vasitəsilə yaranan qarşılıqlı asılılıq Çin üçün uzunmüddətli geosiyasi üstünlük təmin edir. Pakistanla birgə həyata keçirilən Çin – İqtisadi Dəhlizi layihəsi Pekinə Hind okeanına çıxış imkanı verir, Şərqi Afrika limanlarında həyata keçirilən sərmayələr isə Çinin dəniz gücünü möhkəmləndirir. Bu proseslər Çin diplomatiyasının yeni mərhələyə keçdiyini və təsir alətlərinin hərbi gücdən daha çox iqtisadi və texnoloji vasitələrə əsaslandığını göstərir.

Qərb dövlətləri isə bu artan təsir qarşısında cavab axtarışındadırlar. ABŞ tərəfindən irəli sürülən "Daha yaxşı dünya qurmaq" təşəbbüsü və daha sonra formalaşdırılan "Qlobal infrastruktur və investisiya tərəfdaşlığı", eləcə də Avropa



İttifaqının "Qlobal keçid"proqramları Çin modelinə alternativ kimi təqdim olunur. Bu layihələr vasitəsilə Qərb Çinlə geosiyasi və iqtisadi rəqabətdə yeni mərhələyə qədəm qoyur və inkişaf etməkdə olan ölkələrə daha şəffaf, hüquqa əsaslanan və dayanıqlı əməkdaşlıq təklif edir. Lakin bu təşəbbüslərin təsirli olub-olmayacağı nəticəsini gözləyir.

Nəticə etibarilə, "Bir kəmər, bir yol" təşəbbüsü Çinin qlobal ambisiyalarını açıq şəkildə ifadə edən, təkcə iqtisadi deyil, eyni zamanda, hüquqi və siyasi gücün proyeksiyası olan bir platformadır. Bu təşəbbüs vasitəsilə Çin mövcud beynəlxalq qaydalara tabe olmaq əvəzinə, onları yenidən yazmağa çalışır. Yeni dünya düzəni məhz bu rəqabət kontekstində formalaşır. Çoxqütblülüyə doğru aparan bu prosesdə Çin öz modelini irəli sürür, Qərb isə bu çağırışa necə cavab verəcəyini müəyyənləşdirməyə çalışır. Bu mənzərə yeni qlobal arxitekturanın əsas konturlarını cızır.

Bu yanaşma həm də liberallaşma və qloballaşmanın Çin kontekstində necə fərqli şərh olunduğunu göstərir. Qərbin liberal iqtisadi modelindən fərqli olaraq, Çin dövlət kapitalizmi modelini ixrac edir – yəni iqtisadi gücün arxasında dövlətin idarəedici rolu qalır. Bu, xüsusilə avtoritar rejimlər və inkişaf etməkdə olan ölkələr üçün cazibədar alternativ kimi təqdim olunur.

Çinin qlobal səviyyədə yüksəlişi təkcə iqtisadi və siyasi müstəvilərlə məhdudlaşmır, eyni zamanda, texnoloji sahələrdə də özünü aydın şəkildə göstərir. Ənənəvi sənaye və istehsal gücünü rəqəmsal transformasiya ilə tamamlayan Çin XXI əsrin strateji resursu hesab olunan texnologiya sahəsində də hegemonluğa can atır. Bu proses "Made in China 2025" və "Gələcək nəsil süni intellekt inkişaf planı" kimi dövlət səviyyəsində qəbul edilmiş proqramlar vasitəsilə sistemli şəkildə həyata keçirilir.

Xüsusilə, 5G texnologiyasında Çin şirkətlərinin qabaqcıl mövqeyi Pekinin bu sahədə həm də geosiyasi iddialarla çıxış etdiyini göstərir. 5G infrastrukturu ağıllı şəhərlər, hərbi rabitə və strateji məlumat axını üçün həyati əhəmiyyət daşıyır. Bu səbəbdən, Çin şirkətlərinin dünya üzrə 5G şəbəkələrində iştirakı Qərb dövlətlərində milli təhlükəsizliklə bağlı ciddi narahatlıqlar doğurur. ABŞ və bəzi Aİ ölkələri Huawei avadanlıqlarını kritik infrastrukturlar üçün riskli hesab edir və bu sahədə "təchizat zəncirinin suverenliyi" anlayışını ön plana çıxarırlar.

Süni intellekt və böyük məlumat sahəsində də Çin külli miqdarda investisiya yatırmaqla və dövlətdən dəstək alan texnoloji ekosistem qurmaqla Qərblə rəqabətdə ön sıralara çıxmaq istəyir. Pekin bu texnologiyaları həm də sosial nəzarət və siyasi sabitliyin təminatı üçün alət kimi istifadə edir. Sosial kredit sistemi süni intellekt və böyük məlumat analizinə əsaslanır və vətəndaşların davranışlarını real vaxtda izləyərək onların gündəlik həyatına təsir göstərən qərarlar qəbul edir. Bu cür sistemlər "rəqəmsal avtoritarizm" anlayışının əsas elementlərindən biri kimi qiymətləndirilir.

Bu modelin beynəlxalq əks-sədası da nəzərəçarpacaqdır. İnkişaf etməkdə olan bir sıra ölkələr Çinin texnoloji idarəetmə modelini nümunə kimi götürür və bu texnologiyaları təkcə inkişaf üçün deyil, daxili sabitliyi qorumaq və siyasi nəzarəti gücləndirmək üçün də tətbiq edirlər. Beləliklə, Çin texnoloji ixracatla yanaşı, həm də siyasi idarəetmə modelini dolayısı ilə ixrac edir ki, bu da onu Qərbdən kəskin şəkildə fərqləndirir. Qərb isə bu modeli fundamental insan haqları və fərdi azadlıqlara təhdid kimi qiymətləndirir.

Hüquqi baxımdan, bu texnoloji transformasiya yeni beynəlxalq normativ qaydaların formalaşmasına təkan verir. Çin özünün "kiber suverenlik" konsepsiyası ilə beynəlxalq kiberməkanda dövlətlərin müstəqil hüquqa sahib olmasını irəli sürür. Bu yanaşmaya görə, hər bir dövlət öz kiberməkanında nəzarət, senzura və məhdudlaşdırma hüququna malikdir. Pekin bu konsepsiyanı BMT və digər beynəlxalq platformalarda leqallaşdırmağa çalışır və bununla da mövcud liberal və açıq internet idarəetməsi modelinə alternativ təqdim edir.

Nəticə etibarilə, texnologiya sahəsindəki bu rəqabət təkcə iqtisadi və strateji üstünlük uğrunda mübarizə deyil, həm də normativ və ideoloji qarşıdurmadır. Çin yeni texnoloji infrastruktur və hüquqi çərçivə vasitəsilə dünya nizamını rəqəmsal və normativ baxımdan da dəyişməyə çalışır. Bu, posttransatlantik dövrdə Çin–ABŞ qarşıdurmasının yeni bir səviyyəyə keçdiyini və Aİ-nin də bu kontekstdə balanslı mövqe tutmaqda çətinlik çəkdiyini göstərir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Köşə

# *Qlobal Cənub:* Təklənməyə qarşı birlik formulu



*Oğuz Arif*
*oguzarif2000@gmail.com*

**Müasir dünyanın dəyişkən mənzərəsində qlobal qütbləşmə, qeyri-müəyyənlik və fraqmentasiya yeni dünya düzəninin əsas səciyyəvi cizgilərinə çevrilib. Bəşəriyyətin 80 faizinin yaşadığı Qlobal Cənub regionu isə bu düzənin taleyüklü qərarlarından əksər hallarda kənarda qalır. Məhz belə bir dönəmdə, Azərbaycanın təşəbbüsü ilə yaradılan Qlobal Cənub QHT platforması həm tarixi ədalətsizliyə cavab, həm də gələcək əməkdaşlığın təməlidir.**

Azərbaycanın təklif etdiyi bu format bir ölkənin deyil, bütöv dünyanın çağırışlarına cavab verməyə çalışan təşəbbüsdür. Bu günədək Qoşulmama Hərəkatında gənclər və parlamentlər şəbəkəsi olsa da, vətəndaş cəmiyyətlərini birləşdirən vahid QHT platforması yox idi. Bakı bu boşluğu doldurdu. 116 ölkədən QHT-lərin iştirakı ilə qurulan platforma dövlətlərarası diplomatiyanı cəmiyyətlərarası həmrəyliyə bağlayan körpü funksiyasını yerinə yetirir.

Platformanın yaradılış fəlsəfəsi Bandunq prinsiplərinə – daxili işlərə qarışmamaq, suverenliyə hörmət, bərabərlik və qarşılıqlı fayda prinsiplərinə əsaslanır. Bu ruh Bakıda keçirilən müzakirələrin hər cümləsində duyuldu. Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciətdə yer alan "Qlobal Cənubun güclü səsinə çevrilən Azərbaycan" fikri həm siyasi mesaj idi, həm də bu təşəbbüsə verilən tarixi qiymətin ifadəsi.

Konfransın əhəmiyyətli məqamlarından biri də platformanın rəhbərliyinin Azərbaycana həvalə olunması və daimi qərargahının Bakıda yerləşdirilməsi oldu. Bu, ölkəmizin beynəlxalq arenada artan rolunun göstəricisidir. Azərbaycanın COP29 çərçivəsində qazandığı nüfuz və diplomatik uğurlar QHT sektoruna da keçmiş, bu sahədə beynəlxalq təşəbbüsləri reallığa çevirmək imkanı yaratmışdır.

COP29-un mirası sayılan bu platforma iqlim gündəliyindən tutmuş iqtisadi ədalətə, texnologiya transferindən mədəni müxtəlifliyin qorunmasına qədər geniş bir spektrdə Qlobal Cənubun maraqlarını ifadə edəcək güclü mərkəz ola bilər. Burada söhbət təkcə beynəlxalq forumlarda çıxış etməkdən deyil, eyni zamanda, qərarların formalaşmasında rol almaqdan gedir.

Bakıda keçirilən konfrans çərçivəsində D8 ölkələrinin QHT-lərinin ilk görüşünün baş tutması da Azərbaycanın bu sahədə təşəbbüskar liderliyini bir daha təsdiqlədi. İslam dünyasının iqtisadi, sosial və ictimai resurslarının daha sistemli əməkdaşlığa yönəlməsi üçün Bakının seçilməsi təsadüfi deyil.

Qlobal Cənub QHT platforması Azərbaycanın vətəndaş cəmiyyətinin indiyədək əldə etdiyi ən böyük uğurlardan biri hesab oluna bilər. Bu təşəbbüs, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan QHT-lərin inkişafı siyasətinin real nəticəsidir. Bu gün Azərbaycan QHT-ləri artıq yalnız yerli problemlərlə məşğul olan strukturlar deyil – onlar qlobal səviyyədə söz demək, tərəfdaşlıq qurmaq və dünya düzəninin formalaşmasında iştirak etmək gücünə sahibdirlər.

Ekvadorun sabiq xarici işlər naziri Luis Gallegosun Bakıdakı çıxışında dediyi kimi: "Uzun illərdir ki, Qlobal Cənubun birləşdirilməsi məsələsindən danışılırdı. Nəhayət, Azərbaycan liderliyi əlinə götürüb sözdən əmələ keçdi." Bu sözlər təkcə tərif deyil, həm də məsuliyyətli bir yolun başlanğıc nöqtəsidir.

Bu yolun adı qlobal təklənməyə qarşı birləşmədir.

# Pakistan–Hindistan: mənasız toqquşmadan ümidverici atəşkəsə

**Bir neçə gün əvvəl Hindistanın Pakistana qarşı başladığı ağır müharibənin miqyası və şiddəti artır. Dehli belə güclü müqavimətlə üzləşəcəyini gözləmirdi. Pakistan əhalisinin sayına və ərazisinə görə özündən 4-5 dəfə böyük olan rəqibinə adekvat cavablar verməyi bacarır. Peşəkar Pakistanın əsgər və zabitlərinin fədakarlığı isə sadəcə heyranlıq doğurur.**



Qatı millətçi, kəskin islamofob baxışları ilə tanınan Hindistanın baş naziri Narenda Modi arzu etdiyi olduğu "parlaq qələbə" xəyallarından əl çəkməli olacağını başa düşüb. Belə ki, bu ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndəsi Vyomika Sinqh dünən paytaxt Dehlidə təşkil edilən brifinqdə jurnalistlərə bildirib ki, Hindistan Pakistan tərəfinin qarşılıqlı cavab verəcəyi təqdirdə gərginliyin azaldılmasını arzulayır.

Təəssüf ki, Hindistan rəsmilərinin sözləri ilə əməlləri düz gəlmir. Mayın 10-na keçən gecə Hindistan Ordusu Pakistanın aviabazalarına bir neçə raket zərbəsi endirib. Pakistan Silahlı Qüvvələrinin nümayəndəsi bunu regionda sabitliyi pozan təhlükəli hadisə adlandırıb. Cavab olaraq Pakistan Hindistana qarşı genişmiqyaslı hərbi əməliyyata başladığını elan edib.

Hindistan–Pakistan müharibəsində eskalasiya bundan sonra da güclənərsə, bu iki "barışmaz düşmən"lər arasında amansız savaş dəhşətli nüvə müharibəsinə, qarşısıalınmaz fəlakətə yol aça bilər. Dünya ictimaiyyəti bunun fərqindədir və çox narahatdır. Bir çox böyük dövlətlər, eləcə də Türkiyə və Çin tərəflər arasında atəşkəsə nail olmaq üçün vasitəçilik təşəbbüsləri ilə çıxış edirlər.

Məsələn, dünən Çinin yüksək mənsəb sahibi olan yetkilisi Hindistan ilə Pakistanı münaqişənin sülh yolu ilə nizamlanmasına qayıtmağa və vəziyyətin gərginləşməsinə yol verməməyə çağırıb. Çin Xarici İşlər Nazirliyinin bununla bağlı bəyanatında qeyd olunur ki, Pekin bu məsələdə konstruktiv rol oynamağa hazırdır.

Bu arada ABŞ-ın dövlət katibi Marko Rubio ilə Pakistanın Baş nazirinin müavini Məhəmməd İshaq Dar arasında telefon danışığı olub. Danışıqlar zamanı mövcud vəziyyət və Pakistanın cavab tədbirləri müzakirə edilib. Tərəflər sıx əlaqə saxlamaq barədə razılığa gəliblər.

Rəsmi Dehli əlində imkan və kifayət qədər gücü olsaydı, əlbəttə, belə çağırışları gözardı edərdi. Çünki Hindistan iqtidarı ölkədə illər boyu aparılan kəskin anti-Pakistan təbliğatının girovuna vevrilib. Belə ki, qisasçılıq hissi əhalinin xeyli hissəsinin düşüncəsinə hakim kəsilib.

Əlbəttə, Dehlini indi ən çox Pakistan Hərbi Hava Qüvvələrinin yüksək peşəkarlıq nümayiş etdirməsi narahat edir. Bu il mayın 7-nə keçən gecə Hindistan və Pakistanın qırıcı təyyarələri arasında son onillərin aviasiya tarixinin ən böyük döyüşü baş verib. Qeyd olunur ki, 1 saatdan çox davam edən "hava dueli"ndə Pakistan qırıcıları Hindistanın Rusiya və Fransadan aldığı qırıcılara səmada "göz açmağa" belə imkan verməyib. Üstəlik, Hindistanın 3-ü "Rafale" olmaqla, 5 qırıcı təyyarəsi məhv edilib. Bu döyüş Hindistan üçün ibrət dərsi olub.

***P.S. Dünən yazı çapa hazırlanarkən qlobal mediada xoş xəbər yayıldı. Məlum oldu ki, Hindistan və Pakistan arasında atəşkəs qüvvəyə minib. Hindistan XİN başçısının birinci müavini Vikram Misri Dehlidə keçirdiyi brifinqdə deyib ki, danışıqların nəticəsi olaraq hər iki tərəfin quruda, havada və dənizdə bütün atəş və hərbi əməliyyatları dayandıracağı barədə razılıq əldə edilib. Bəli, çox şad xəbərdir. Böyük şairimiz Rəsul Rza demişkən, qoy güllələr yox, güllər açılsın!***

*Məsaim ABDULLAYEV*
*XQ*

# Paşinyanın silahdaşı Patriarx Kirili hədəfə alıb

## *Səbəb din xadiminin Bakıya səfəridir*

**Məlum olduğu kimi, Ermənistanda Azərbaycana məxsus ərazi adlarını özündə birləşdirən "Girdiman–Şirvan–Naxçıvan" ümumermәni birliyi adlı avantürist niyyətli, ölkəmizə qarşı ərazi iddiasına köklənmiş bir təşkilat var. Həmin təşkilat bəyanat yayaraq, ötən həftə Bakıya gerçəkləşdirdiyi səfəri ilə bağlı Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirili pisləyib. Daha doğrusu, qurum Kirilə tənqidləri sıralayaraq, Azərbaycana qarşı hiddət və qəzəb motivli qərəz yağdırıb.**



Bu gün Ermənistan rəhbərliyi ölkənin Azərbaycana, ümumən, qonşularına qarşı heç bir ərazi iddiasının olmadığını bildirir. Əlbəttə, rəsmi İrəvanın, necə deyərlər, ipinin üstünə odun yığılası deyil. Baş nazir Nikol Paşinyan administrasiyası və onun havadarlarının Qarabağ ermənilərinin bölgəyə qayıdışı məsələsində qaldırdıqları ajiotaj, eləcə də erməni iqtidarının Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərti yerinə yetirmək istəməməsi, dəqiq desək, həmin şərtləri yerinə yetirərək ərazi iddiası məntiqini aradan qaldırmaması, üstəlik, qapalı və açıq formada anti-Azərbaycan fəaliyyəti göstərməsi etimad quruculuğu tədbirlərinin başlanmasına imkan vermir. Elə "Girdman–Şirvan–Naxçıvan" birliyi adlı təşkilatın varlığına da mövcud nöqteyi-nəzərdən baxılması vacibdir. Bu baxışı aktuallaşdıran ən vacib cəhəti sonda açıqlayacağıq.

Bəli, Ermənistan rəhbərliyi, ilk növbədə, belə bir sərsəm niyyət güdən təşkilatın qeydiyyatını ləğv etməlidir. Etmirsə, deməli, avantürizmin həm də bu qurumun bəyanat və açıqlamaları şəklində davamında maraqlıdır. Sözügedən birliyin isə tipik erməni xəstəliyinin ayrı-ayrı təzahürlərini ortaya qoyması adi hal alıb. Nəzərə alaq ki, təşkilatın Patriarx Kirilin Azərbaycana səfəri məsələsində etdiyi oyunbazlıq əvvəllər də yaşanıb.

*

Beləliklə, "Girdiman–Şirvan–Naxçıvan" birliyi bəyanatına "patriarxın tarixini lap əvvəldən dini və etnik ayrıseçkilik ideyaları üzərində quran, xristian əhalini sistemli şəkildə təqib edən ölkəyə səfəri qınanmağa layiqdir" fikri ilə başlayıb. Əlbəttə, Azərbaycan istər ərazi, istərsə də əhali baxımından Ermənistandan böyükdür. Amma hətta bu böyüklükdəki nisbəti və müqayisəli yanaşmanı əsas götürsək belə, yenə ölkəmizdə rus dilinə, rus mədəniyyətinə, ümumən digər dinlərin daşıyıcılarına müsbət münasibət faizi Ermənistandan qat-qat üstündür. Bunu təkcə söz şəklində demirik, fikrimizin arxasında konkret rəqəmlər də dayanır.

Əlbəttə, indi statistikanı diqqətə çatdırmağa lüzum görmürük. Ən əvvəl ona görə ki, müsəlman Azərbaycanından fərqli olaraq, Ermənistan üçün etnik rəngarənglik tamamilə yaddır. Ermənistan Cənubi Qafqazda monoetnik ölkə statusunu daşıyır. Digər tərədən, Azərbaycanda etnik ermənilər yaşayırlar. Onların sayı 30 mini keçir. Görəsən, qarşı tərəfin bu reallıqla bağlı alternativ nümunəsi varmı? Yoxdur, heç ola da bilməz. Eyni zamanda, sual yaranır: Necə olur ki, siyasətini xristian əhalinin təqibi üzərində qurduğu iddia olunan Azərbaycanda dini zəmində bir dənə də olsun qarşıdurma qeydə alınmayıb?

*

Sən demə, Patriarx Kiril Bakıda Azərbaycanı pisləməli imiş. Çünki ölkəmiz, guya, millətçi siyasət yeridirmiş, xristian azlıqları aşkar və ya gizli şəkildə sıxışdırırmış, xristian dini irsini vaxtaşırı məhv edirmiş. Ancaq nəzərə alaq ki, ayının min oyunu bir armudun başında olduğu kimi, "Girdiman–Şirvan–Naxçıvan" birliyinin də bəyanat yaymaqdakı məqsədi Qarabağ avantürasına xidmətdir. Təşkilat bu avantüra naminə ortaya atılmış ənənəvi tezisləri təkrarlayır. Guya, Azərbaycan bölgənin xristian əhalisini zorakılığa məruz qoyubmuş, onları ev-eşiklərindən didərgin salıbmış. Qurumun başbilənləri bəyanatlarına həyasızlıq dolu belə bir ritorik sual da daxil ediblər: "Rus Pravoslav Kilsəsinin rəhbəri özünü bölgədəki xristianların mənəvi dəyərlərini qoruyub saxlamalarına və onlara dini hüquqlarından istifadə üçün zəmanətli imkanların təminatına sadiq hesab etmirmi?"

Belə görünür, "Girdiman–Şirvan–Naxçıvan"ı daha çox qıcıqlandıran Patriarx Kirilin Azərbaycanın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinin Birinci Dərəcəli "Müqəddəs Knyaginya Olqa" Ordeni ilə təltif etməsidir. Sən demə, bu, patriarxın regional hadisələrlə bağlı qeyri-adekvat və qərəzli mövqeyini təsdiqləyirmiş. Ardınca isə qurum vurğulayıb ki, Bakıda erməni qəbiristanlıqları ilə yanaşı, rus qəbiristanlıqları və Böyük Vətən Müharibəsinə həsr olunmuş simvollar hücumlara və təhqirlərə məruz qalır.

Hesab edirik ki, qəbirstanlıqlarla bağlı məsələnin üzərində xüsusi dayanmağa ehtiyac var. Məsələ burasındadır ki, Ermənistan Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdə nəinki ərazilərimizdə daşı-daş üstə qoymamış, məqsədli talançılıq həyata keçirmiş, müqəddəs ziyarətgahlarımızı təhqir etmiş, habelə hay goreşənlər, qəbir yerlərimizə qarşı da heç bir əndazəyə sığışmayan, ölçüyə gəlməyən barbarlıqlar törətmişdilər. Bu gün minlərlə azərbaycanlı var ki, işğaldan azad olunmuş bölgələrdə özlərinin valideynlərinin, doğmalarının, əzizlərinin məzarlarını tapa bilmirlər. Ümumermәni birliyi isə Patriarx Kirili hədəfə alan bəyanatında ermənilərin əməllərini azərbaycanlıların boynuna qoymağa çalışır.

Nəhayət, sona saxladığımız məqamı diqqətə çatdıraq. "Girdiman–Şirvan–Naxçıvan" birliyinin rəhbəri Ermənistan parlamentinin hakim "Vətəndaş sazişi" partiyasından olan sabiq deputatı Vilen Qabrielyandır. 1983-cü ildə Bakıda anadan olmuş bu məxluqun baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi qurumun üzvü, hətta yaradıcılarından olması özlüyündə hər şeyi deyir. Deməli, bir yandan Paşinyan Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirir, digər yandan onun silahdaşı Qabrielyanın başçısı olduğu qurum qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaranmasının ildönümü ilə bağlı bəyanatlar yayır. Yəqin, ortada çox böyük riyakarlıq və ikiüzlülüyün olduğunun fərqinə vardınız.

Qeyd edək ki, V.Qabrielyanın bu ilin aprelində deputat mandatından imtinasının səbəbi martın 30-da Gümrüdəki mer seçkiləri ilə bağlıdır. Həmin gün orada təmsil etdiyi "Vətəndaş sazişi"nin lobbiçiliyini aparan Qabrielyan sərxoş vəziyyətdə jurnalistləri təhqir edib. Sosial şəbəkələrin erməni seqmentində hadisəni əks etdirən video görüntülər də yayılıb. Bundan sonra deputatlıqdan imtina məcburiyyətində qalan Qabrielyan çıxış edərək, guya, qarşıdakı müddətdə öz potensialını tamamilə "Girdiman–Şirvan–Naxçıvan" ümumermәni birliyi naminə cəmləşdirəcəyinə dair populist fikirlər tirajlayıb. Ola bilər ki, bu məxluq rəhbərlik etdiyi təşkilatın Patriarx Kirili hədəfə alan bəyanatını da sərxoş durumda yazıb. Belə xəstə xislətli birindən nə desən gözləmək mümkündür.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

**Onun adı hələ Ukinci Qarabağ savaşından əvvəl "çirkli pulların yuyulmasında", ofşor şirkətlərin vasitəsilə hayata keçirdiyi qanunsuz maliyyə əməliyyatlarında, gizli silah-sursat alverində hallanırdı. Bu fəaliyyət "dairəsinə" dünyanın bir sıra ölkələrinin daxil olduğu məşhur milyarder, Qarabağdakı separatçı rejimə hərtərəfli dəstək verməklə Azərbaycan dövlətinə qarşı törətdiyi əməllərinə görə hazırda təqsirləndirilən şəxs kimi Bakıda məhkəmsi davam edən Ruben Vardanyandır. Bir neçə il bundan əvvəl "Troyka Laundromat" adı ilə bazara daxil olmuş Rusiyanın "Troika dialoq" investisiya şirkəti ətrafında qalmaqal yaranmışdı. Həmin investisiya institutu onlarca ofşor şirkətdən ibarət mürəkkəb sistem yaradıbmış. Şirkət 2006–2011-ci illərdə qeydiyyatdan keçmiş firmalar vasitəsilə Rusiyadan milyardlarla dollar, o cümlədən beynəlxalq cinayət hesab olunan şübhəli mənşəli vəsaitləri kənara çıxarıb.**

# Milyardlar nədən xəbər verir, Vardanyan?



### "Troyka dialoq"un əhatə dairəsi

Pullar İspaniya, Böyük Britaniya və Monteneqroda daşınmaz əmlak almaq, özəl məktəblərdə təhsil və ya özəl klinikalarda müalicə xərclərini ödəmək, həmçinin təyyarələr, yaxtalar və incəsənət əsərləri almaqdan ötrü istifadə olunub. Şirkətin sahibi, xatırladığımız kimi, hazırda Azərbaycan Cinayət Məcəlləsinin müharibə qanun-qaydalarını pozmaq, terrorizm, terrorçuluğun maliyyələşdirilməsi və digər maddələri ilə barəsində cinayət işi açılmış, istintaq tədbirləri və məhkəməsi davam edən Vardanyan imiş. Əslində, onun fəaliyyəti "Troyka dialoq" şirkətinin sərhədlərindən daha geniş areala yayılıb.

2022-ci ilin noyabrında ABŞ Maliyyə Nazirliyi araşdırma nəticəsində İsveçrədə yerləşən özəl beynəlxalq dağ-mədən və metallurgiya qrupu olan SIG-nin Rusiya Federasiyası ilə əlaqələrini rəsmən təsdiqlədi. Bu faktı Maliyyə Departamentinin bölməsi sayılan Xarici Aktivlərə Nəzarət Ofisinin apardığı məxfi araşdırması üzə çıxardı. Məlum oldu ki, SIG-nin uzun müddət ərzində Qvatemalada mədən sektorundakı irimiqyaslı ekoloji cinayətlərdən və korrupsiyadan tutmuş Ukrayna müharibəsi başlanandan sonra Moskvanın bu coğrafiyada təsirinin yayılmasının asanlaşdırılmasına qədər bir sıra qanun pozuntularında əli var. Qlobal "Maqnitski aktı" çərçivəsində tətbiq edilən sanksiyalar qrupun iki əməkdaşına və Qvatemalada fəaliyyət göstərən yeddi törəmə şirkətinə ziyan vurub. Vaşinqtonun atdığı bu addım "əməliyyat" coğrafiyası çoxdan Latın Amerikasından kənara çıxan və faktiki olaraq, daha geniş maraq dairəsini əhatə edən holdinqin fəaliyyətinin ciddi nəzarətə alınmasının startı oldu.

Sonrakı aylar ərzində hadisələr daha da "inkişaf " etməyə başladı. 2023-cü ilin mart ayında 20 aparıcı beynəlxalq media təşkilatını təmsil edən 65 jurnalistdən ibarət qrup "Solway Investment Group"-un strukturu və fəaliyyəti ilə bağlı genişmiqyaslı araşdırmanın nəticələrini dərc etdi. "Forbidden Stories" platforması tərəfindən həyata keçirilən "Mining Secrets" beynəlxalq layihəsi irimiqyaslı maliyyə fırıldaqlarını üzə çıxardı: "Solway" ilə əlaqəli şirkətlər şübhəli əməliyyatlar üçün tənzimləyici yoxlamaya məruz qalan hesablardan təxminən 2 milyard dollar köçürdülər. Bu əməliyyatların miqyası ilə bağlı əlavə təfərrüatlar Kanadanın Demokratiya müşahidə qrupunun hesabatında işıq üzü gördü.

Jurnalistlər hərəkətlərində "çirkli pullar"ın yuyulmasının bütün əlamətlərini daşıyan "Solway"-ə bağlı 23 şirkətə xüsusi diqqət yetirdilər. Maraqlıdır ki, müəyyən edilmiş əməliyyatlar struktur olaraq əvvəllər "Troyka Laundromat" sxeminin qalmaqallı ifşasında təsvir edilən mexanizmlərin oxşarı idi. Qeyd etdiyimiz kimi, bu, ofşor şirkətlər və Qərb bankları vasitəsilə Rusiyadan gizli kapital çıxarılmasının ən böyük hadisələrindən biri idi. Bununla belə, əvvəlki yüksək profilli qalmaqaldan fərqli olaraq, bu dəfə əsas diqqət tranzaksiya arxitekturasının özünə deyil, "Solway" qrupuna yönəldi. Bu araşdırma çərçivəsində, eyni zamanda, onun "Troika dialoq"la əlaqələri kölgədə qaldı.

### Dolanbac aktiv əməliyyatı

Bütün bunların təsadüf olmadığı artıq hamıya gün kimi aydındır. Bu olay beynəlxalq məhdudiyyətlərdən yan keçmək üçün gizli üsulların dəqiq tənzimlənməsinin, eyni zamanda, əvvəlki funksiyaların bəzilərini öz üzərinə götürə bilən yeni oyunçuların meydana çıxmasının nəticəsi idi. İstintaqın araşdırdığı sızmanın miqyası da öz sözünü deyir: "Distributed Denial of Secrets"-in məlumatına görə, jurnalistlər "Solway" qrupunun fəaliyyəti ilə bağlı 4 terabaytdan çox daxili sənədləşmə, yazışma və fayllara giriş əldə ediblər.

Bunların fonunda 2022-ci ilin yayında baş tutan sövdələşmə xüsusilə yaddaqalan oldu. Məhz o zaman əvvəllər heç yerdə görünməyən erməni şirkəti "Far East Gold" qəfildən Rusiyadakı aktivlərini "Solway"-dən aldı. Bu barədə Ermənistan və Rusiya KİV-ləri məlumat yaymışdı. İlk baxışdan adi bir iş sövdələşməsi kimi görünən işin təfərrüatları onun şübhəli və qanunsuz mahiyyətini göstərirdi. Alqı-satqı həyata keçirən hüquqi şəxs sövdələşmə yekunlaşandan bir ay əvvəl Ermənistan Ədliyyə Nazirliyində qeydiyyata alınmış, bundan sonra onun heç bir real fəaliyyəti olmayıb. Yəni, ofis, işçi heyəti, ictimai hesabatlar və ya tənzimləyici orqanlarla qarşılıqlı əlaqələr qeydə alınmayıb. Bu, müəyyən bir vəzifə üçün – "Solway"ın ABŞ və Aİ-nin artan təzyiqindən rəsmi çıxışını təmin etmək üçün yaradılmış uydurma struktur imiş.

Artıq 2022-ci ilin sentyabrında, yəni aktivlərin satışından cəmi iki ay sonra Rusiya Federasiyasının güc strukturlarında və maliyyə kapitalında əlaqələri ilə məşhur olan rusiyalı oliqarx Ruben Vardanyanın Rusiya vətəndaşlığından imtina etməsi və Xankəndiyə köçdüyünü elan etməsi sövdələşməyə əlavə maraq doğurur. O andan etibarən Vardanyan Moskvadan tam müstəqillik təəssüratı yaratmaq üçün nəzərdə tutulmuş yeni siyasi tərcümeyi-halı formalaşdırmağa başladı. Onun tərcümeyi-halı, eləcə də biznes və siyasi əlaqələri "War-Proekt.Media"dakı məqalədə ətraflı şəkildə araşdırılır. Hadisələrin xronologiyası əksini göstərir: Solway aktivlərinin satışı, Ermənistanda "kağız" şirkətin qeydiyyatı və Vardanyanın gözlənilməz miqrasiyası arasında əlaqə təsadüfi ola bilməyəcək qədər ardıcıldır. Diqqəti çəkən maraqlı məqam: qeyd olunan hadisələrin fonunda Ermənistan Rusiyadan qızıl idxalının həcmini kəskin şəkildə artırıb...

### Qızılın "yuyulması" sxemi

"Çirkli pullar kralı" adlandırdığımız Vardanyanın ölkələrarası maliyyə maxinasiyaları bunlarla bitmir. "The Insider"-nin araşdırmasına görə, 2022–2024-cü illər arasında Rusiyadan Ermənistana dəyəri 5 milyard dollardan çox olan 89 ton qızıl idxal edilib. Bu, normal həcmdən 20 dəfə çoxdur. "Hetq.am"-ın dərc etdiyi bu rəqəmlər Uzaq Şərq qızılı ilə uydurma müqavilənin kapitalın çıxarılması və yuyulması üçün daha böyük bir sxemin yalnız bir hissəsi ola biləcəyi ehtimalını yaradır. Bu əlaqələrin əlavə təsdiqi lobbiçilik fəaliyyətini və siyasi ianələri izləyən Amerika resursu olan "OpenSecrets"in bazasındakı məlumatlardan gəlir. Dərc edilmiş məlumatlara görə, 2024-cü ildə "Solway" investisiya qrupu xidmətlər üçün "Jared Senserin Perseus Strategies" şirkəti ilə 20 milyon dollarlıq müqavilə imzalayıb. Bu şirkətin əvvəllər daha nüfuzlu və zəngin lobbi qruplarından istifadə etdiyini nəzərə alsaq, sövdələşmə adi görünməz. Onların sinxronluğunu hətta gözlə görmək mümkündür. İlk baxışda təsadüf kimi görünə bilər, əslində isə bir mərkəzdən idarə olunan şəbəkə fəaliyyətidir. Həmin 2024-cü ildə Ruben Vardanyanın oğlu David Vardanyan həmin lobbinin xidmətindən yararlanıb.

Beləliklə, "OpenSecrets"in məlumat bazasında yan-yana yerləşən adlar "Solway" ilə Vardanyan ailəsi arasında koordinasiyanın mövcudluğundan xəbər verir. İndi geriyə dönüb baxdıqda aydın olur ki, "Far East Gold" bu sxemdə müstəqil və ya təsadüfi oyunçu deyil. Böyük sövdələşmədən bir ay əvvəl yaradılan bu strukturun heç bir real fəaliyyəti olmayıb və çox güman ki, "keçici alət" kimi istifadə edilib. Müvəqqəti hüquqi "çətir" "Solway"ə Rusiya aktivlərindən rəsmi şəkildə uzaqlaşmağa, eyni zamanda, onları əvvəlki sahiblərinin orbitində saxlamağa imkan verir.

Hadisələrin bütün gedişatı – şirkətin qeydiyyatı, aktivlərin sürətlə ötürülməsi, Ruben Vardanyanın Rusiya vətəndaşlığından imtinası və Xankəndiyə köçməsi, əslində, sanksiyalardan yayınmaq üçün dəqiq qurulmuş kombinasiyaya işarə edir. On illər ərzində Rusiyanın maliyyə və siyasi elitasına inteqrasiya etmiş Vardanyanın gözlənilmədən separatçı qurumda qondarma "dövlət naziri" rolunu öz üzərinə götürməsi suallar doğurmalı idi. Bu dəyişiklik elə əvvəlki taktikanın davamı olub. Bu dəfə yeni siyasi maska altında. Həm "Solway Investment Group"un, həm də David Vardanyanın amerikalı lobbist Cared Senserin xidmətinə ikinci dəfə üz tutması təsadüf sayıla bilməz.

Bu kriminal maliyyə sxeminin əsas xətlərinin ətrafında cəmləşdiyi Ruben Vardanyan fiquru "yanlış zamanda, yanlış yerdə" meydana çıxan element deyil. O, siyasətin, maliyyənin və hüquqi strukturların vahid sistemdə bir-birinə qarışdığı çoxsəviyyəli strategiyanın fəal iştirakçısıdır.

### Oyun davam edir

Köhnə rus kapitalının yeni hüquqi müstəviyə köçürülməsi məhz bu cür vasitələrlə həyata keçirilir. Yüksək ictimai reputasiya, xeyriyəçilik kimi humanitar təşəbbüslər oyunu imkan verir ki, bu cür fiqurlar rəsmi sanksiya siyahılarından kənara çıxsınlar və yeni məkanlarda özlərini qanuniləşdirsinlər. Əlqərəz, yeni tərcümeyi-halın, "xidməti xarakteristikanın" arxasından eyni oyun davam edir. Həmin aktivlər, eyni müttəfiqlər və məlum hədəflər. Beləliklə, Rusiyanın Uzaq Şərq qızılının hekayəti ayrıca götürülmüş bir epizod deyil, köhnə mexanizmlərin yeni şərtlərə üzvi şəkildə uzlaşdırmanın və daha sabit sistemin bir hissəsidir.

Vardanyan kimi fiqurlar yurisdiksiyalar, lobbi strukturları və silah şirkətləri arasında manevrinə davam etdikcə, bu sistem siyasi ritorikadan, sanksiyalar təzyiqindən və "çirkli pulların" axını ilə mübarizəyə dair bəyannamələrdən asılı olmayaraq, özünü təkrar-təkrar istehsal edəcək.

***P.S. "Çirkli" milyardları, tonlarla qızılları dünyada dövr edən Vardanyanın Ermənistandakı soydaşları bu gün yoxsulluq həddində yaşayırlar. Erməni iqtisadçı ekspert Suren Parsyan yazır ki, Ermənistanda cari ilin son iki ayında kartof 47 faiz, xiyar 16,6 fazi, alma 16,4 faiz, çiyələk 23,7 faiz bahalaşıb: "Tərəvəz və meyvələrin qiymətlərindəki artım narahatlıq doğurur. Rəsmi məlumatlara görə, ölkənin hər dördüncü sakini yoxsuldur və gəlirlərinin böyük hissəsini yeməyə xərcləyir".***

***İmran BƏDİRXANLI***
***XQ***

Böyük Qayıdışın addımları

# Qarabağ: Çoxalan təməllər, ürəkaçan əməllər



*(əvvəli 1-ci səhifədə)*

Adıçəkilən sərəncamın icrası istiqamətində güzəşt və azadolmalar müəyyənləşdirilib. İlk növbədə, vergi və gömrük güzəştlərinin tətbiqi diqqətdə saxlanılıb. Belə ki, işğaldan azad edilən ərazilərin rezidentlərinin 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş vergidən azad edilməsi qərara alınıb. Müvafiq sahələr üzrə idxal olunan avadanlıqlar 10 il müddətinə ƏDV və gömrük rüsumlarından azad olunub.

İşğaldan azad edilən ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması, muzdlu işə aid olmayan fəaliyyətdən (fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları) gəlir əldə edən sığortaolunan tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının 10 il müddətinə 100 faiz həcmdə subsidiyalaşdırılması təsdiqlənib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq layihələrinin geniş vüsət almasını dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsaitin həcmi də aydın göstərir. Məsələn, 2020-2024-cü illərdə işğaldan azad olunan ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb, 2025-ci ildə isə bu məqsədlə 4 milyard manat vəsait xərclənməsi nəzərdə tutulub.

Hazırda işğaldan azad edilən ərazilərə köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə reallaşdırılan layihələrin icrasında çalışan, eləcə də ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 mindən çox insan yaşayır.

İşğaldan azad olunan Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və digər mühüm logistika potensialının mövcudluğu nəzərə alınaraq, Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Bundan başqa, Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması imkanları nəzərə alınaraq dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanı ilə 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parklarının rezidentləri qeydiyyata alındığı tarixdən 10 il müddətinə mənfəət, əmlak, torpaq vergiləri, idxal olunan avadanlıqlara görə ƏDV və gömrük rüsumlarından azad olunub.

Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" enerji zonasının yaradılması istiqamətində tədbirlərə başlanılıb. Sərəncamın icrasını reallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə prioritet istiqamətləri özündə ehtiva edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiqlənib.

Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Şəhərin tarixi simasının və mədəni irsinin qorunub saxlanılmaqla bərpa olunması qarşıya mühüm vəzifə kimi qoyulub. İndiyədək Şuşada 376 ailə, ümumilikdə, 1409 nəfərdən artıq keçmiş məcburi köçkün məskunlaşdırılıb. Qeyd edək ki, indiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulub.

Bu gün Qarabağın hər yerində, eləcə də Şuşada genişmiqyaslı bərpa-quruculuq layihələri gerçəkləşdirilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 9-da Şuşa rayonunda bir sıra sosial obyektlərin açılışında, şəhərdə inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmələri, Xocalıda olarkən burada "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin yüksək səviyyədə təşkili üçün genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür müasir tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi şəhərdə yaşayan əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak etmələri isə dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqların uğurla həyata keçirilməsindən xəbər verir.

# Vyetnamla birgə Biznes Şurası yaradılır

**Yaxın vaxtlarda Azərbaycan və Vyetnam iş adamları daha sıx əlaqə saxlaya biləcəklər. İki ölkənin biznes strukturları arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə Biznes Şura yaradılır.**



Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfəri çərçivəsində "Bakı KOB evi"ndə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VINEN) arasında Azərbaycan–Vyetnam Biznes Şurasının yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və VINEN-in prezidenti Dinh Viet Hoa imzalayıblar.

Qeyd edək ki, Azərbaycan – Vyetnam Biznes Şurası hər iki ölkənin sahibkarlarının təşəbbüslərini dəstəkləyəcək, iş adamları arasında əlaqələrin qurulmasına, qarşılıqlı səfərlərin, birgə tədbirlərin təşkilinə, tərəflər arasında ticarət əlaqələrinin inkişafında faydalı ola biləcək məlumat mübadiləsinə kömək göstərəcək. İlkin mərhələdə Azərbaycan – Vyetnam Biznes Şurasının həmsədrlərinin müəyyən edilməsi və şuraya hər iki ölkədən iş adamlarının cəlb olunması istiqamətində tədbirlər həyata keçiriləcək.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və VINEN-in prezidenti Dinh Viet Hoa arasında keçirilmiş görüşdə müvafiq memorandumdan irəli gələn məsələlər, eləcə də hər iki ölkənin işgüzar dairələri arasında əməkdaşlıq və bu əlaqələrin genişləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

Ölkəmizdə səfərdə olan VINEN-in prezidenti "Bakı KOB evi"nin fəaliyyəti, burada sahibkarlara göstərilən "G2B" və "B2B" xidmətlərlə tanış olub.

# Yaponiya ilə ticarət genişlənir

**2025-ci ilin yanvar – mart aylarında Azərbaycanla Yaponiya arasında ticarət əməliyyatlarının həcmi 87,9 milyon ABŞ dolları təşkil edib. Bu isə ötən ilin eyni aylarındakı göstərici ilə müqayisədə 26 milyon dollar və ya 42 faiz çoxdur.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə Yaponiya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 0,73 faizi həcmində olub. Məlumatda bildirilib ki, cari ilin yanvar–mart aylarında Azərbaycandan Yaponiyaya 3,1 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,1 milyon dollar və ya 25,6 faiz azdır. Eyni zamanda, ilin ilk rübündə Yaponiyadan Azərbaycana 84,8 milyon dollar dəyərində idxal əməliyyatları icra olunub. Bu isə ötən ilin eyni dövrünə nisbətən 27,1 milyon dollar və ya 46,9 faiz artım deməkdir.

Xatırladaq ki, 2025-ci ilin yanvar–mart aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 24,3 faiz artaraq 12 milyard ABŞ dolları təşkil edib. Məlumata görə, son bir ildə ölkə üzrə ixrac 401,75 milyon dollar və ya 6,7 faiz artaraq 6,4 milyard dollar, idxal isə 1,9 milyard dollar və ya 52,6 faiz artaraq 5,7 milyard dollara çatıb. Yeri gəlmişkən, hesabat dövründə ölkəmizin xarici ticarət dövriyyəsində 722,9 milyon dollarlıq müsbət saldo yaranıb.

# Yeni "yaşıl" layihələrə yatırım – 30 milyon manat!

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan 2030-cu ilədək ümumi enerji balansında bərpa olunan enerjinin payını 30 faizə yüksəltməyi hədəfləyir. Artıq təsdiqlənmiş proqnozlara əsasən, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı isə 520 meqavat həcmində qiymətləndirilir.

Məlum olduğu kimi, dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçısına çevrilmiş Azərbaycan 5 ilə yaxındır ki, tanınmış beynəlxalq enerji şirkətləri ilə bu sahədə uğurlu əməkdaşlıq edir. Məhz bu əməkdaşlığın nəticəsidir ki, hazırda ölkəmizdə bərpa olunan enerji sahəsində bir sıra iri miqyaslı layihələr həyata keçirilir. Artıq həmin layihələr real fəaliyyət sahəsinə çevrilməkdədir.

2023-cü ilin oktyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük günəş elektrik stansiyası sayılan 230 meqavatlıq "Qaradağ" Günəş Elektrik Stansiyası istifadəyə verilib. Yeri gəlmişkən, 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib istismara verilmiş bu nəhəng "yaşıl" enerji obyekti ölkəmizdə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Azərbaycanın dövlət başçısı İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayan stansiyada indiyədək 666 milyon 573 min kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu isə ölkənin ümumi elektrik eneji istehsalında "yaşıl" enerjinin payının artmasına gətirib çıxarıb.

Bu yaxınlarda isə ölkəmizdə daha bir "yaşıl" eneji stansiyasının istifadəyə verilməsi planlaşdırılır. Bu, Səuduyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən 240 meqavatlıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyasıdır. 340 milyon dollar xarici sərmayə hesabına inşa olunan bu stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan verəcək.



Bununla yanaşı, ötən il "ACWA Power" şirkəti ilə "Dənizdə 1,5 qiqavatdək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 qiqavat külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb.

Yaxın illərdə isə ölkəmizdə çoxsaylı "yaşıl enerji" layihələrinin icrasına başlanılacaq. Belə ki, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə imzalanmış sazişlər çərçivəsində inşası nəzərdə tutulmuş 445 meqavat "Biləsuvar" və 315 meqavat "Neftçala" günəş, eləcə də 240 meqavat "Abşeron–Qaradağ" külək elektrik stansiyalarının təməli qoyulub. Sözügedən stansiyaların istismara verilməsi ilə ölkəmizdə il ərzində əlavə 3 milyard 843 milyon kilovat-saat təmiz enerji istehsal olunacaq. Bununla yanaşı, həmin stansiyaların fəaliyyəti nəticəsində ildə 496 milyon kubmetr təbii qaza qənaət olunacaq ki, bu da 943 min ton karbon emissiyasının azaldılması deməkdir.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının zəngin bərpa olunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində də layihələrin icrasına başlanılıb. Bu məqsədlə "Nobel Energy Management", "TotalEnergies" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 1000 meqavatdan çox olan "yaşıl" enerji layihələri ilə əlaqədar müqavilələr imzalanıb.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpa olunan enerji potensialı olduqca yüksəkdir. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamın icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılıb və müvafiq konsepsiya sənədi hazırlanıb.

Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur. İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu texniki potensial 7 min 200 meqavatdan artıq olaraq qiymətləndirilib. Eyni zamanda, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2 min meqavat həcmində texniki potensialının olduğu müəyyən edilib. Bununla yanaşı, Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensialı mövcuddur. Ötən müddətdə bu istiqamətdə bir sıra uğurlu layihələr həyata keçirilib, ümumi gücü 170 meqavat olan su elektrik stansiyaları istifadəyə verilib. Bununla yanaşı, BP şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisinə başlanılıb.

Bütövlükdə isə, yaxın gələcəkdə Azərbaycanda bərpaolunan mənbələrdən enerji istehsalının 10 qiqavata çatdırılacağı gözlənilir ki, bu da ölkəmizi "yaşıl enerji"nin mühüm ixracatçısına çevirəcək.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İDEA rəhbəri Romada MAMA “Ana təbiət” sərgisində

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyevanın iştirakı ilə İtaliyanın paytaxtı Romanın məşhur XXI Əsrin Milli İncəsənət Muzeyində MAMA “Ana təbiət” beynəlxalq incəsənət sərgisinin təqdimatı olub.**



İlk dəfə MAMA “Ana təbiət” incəsənət layihəsi ötən payız Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində sərgilənib. Sonra iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bəhreyndə təqdimat səyahəti baş tutub. İndi isə Romada təqdim edilən layihə müasir rəssamlar qrupunun yaradıcılığının nümayişidir.

Qeyd edək ki, Azərbaycan da daxil olmaqla, 28 ölkədən 55 fərqli sənətkar bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağıran layihə ilə fərqli instalyasiya, rəsm və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemlərə dair hekayələr təqdim edilir. Ekspozisiyadakı hər bir incəsənət əsəri insanın təbiətlə dərin bağlılığına bir mesajdır. Məqsəd Yer kürəsinin təkcə ilham mənbəyi kimi deyil, həm də həyat üçün zəruri qidalandırıcı qüvvə kimi dərk olunmasıdır.




Layihə dünya səyahəti insanla təbiət arasındakı ayrılmaz bağlılığı vurğulayır və ana fiqurunu həm mənəvi, həm də fiziki mənada, həyatın əsas mənbəyi kimi ön plana çıxarır. İzləyiciləri təbiətə qarşı məsuliyyət, qayğı və ekoloji yenilənmənin zəruriliyi barədə düşünməyə vadar edən beynəlxalq incəsənət sərgisi Roma muzeyində mayın 14-dək davam edəcək.

# Bakıda “yaşıl” xatirə aksiyası

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Leyla Əliyeva və Arzu Əliyevanın iştirakı ilə Suraxanı rayonu, Zığ şossesindəki boş ərazidə ağacəkmə aksiyası keçirilib. “IDEA” könüllülərinin fəal iştirakı və Bakı Abadlıq Xidmətinin dəstəyi ilə keçirilən aksiya zamanı ərazidə 1000 ədəd zeytun ağacı əkilib və abadlıq işləri də aparılıb. Ağacların effektiv şəkildə sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sisteminin tətbiqi nəzərdə tutulub.**



Tədbir Zığ–Aeroport yolu boyunca davamlı olaraq həyata keçirilmiş ağacəkmə kampaniyaları çərçivəsində həmin ərazidə aparılan yaşıllaşdırma işlərini yekunlaşdıran sonuncu aksiya kimi təşkil edilib.

Aksiya zamanı, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim Mətbəx” sosial layihəsinin veb-saytı və sosial şəbəkə hesabları haqqında məlumat təqdim olunub. Layihənin əsas məqsədi aztəminatlı ailələrə və ehtiyacı olan şəxslərə sevgi və qayğı ilə dolu bir mühit bəxş etmək, cəmiyyətimizdə həmrəylik ruhunu daha da gücləndirməkdir. Fəaliyyətə başladığı gündən etibarən “Bizim Mətbəx” könüllüləri Bakı və ətraf bölgələrdə yaşayan yüz minlərlə insana isti yeməklər təqdim edərək onların gündəlik həyatına isti münasibət və ümid bəxş etməyə nail olublar.



*XQ*

## YENİ TAMAŞA

# “İrəvanda nəyim qaldı”

**Sumqayıt Dövlət Dram Teatrında yazıçı-dramaturq Hidayət Orucovun “Burdan min atlı keçdi” əsərinin motivləri əsasında “İrəvanda nəyim qaldı...” tamaşasının premyerası uğurla keçib.**



Tamaşanı şəhərin rəhbər heyəti, Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələri də izləyiblər. Premyeradan öncə tamaşanın məsləhətçisi – Qərbi Azərbaycan İcmasının Sumqayıt nümayəndəsi Ramiz İsmayılov çıxışında bildirib ki, bu qəbildən olan əsərlərin səhnəyə qoyulması milli mücadilə tariximizin gənclərə öyrədilməsi baxımından zəruridir. Görkəmli dövlət xadimi Heydər Əliyevin milli təəssübkeşliyi, imperiya daxilində Azərbaycan üçün göstərdiyi fədakarlıqlar hər kəs üçün əsl ibrət dərsləridir. Ulu öndərin anadan olmasının 102-ci ildönümünün Sumqayıt teatrında belə doğlun əsərlə qeyd olunması təqdirəlayiqdir.

Sonra “İrəvanda nəyim qaldı...” əsəri nümayiş etdirilib. Tamaşada yaxın tariximizin gerçək faktları, Azərbaycanın qədim yurd yeri İrəvanda zaman-zaman soydaşlarımıza qarşı aparılan təxribatlar, erməni ideoloqlarının ərazi iddiaları və Heydər Əliyevin Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın siyasi müstəvidə müdafiəsinə qalxması tarixi-bədii boyalarla əksini tapıb.

Dönə-dönə alqışlanan səhnə əsərinin quruluşçu rejissoru və musiqi tərtibatçısı Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

*XQ*

## Həftənin mədəniyyət təqvimi

# Əzim Əzimzadə – 145



Azərbaycan karikatura sənətinin banisi, Xalq rəssamı, Əmək Qəhrəmanı Əzim Aslan oğlu Əzimzadə 1880-ci ilin may ayında Bakının Novxanı kəndində dünyaya göz açıb. Rəssamlığa məşhur “Molla Nəsrəddin” jurnalında əsərlərini dərc etdirməklə başlayıb, həmçinin “Zənbur”, “Tuti”, “Kəlniyyət” jurnallarının səhifələrində karikaturaları nəşr edilib. Ə.Əzimzadə böyük satirik M. Ə. Sabirin “Hophopnamə”sinə çəkdiyi illüstrasiyalarla (1914) kitab qrafikası sənətinin də təməlini qoyub. 1920–1943-cü illərdə Ə.Əzimzadə Azərbaycan Rəssamlıq Texnikumunda müəllim, 1932–1937-ci illərdə isə direktor vəzifəsində işləyib. 1943-cü ilin may ayında görkəmli rəssam vəfat etdikdən sonra bu məktəbə onun adı verilib.

# Cəfər Xəndan – 115



Azərbaycanlı şair, tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Cəfər Zeynal oğlu Hacıyev (Cəfər Xəndan) 1910-cu il mayın 8-də İrəvan şəhərində müəllim ailəsində doğulub. M.F.Axundov adına Müəllimlər İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda kafedra, EA-nın Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri vəzifələrində işləyib. İkinci Dünya müharibəsində sovet ordusu tərkibində siyasi rəhbər və jurnalist kimi alman işğalçılarına qarşı vuruşub. Sonra bir müddət “Kommunist” qəzetində işləyib, 4 il Azərbaycan Dövlət Universitetinin rektoru olub. Cənubi Azərbaycan mövzusunda dissertasiya müdafiə edərək doktorluq alimlik dərəcəsi alıb. 1961-ci ildə Bakıda dünyasını dəyişib.

# Əhməd Qəmərlinski – 145



Bakı kinostudiyasının artisti, Əməkdar incəsənət xadimi Əhməd Qəmərlinski 1880-ci ildə Bakıda doğulub, İçərişəhərdə boya-başa çatıb. Sultanməcid Qənizadənin məktəbində təhsil alıb. Səhnəyə ilk dəfə 1906-cı ildə Balaxanıda dram dərnəyində çıxıb, həmçinin xalq mərasim və oyunlarında iştirak edib. O, Azərbaycan Xalq Cumhuriyyəti dövründə təşkil olunmuş Dövlət türk opera dram teatrında işləyib, 1924-cü ildən Bakı Azad Tənqid Təbliğ Teatrının aktyoru və rejissoru olub. O, ədəbi yaradıcılıqla da məşğul olub, tarixi və müasir mövzuda əsərlərindən “Cavanlar”, “Tufan Kərbəla”, “Rüstəm və Söhrab”, “Məkri-zənən” tamaşaya qoyulub. “Eşq-məhəbbət”, “Məktəb vodevili”, “Ziyarət nəticəsi”, “Maymaq” və s. pyeslərində ictimai problemlərə toxunub. Əhməd Qəmərlinski 9 mart 1952-ci ildə vəfat edib.

# Fuad Əbdürrəhmanov – 110



Böyük heykəltaraş, Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, 2 dəfə Stalin mükafatı laureatı Fuad Həsən oğlu Əbdürrəhmanov 1915-ci il may ayının 11-də Şəkidə anadan olub. İ.Repin adına Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda təhsil alıb. Sonra bir vaxt oxuduğu Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs deyib. Yaradıcılığa portret janrı ilə başlayıb və ömrü boyu bu yönə sadiq qalıb. Monumental heykəltaraşlıq əsərləri – Nizaminin Bakı və Gəncədəki abidələri, paytaxtda S. Vurğunun abidəsi və s. “Azad qadın” heykəli də onundur. “Çoban” əsəri Moskvada Tretyakov qalereyasında, “Azərbaycanlı qadın”ı və “Azadlığ”ı Bakıda İncəsənət Muzeyində saxlanır. Ömrünün son illərində əfsanəvi partizan Mehdi Hüseynzadənin abidəsini yaradıb. 1971-ci ildə dünyasını dəyişib.

# Qara Namazov – 95



Filologiya elmləri doktoru, professor Qara Mustafa oğlu Namazov 8 may 1930-cu ildə Qazax qəzası Dilican rayonunun Əmirxeyir kəndində dünyaya göz açıb. Bakı Dövlət Universitetində kafedra müdiri, “Dədə Qorqud” ETL-in rəhbəri vəzifələrində çalışıb. Bir sıra qəzetlərdə işləyib. EA-nın Tarix İnstitutunda kitabxana və arxivin direktoru olub. Uşaq ədəbiyyatını tədqiq edib. “Gənclik” nəşriyyatının “Dünya uşaq ədəbiyyatı” seriyasından 50 cilddən ibarət nəşrdə XIX–XX əsrlərə aid povestlər və hekayələri daxil edib. İlk dəfə Qara Namazovun ali məktəb tələbələri üçün “Azərbaycan uşaq ədəbiyyatı” dərsliyi çap olunub. “Dədə Qorqud” eposunun öyrənilməsinə böyük zəhmət sərf edən alim 2009-cu ildə “Şöhrət” ordeni ilə təltif olunub. 2016-cı ildə vəfat edib.

*XQ*

# "Dəli yığıncağı"nda ağıllıya yer yoxdur...

## Yaxud "hay demokratiyası"nda çatlar

**Ermənistanda baş nazir Nikol Paşinyanın parlament tribunasındakı çıxışlarının məsxərə predmetinə çevrildiyi məlumdur. Nikol müxtəlif mimika və jestləri ilə hökumət rəhbərindən çox, klouna oxşayır. Ümumən, Ermənistan parlamenti ali qanunverici orqan yox, zooparkı xatırladır. Hərçənd, bu deyimlə heyvanların xətrinə dəydiyimizi də düşünə bilərik. Əlbəttə, məsələnin digər tərəfi də var.**

minən, cavab qaytaran uşağın günündədir. Amma vacib məqam heç də bu deyil.

Məsələ ondadır ki, dünyanın bəzi qütblərinin demokratik kimi qələmə verdikləri hay hakimiyyətinin təmsilçiləri, o cümlədən, N.Paşinyanın özü müxtəlif beynəlxalq tribunalarda Ermənistanda rüşvətə və korrupsiyaya qarşı amansız mübarizə apardıqlarını bildirir. Bu, daha doğrusu, mübarizə aparılmasına dair ritorika rəsmi İrəvanın, bir növ, vizit kartı kimi çıxış edir, müqəddəsləşdirilir. Dünya da özünü Paşinyan iqtidarının korrupsiya ilə mübarizlik xarakterinə inanır, yaxud inandığını imitasiya edir. Hər bir halda, ortada dünyanı və hay hakimiyyətini məmnun edən durum var. Nikolun düşüncəsinə görə, bu məmnunluq qlamurluqdur, yaşam təminatıdır. O zaman Paşinyan üçün öz iqtidarının korrupsiyada ittihamının nə demək olduğunu təsəvvürə gətirək. Nikolun yarımçıq təfəkkürü baxımdan belə bir ittihamın səslənməsi sözügedən yaşam nəfəsliyinin tıxanmasıdır. Əlbəttə ki, belə düşünən adamın reaksiya sərt olmalıdır. Yəni, satqın və xain damğasına dözmək olar, korrupsioner yarlığına yox!





İlk baxışdan, belə təəssürat yarana bilər ki, Ermənistan parlamenti ölkə ilə bağlı qızğın müzakirələrin getdiyi məkandır və burada hər bir deputat özünün azad və sərbəst fikrini bildirir. Amma razılaşarsınız ki, deputat olan şəxsə hər kəs prizmasından yanaşmaq mümkünsüzdür. Yəni bu statusu daşıyan biri davranışlarına düzən verməyi daha çox bacarmalı, elementar mədəni səviyyəsini qorumalıdır. Ermənistan parlamentində isə ya belələri yoxdur, ya da sayları çox azdır.

Sözümüz ondadır ki, N.Paşinyanı hərəkətlərinə görə çox da məzəmmət etmək düzgün deyil. Hayların parlament binası, prinsip etibarilə, dəli yığıncağını xatırladırsa, Nikolun sərsəmlərin məkanında özünə və sözünə hakim kəsilməsi çox çətindir. Axı deyim var ki, bir nəfər axmaq digəri ilə mübahisə edir, ortaya iki axmağın mübahisəsi mənzərəsi çıxır. Yəni axmaqlara baş qoşduğu üçün baş nazir də davranışlarına nəzarəti itirir. Amma elə təsəvvür yaranmamalıdır ki, məqsədimiz Paşinyana haqq qazandırmaqdır...

Əlqərəz, N.Paşinyan Ermənistan parlamentinin mayın 7-də keçirilmiş iclasındakı çıxışı zamanı əndazəni aşdı, əsl cəllada çevrildi. O da məlumdur ki, qurumun tərkibi revanşistlərdən ibarət kəsimi həm Nikolu, həm də onun ali qanunverici orqandakı tərəfdarlarını təxribata çəkməklə məşğuldur. Bu kəsimin təmsilçiləri hakim komandaya qarşı qəzəb və nifrətlərini əllərinə düşən hər imkandaca ortaya qoyurlar. Onlar müzakirəyə çıxarılmış istənilən mövzu və məsələdə hakimiyyətə qarşı köklənmək üçün motivlər tapmaqda "ustadırlar". Zatən, işləri yalnız budur. Beləlari oturduqları kürsünü erməni xalqı üçün fayda tribunasına çevirməyi ağıllarından belə keçirmirlər. Paşinyan bu dəli yığınına qarşı cəllad kimi davranmasın, bəs neyləsin? "Əmma"sı budur ki, Qərbdə Paşinyanı demokrat olaraq təbliğ edirlər. Heç kəs öz ayranına turş deməz. Hərçənd, istər-istəməz meydana suallar çıxır: Əcəba, demokratiya yenildimi? Yoxsa, əsəbləri tab gətirmədi?

Ümumən, bu sayaq suallar çoxdur və onlara cavab axtararkən meydana bəzi nüanslar da çıxır. Birinci nüans budur: Ermənistan parlamentində yaşananlar göstərir ki, demokratiya bu ölkəyə, obrazlı desək, qapıdan və ya pəncərədən yox, birbaşa bacadan gəlib. Yəni Ermənistanın bu məhfum üçün qapısı və pəncərəsi bağlıdır, dar bacadan keçmə xəsarət törədir. Nəticəyə gəlirik ki, hay parlamentində yaşananlar, belə demək mümkünsə, demokratiya "şikəstə"sidir. Bu, elə bir şikətslikdir ki, bütövlükdə, dövlət ərkanı və etikasını təhdid edir. Nikolun nataraz davranışlarına diqqət yetirsək, ümumi mənfi durumun psixoloji aspektləri də ayrıca vurğulanmalıdır.

İkincisi, məlumdur ki demokratiya ictimai şüurun inkişaf məhsuludur. Yəni onun əldə edilməsinədək cəmiyyət müəyyən mərhələlərdən keçməli və yetkinləşməlidir. Necə deyərlər, Moskva birdən-birə qurulmayıb. Ermənistan parlamentində yaşananlar göstərir ki, bütövlükdə, erməni cəmiyyəti demokratik təfəkkür baxımından xeyli axsaqdır və yaxın gələcəkdə bu durumun hansısa formada düzələcəyinə ümidlər yoxdur. Həm də ona görə ki, erməni cəmiyyəti avantürizmi aradan qaldıra bilmir, tipik xəstəlikdən əziyyət çəkir. O xəstəliyin Qarabağ avantürası təzahürü var. Bu fikri isə heç də təsadüfən vurğulamadıq.

Ermənistan parlamentindəki müxaliflər Paşinyanı Qarabağı Azərbaycana vermiş naxələf, satqın və xain gözündə görürlər. Onların əllərinə düşən hər imkandaca Nikolu və komanda üzvlərini qaralamaları məhz bundan qaynaqlanır. Təxminən belə: Qarabağı əldən çıxarıbsa, Paşinyan hər cür aşağılayıcı rəftara layiqdir. Bəs, əks tərəf buna dözümlü yanaşmalıdırmı? Bəli, yanaşmalı, hətta səbri və təmkini ilə nümunə olmalıdır. Amma bunu bacarmır. Çünki hay hakim komandası xisləti demokratiyanın "d" hərfi ilə qeyri-mütənasib olan cəmiyyətin məhsuludur. Ondan nəsə fövqəladilik gözləmək qaranlıq otaqda qara pişik axtarışına çıxmaq kimi bir şeydir. Belə bir durumda Paşinyan heç bir "möcüzə icad edə" bilməz. Amma onun kiməsə irad bildirməsi də düzgün deyil. Çünki möcüzə icadı üçün heç bir cəhd göstərməyib. Üstəlik, atalarımız yaxşı deyib ki, od olmasa, tüstü çıxmaz. Bu deyimə də qayıdacağıq.

Beləliklə, Paşinyanın parlament tribunasında niyə möhkəm əsəbləşməsinə diqqət yetirək. Axı, bu, o adamdır ki, tipik erməni sərsəmliyindən irəli gələn "türk" ittihamının qarşısında duruş gətirmişdi və bildirmişdi ki, onu belə adlandırmalarında heç bir problem görmür, guya, dözümlü yanaşır və sair və ilaxır. Deməli, torbada pişik var.

Məsələ ondadır ki, Nikolu özündən çıxaran rəhbərlik etdiyi hakimiyyətin korrupsiya əməlində ittiham olunmasıdır. Sən demə, erməni mediası bu barədə yazırmış və müxalif parlamentarilər həmin yazılanları fakt kimi Nikola dürtmək istəyiblər. Birincisi, baş nazir reaksiyası ilə göstərir ki, erməni mediası cəfəngiyyat yazır. Görünür, bu cəfəng yaradıcılığın nəticəsidir ki, "Sərhədsiz reportyorlar" mətbuat azadlığı indeksinə görə ölkəni 180 ölkə sırasında 34-cü pilləyə "qaldırıb".

...Nikol bildirir ki, erməni mediasının onu və ətrafını korrupsiyada günahlandırmasının heç bir faktoloji əsası yoxdur, yazılanlar böhtandır. Belə çıxdı ki, müxaliflər böhtançı strukturun bildirdikləri ilə "silahlanıb" onun üstünə gəlməli deyillər. Ardınca isə Paşinyan hücuma keçərək, həmin erməni mediasının müxalif düşərgəni də hədəfə aldığını bildirir. Tam aydındır ki, baş nazir parlament əks cinahının rəhbərlərini nişan alır. Söhbət keçmiş prezidentlər Robert Koçaryandan və Serj Sarkisyandan gedir.

Paşinyan, faktiki olaraq, "eks"ləri qınayır və bildirir ki, keçmişi ləkəlilərin düşərgəsində oturaraq, ali qanunverici orqanda yer tutanlar korrupsiyadan danışmamalıdırlar. Amma Nikolun bu sayaq dillənməsi çox bəsit, əks arqument olaraq son dərəcə zəifdir. Sanki, meydanda iki uşaq var, onlardan biri o birini söyür, təhqirə məruz qalan isə qısaca cavab verir: özünsən! Paşinyan da, təxminən, cavab qaytaran uşağın günündədir. Amma vacib məqam heç də bu deyil.

Paşinyan isə gözə kül üfürməklə məşğuldur. Yəni bu adamı naqisliklərin aradan qaldırılması maraqlandırmır, özünü bulkası əlindən alınmış uşaq kimi də aparıb qışqır-bağır salır. Əvvəldə Nikolun cəllada çevrildiyini isə təsadüfən vurğulamadıq. Baş nazir əl hərəkəti ilə müxaliflərin boğazlarının kəsəcəyini və ya kəsilməli olduğunu vurğulayıb.

Digər tərəfdən, baxın, Paşinyan parlament tribunasından müxalifləri açıq şəkildə ölkənin dövlət təhlükəsizliyinin "zirzəmiləri" ilə təhdid edir. Görəsən, o zirzəmilərdə nə var? Ehtimal ki, orada dövləti cinayətlərdə təqsirli bilinənlərə zülm verilir. Belə nəticəyə gəlirik ki, Nikol cinayət şübhəlilərinə qarşı qanuni tədbir görülməsini yox, məhz işgəncə verilməsi kimi hüquqa zidd əməlin tətbiqini seçir". Budurmu demokratiya? Deməli, bir daha sübuta yetir ki, "hay demokratiyası"nda çox böyük çatlar var.

Sonda keçək gəldiyimiz nəticəyə. Özü də təkcə nəticəyə gəlməyəcək, eyni zamanda, tələb də irəli sürəcəyik. Əlbəttə, hesab etmirik ki, Paşinyanın həm dedikləri, həm də jestləri erməni xalqını düşündürür. Çünki xalq da böyük ölçüdə, elə Nikolun günündədir. Amma baş nazirin davranışı barədə fikirləşməli olanlar var. Söhbət onu hakimiyyətə gətirənlərdən və bu gün Ermənistanı demokratik dövlət kimi təqdim edib ağzı köpüklü ifadələr işlədənlərdən gedir. Demirik ki, onlar düşünüb Nikolun başına ağıl qoysunlar. Buna inanacaq qədər sadəlövh ola bilmərik. Belə də hayların canları cəhənnəmə, nə qədər istəyirlərsə, bir-birini qırsınlar.

Əsas məsələ və tələbimiz budur ki, Ermənistanın havadarları rəsmi İrəvanın təmsilçilərini tərifləyərkən Azərbaycana qarşı ittihamlarını bir kənara qoysunlar. Çünki onların tərifədikləri ölkəni yaxşı görürük. Bu görüntü fonunda demokratiya imitasiyalı haypərəstlik, həmçinin N.Paşinyanı, az qala, İsa peyğəmbər qiyafəsində göstərib onun Ermənistanda "möcüzə icad edəcəyinin" təbliğatını aparmaq kənardan çox eybəcər görünür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**Rusiya–Ukrayna müharibəsində yenilik müşahidə edilmir. Cəbhədə şiddətli döyüşlər davam edir. ABŞ-ın vasitəçilik səylərinə baxmayaraq, döyüşlər səngimir, atəşkəs barədə ortaq mövqe sərgilənmir. Qarşıdurma tərəflərinin şərtləri arasında müşahidə edilən dərin uçurum sülh danışıqlarının perspektivini çətinləşdirir. Qərb ölkələri də Ukraynaya əhəmiyyətli hərbi, maliyyə və humanitar dəstək verməkdə davam edir ki, bu da Kiyevin müqavimətini davam etdirməkdə və Rusiya qüvvələrinə təzyiq göstərməkdə əsas rol oynayır. Bununla yanaşı, "Qoca qitə" Rusiyanın ABŞ-ın təklif etdiyi 30 günlük atəşkəs təklifilə razılaşmayacağı təqdirdə sanksiya təzyiqini artıracağını da bildirir.**

# "Avropa üçlüyü" Kiyevdən Moskvanı hədələdi

Hər iki tərəfdən hücumlar və əks-hücumlar baş versə də, ümumilikdə, yüzlərlə kilometrə qədər uzanan cəbhə xətti nisbətən sabit qalır. Buna görə də, hazırda yaxın gələcək üçün ən çox ehtimal olunan ssenarinin tükənmə müharibəsinin davam etdirilməsi olduğunu bildirirlər. Belə ki, cəbhədə kiçik ərazi



dəyişiklikləri ilə mövqe döyüşlərinin davam etdirilməsi, hər iki tərəfdən resursların tükənməsi prosesi gedir. Hərbi analitiklərin sözlərinə görə, tərəflərdən birinin dəstək səviyyəsində əhəmiyyətli dəyişikliklər olmadan cəbhədəki vəziyyətin sürətli və köklü dəyişməsi mümkün deyil. Fundamental fikir ayrılıqları hərtərəfli sülh sazişinin əldə olunmasını da son dərəcə çətinləşdirir. Daha çox ehtimal olunan ssenari hazırkı təmas xətti boyunca münaqişənin dondurulması ola bilər, lakin bunun əsas ziddiyyətləri həll etməyəcəyinə inam böyükdür.

ABŞ-ın vasitəçilik missiyasının gözlənilən nəticələrləri yekunlaşmaması fonunda Qərb ölkələri Ukraynaya güclü dəstək verdiklərini nümayiş etdirirlər. Bu mənada, mayın 10-da Almaniya kansleri Fridrix Mertsin, Böyük Britaniyanın baş naziri Kir Starmerin və Fransa prezidenti Emmanuel Makronun Kiyevə səfəri



güclü simvolik jest kimi qiymətləndirilir. Belə bir səfər Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməkdə Avropa dövlətlərinin davamlı birliyini vurğulayır. Bu, həm də Ukraynaya Avropanın dəstəyinin zəifləmədiyinə dair siqnal kimi dəyərləndirilir. Siyasi analitiklərin sözlərinə görə, belə səviyyəli liderlərin müharibə şəraitində olan ölkənin paytaxtına səfəri Rusiyaya açıq çağırışdır və onun Ukraynanı təcrid etmək və ya beynəlxalq dəstəyi zəiflətmək cəhdlərinin uğursuzluğa düçar olduğunu nümayiş etdirir. Əlbəttə, Ukrayna xalqı və rəhbərliyi üçün yüksək səviyyəli xarici tərəfdaşların səfərləri həmişə onların mübarizədə tək olmadıqlarını təsdiqləyən mühüm mənəvi dəstək amili rolunu oynayır.

Səfər zamanı Qərb liderlərinin səsləndirdikləri bəyanatlar da bir daha göstərir ki, "Qoca qitə" Ukraynaya dəstəyini gücləndirəcək və Kiyevin transatlantik təşəbbüslərini dəstəkləyəcək. Məsələn, Almaniyanın xarici işlər naziri İohann Vadeful Ukraynanın NATO-ya gedən yolunu "dönməz" hesab edir. O, açıq şəkildə bildirir ki, Ukrayna həm Avropa İttifaqına, həm də NATO-ya daxil olmaq prosesini davam etdirir. Eyni zamanda, Avropa İttifaqı ABŞ-ın Ukraynada, ən azı, 30 günlük tam atəşkəs çağırışına qoşulur. Brüsseldə hesab edirlər ki, bu, sülh danışıqları yolunda ilk addım ola bilər. Səfəröncəsi Avropa İttifaqı adından tam mətni Avropa Şurasının saytında dərc olunan bəyanatda deyilir ki, Aİ Ukraynada hərtərəfli, ədalətli və davamlı sülhə sadiq qalmaqdadır. Böyük Britaniya hökumətinin saytında dərc olunan dövlət başçılarının birgə bəyanatına əsasən, bu təklifdən imtina halında Qərb ölkələri Rusiyaya qarşı sanksiya təzyiqlərini artıracaq.

Beləliklə, Ukraynada müharibə İkinci Dünya müharibəsindən sonra beynəlxalq təhlükəsizliyə ən ciddi çağırışlardan biri olaraq qalır. Onun nəticəsi Avropa və qlobal təhlükəsizliyin arxitekturasına, beynəlxalq hüquqa və Rusiya ilə Qərb arasında gələcək münasibətlərə güclü təsir göstərəcək. Qərb ölkələrinin Ukraynaya davamlı dəstəyi Kiyevin müqavimət göstərmək qabiliyyətini müəyyənləşdirən və son nəticədə bu faciəli münaqişənin sonunun mümkün konturlarına təsir edən kritik amildir. Bundan sonra nə baş verəcəyi müharibə edən tərəflərin dayanıqlılığından və resurslarından, Qərbin birliyindən və qətiyyətindən, daha geniş geosiyasi kontekstin dinamikasından asılı olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

---

# Ordumuzun mövqeləri atəşə tutulub

**Mayın 10-u saat 09:55-də Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bundan başqa, Ermənistan Müdafiə Nazirliyi, guya, Azərbaycan Ordusunun bölmələri tərəfindən Xanazax yaşayış məntəqəsi istiqamətində atəş açılması və yaşayış evinin zədələnməsi barədə tamamilə yalan və dezinformasiya məqsədi daşıyan məlumat yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa və növbəti təxribatlarına zəmin yaratmağa cəhd edir.

Qeyd olunub ki, Azərbaycan Ordusunun bölmələri heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır. Bölmələrimiz tərəfindən yalnız qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 96 (30790) 11 may 2025-ci il, bazar

Günün xəbərdarlığı`

**Qədim peşələrdən sayılan oğurluq yeni forma və məzmunda ömrünü uzadır. Azərbaycanda və bütün dünyada onunla davamlı mübarizə aparılsa da bu ziyankar fəaliyyətin kökünü kəsmək mümkün olmur. Yaşadığımız texnoloji çağ onu daha modern hala gətirib. Artıq fırıldaqçılar rəsmi bank nömrəsinə oxşar nömrədən alış-verişin ödənişi barədə bildiriş göndərə bilirlər.**



# Kibercinayət: rəqamsal oğurluq

## *Gəlin fırıldaqçılara özümüz imkan yaratmayaq*



Bir müddət sonra onlar həmin şəxslə əlaqə saxlayır, özlərini bank işçisi kimi təqdim edir, pulun icazəsiz çıxarılması barədə məlumat verirlər. Eyni zamanda, məxfi kart detallarını, SMS-dən kod təqdim etməyi təklif edirlər.

Bundan başqa, elan saytlarında göstərilən məhsulu almaq və ya xidmətdən istifadə etmək istəyənlərə alışı təsdiqləmək üçün beh göndərməyə şirnikləndirirlər. Həmçinin kart istifadəçisinə zəng vuraraq səhvən onun kartına pul köçürdüklərini söyləyir, məbləği geri qaytarmaq və ya xüsusi hesaba pul köçürmək xahiş edilir. Bəzən də kart istifadəçisinə sosial media və ya saxta veb sayt vasitəsilə keçirilən müsabiqənin qalibi olduğu, məsələn, lotereyada qalib gəldiyi bildirilir və ondan uduşun köçürülməsi üçün bank kartının məlumatları istənilir. Yəni kibercinayətkarlar texnologiyanın inkişafından istifadə edərək kart istifadəçilərini aldadırlar. Maraqlıdır ki, hər il bu metod daha təkmilləşir, nəyin yalan, nəyin doğru olduğunu aydınlaşdırmaq çətinləşir.

Belə olan halda, bank kartının bütün məlumatları fırıldaqçıların əlinə keçir. Tora düşən qurban məlumatları göndərdikdən sonra internet portalları vasitəsilə ödənişlər edilir, pul dələduzlar tərəfindən mənimsənilir. Məsələn, aprel ayında vətəndaşların bank kartlarından 460 min manatdan çox pulu oğurlanıb. Oğurlanan ən böyük məbləğ isə aprelin 7 və 8-də qeydə alınıb. Həmin günlər bank kartlarından müvafiq olaraq 66 min 997 min və 87 min 67 manat çıxarılıb.

Aprelin son günü də vətəndaşların bank kartlarından oğurluqlarla yadda qalıb. Daxili İşlər Nazirliyinin məlumatında bildirilir ki, aprelin 30-da müxtəlif kiber üsullarla ayrı-ayrı vətəndaşların bank kartlarından 30 min manatdan çox pul vəsaitləri oğurlanıb. Oğurluq da, əsasən, bank kartlarından edilib. Çünki bu ödəniş kartları nağdsız ödənişlər üçün ən geniş istifadə edilən vasitədir.

**Bununla bağlı Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi Elşad Hacıyev bildirdi ki, virtual məkanda kibercinayətkarların tətbiq etdikləri sxemlər fərqli olsa da, məqsəd eynidir: – Bank kartından oğurluq etmək:**

– Onlayn cinayət halları günümüzdə artan templə davam edir. Deyərdim ki, artıq problemə çevrilib. Heç kəsə sirr deyil ki, kiberdələduzluq yaş və sərhəd tanımır. Hər yaş kateqoriyasından olan şəxslər bu tələyə düşürlər. Amma reallıqları nəzərə alsaq, görərik ki, yaşlı nəslin nümayəndələri daha çox oğurluğun qurbanı olurlar. Fırıldaqçılar daha çox onlara zənglər edərək aldadırlar, Bildirirlər ki, "övladınız qəza keçirib, təcili pul lazımdır" və ya "Ana, qəzaya düşdüm, təcili pulu bu nömrəyə köçürün".

Bu yolla cinayətkarlar qorxu və tələskənlik yaradırlar. Məlumatın dəqiqliyini yoxlamağa vaxt verməmək üçün qəsdən tələsdirirlər. Təbii ki, ailə üzvləri ilə bağlı acı xəbərin təlaşından atılan hər bir addım da onların əleyhinə işləyir. Belə ki, vətəndaşlar dəqiqləşdirmə aparmadan tanımadıqları şəxslərin istədikləri məbləğləri göndərir və məlumatı dəqiqləşdirdikdən sonra aydın olur ki, kiberdələduzluqla üzləşiblər.

Belə hadisələr son vaxtlar artıb. Məsələn, uzun müddətdir danışmadığınız bir tanışınız birdən sosial şəbəkədə halınızı soruşur. Yazışma başlayır, bu müddət ərzində o, gözlənilmədən pul borcunu istəyir. Çox güman ki, dostunuzun hesabı sındırılıb. Və fırıldaqçı sizin necə davranmağınızla heç maraqlanmır – o, pul istəyir.

Mətbuat xidmətinin rəisi daha sonra dedi ki, internetdə ehtiyatsızlıq da çox təhlükəlidir: "Şəxsi məlumatların ələ keçirilməsi kiber cinayətlərin törədilməsinə zəmin yaradır. Bu faktla tez-tez qarşılaşırıq. Bu yaxınlarda vətəndaş "Lalafo" saytında palma ağaclarını satışa qoyub. Onun telefonuna Rusiya nömrəsindən vatsapla zəng daxil olub. Beh ödənişinə görə kart məlumatları öyrənildikdən sonra kredit formasında hesabdan 13 min 665 manat çıxarılıb.

Başqa bir hadisədə vətəndaş viza almaq məqsədilə "Instagram"da olan saxta səhifələrdən birinə yazıb. Ona cavab gəlib ki, bank hesabınızda olan vəsaiti təsdiq etmək üçün yoxlamalıyıq, məlumatları təqdim edin. Bakıda olan vətəndaş Hollandiyadan gələn vatsap zəngi ilə danışığı davam etdirib və bank kartının məxfi məlumatlarını ona göndərən kimi hesabından 3 min manat oğurlanıb".

Elşad Hacıyev saxta onlayn alış-veriş saytları ilə bağlı pul oğurluqlarına da toxunaraq qeyd etdi ki, vətəndaşla əlaqə yaradılması, saxta və ya zəif qorunan saytlarda alış-veriş zamanı kart məlumatlarının ələ keçirilməsi, https-i olmayan və ya güvənilməyən saytlardan istifadə olunması nəticəsində kiber oğurluqlar artıb. Belə ki, kiberdələduzlar orijinala oxşar dizaynla tələ saytları, kredit təşkilatlarının saxta saytlarını yaradırlar: "Fişinq" saytlarını ilk baxışdan orijinaldan ayırmaq çətindir, lakin bu mümkündür. Ünvanın https ilə başladığına, domen adında hərflərə və rəqəmlərə diqqət edilməlidir. Məsələn, "I" yerinə "1" və ya "o" hərfi yerinə "0" kimi aldatmalardan geniş istifadə olunur".

Onun sözlərinə görə, "Fişinq" saytlarının fəaliyyətləti psixoloji manipulyasiya və aldatmadan ibarətdir. İnsanları e-poçt, qısa mesajlar, telefon zəngləri və digər ünsiyyət vasitələri ilə hədəf alır. Saxta vebsaytlara və linklərə keçid etməyi, zərərli faylları yükləməyi və şəxsi məlumatları açıqlamağı əhatə edir. Kibercinayətkarların "fişinq" hücumunu necə həyata keçirməsi isə onların məqsədlərindən asılı olur. Məsələn, B2B (business-to-business) sahəsində hücum edənlər saxta fakturalardan istifadə edərək hesablar şöbəsini pul göndərməyə vadar edə bilirlər.

Zərərçəkən əksər hallarda mənbənin təhlükəsizliyini yoxlamadan şəxsi məlumatlarını paylaşır. Bunun nəticəsidir ki, "Kontakt home"un adına bənzər yaradılmış saxta sayt vasitəsilə fırıldaqçılar vətəndaşın 2 min 498 manatını talayıblar. Həmin şəxs "Instagram"dakı səhifədən sayta keçid edib, "Iphone 14 pro max"ın endirimdə olduğunu görüb, ödəniş üçün kart məlumatlarını yazıb. Bu yolla da pulu oğurlanıb".

E.Hacıyev vətəndaşlarla bank arasında bəzən mübahisələrin yarandığını da qeyd etdi: "Vətəndaşın pulu talanır, iddia edir ki, bank məsuliyyət daşıyır. Bu, belə deyil, bankın təhlükəsizliklə bağlı hər hansı bir problemi yoxdursa, o zaman bankı günahlandırmaq doğru deyil. Şübhəli əməliyyat zamanı bank işçiləri müştəri ilə əlaqə saxlayarkən heç vaxt məxfi kart məlumatlarını, SMS kodlarını və ya hər hansı hesaba pul köçürməyi tələb etmirlər".

Beləliklə, əgər araşdırmanın nəticəsində məlum olsa ki, vətəndaşın bank kartından silinmiş vəsaitlər bankın təhlükəsizlik tədbirlərinin zəifliyi nəticəsində olub, bu halda bank məsuliyyət daşıyacaq. Yox, əgər bankın hər hansı formada təhlükəsizliyində boşluqlar yoxdursa, ya vətəndaşın öz günahından, yaxud da kənar kiber təsirlər nəticəsində vəsaitin silinməsi reallaşıbsa da, bununla bağlı da müvafiq olaraq hüquq-mühafizə orqanları tərəfindən qərarlar qəbul edilməlidir. Ümumiyyətlə, vətəndaş da öz məsuliyyətini bilməlidir".

DİN rəsmisi aparılan mübarizənin nəticəsinə də toxundu: "Onlayn fırıldaqçılıq yolu ilə bank kartlarından pulların oğurlanması kimi halların bu qədər artmasına səbəb vətəndaşların məlumatsızlığıdır. Onunla mübarizə aparmağın əsas yolu isə maarifləndirmədən keçir. Mübarizə çərçivəsində tərəfimizdən mütəmadi olaraq maarifləndirmə, təbliğat-təşviqat işləri həyata keçirilir. Hər gün periodik olaraq vətəndaşların bank kartlarından talanan vəsaitlərin məbləği, tətbiq olunan üsul və vasitələri ictimaiyyətə açıqlanır.

Bu cür məlumatları vətəndaşlarımızla bölüşməkdə məqsədimiz odur ki, onlar da bu kimi hallarla qarşılaşdıqda nə etməli olduqlarını bilsinlər və bank kartlarından maddi vəsaitlərini oğurlatmasınlar. Apardığımız işin nəticəsidir ki, hazırda bu kimi dələduzluq hallarının sayı gündəlik 10–20 arasındadır. Əvvəllər bu rəqəm 50 civarında idi ".

**Mətbuat xidmətinin rəisi sonda belə bir xəbərdarlığı bir daha xatırlatdı:**

– Bank kartlarından vəsaitin oğurlanması kimi halların qarşısının alınması, birinci növbədə, hər bir şəxsin özündən asılıdır. Bunu dünya praktikası da təsdiq edir. Heç bir vətəndaş öz şəxsi məlumatlarını başqalarına ötürməməlidir.

Unutmayın ki, fırıldaqçılar özlərini sizin dostunuz kimi göstərə və kartınıza pul köçürmək istəyə bilərlər. Lakin köçürmə etmək üçün onlara kartın nömrəsi, istifadə müddəti və CVC/CVV kodu lazımdır. Bu da aldatmadır. Bilməlisiz ki, pul köçürmək üçün kartın yalnız 16 rəqəmi kifayətdir. Başqa heç bir məlumat tələb olunmur. Kartın son istifadə tarixini, sahibinin adı və ya kodunu heç kimə göndərmək olmaz. Birmənalı olaraq vətəndaşlarımız xarici nömrələrdən gələn zəngləri açmamalı, mesajlara cavab vermədən bloka atmalıdırlar. Sübhəli hallarda polisə məlumat verilməlidir".

Sonda bir daha yada salaq ki, bank kartlarından gizli pul çıxarmalar cinayət məsuliyyəti yaradır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 177 maddəsinə əsasən mülkiyyət əleyhinə olan cinayətlər kimi dəyərləndirilir.

***Pünhan ƏFƏNDİYEV,***
***XQ***

İdman

## Velosipedçilərimizin Özbəkistan uğuru

AZƏRBAYCAN VELOSİPED FEDERASİYASI

**Azərbaycanın iki velosipedçisi Özbəkistanda keçirilən "Silkway Namangan" beynəlxalq turnirində uğurla çıxış edib.**

Yığmanın iki üzvü – Artyom Proskuryakov (Skretç) və Viktoriya Sidorenko (Sprint qrup yarışı) bürünc medal qazanıblar.

## Gürcüstanda 3 medal



**Gürcüstanın Qori şəhərində böyüklər arasında cüdo üzrə Avropa kuboku keçirilir.**

Yarışda Azərbaycan idmançılarından Nazir Talıbov (66 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. Babarəhim Mirzəyev (60 kq) gümüş, Nəriman Mirzəyev (73 kq) isə bürünc mükafata sahib olublar.

***L.QURBANOVA***
***XQ***




**"Sotheby" hərrac evi mayın 13-də 20 milyon dollara satılması gözlənilən 10 karatlıq brilyantı hərraca çıxaracaq. Qeyd olunur ki, qiymətli daş "Aralıq dənizinin mavi brilyantı" adlandırılıb. Almaz Cənubi Afrika Respublikasında tapılıb.**

Xatırladaq ki, 9 il əvvəl Cenevrədə "Christie's" auksionunda satışa çıxarılan bir mavi brilyant rekord qiymətə, 68 milyon 700 min dollara satılıb.

***FİDAN***
***XQ***

HAVA

## Yağmursuz bir bazar günü...

**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**



Havanın temperaturu gecə 16-19° isti, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gündüz şimal və qərb rayonlarından başlayaraq, bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə yağıntının leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-19° isti, gündüz 26-31° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20° isti olacağı gözlənilir.

***QQ ASIMOV***
***XQ***

**"Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının nəzərinə!**

***25 iyun 2025-ci il saat 11.00-da "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.***

"Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Xətai rayonu, N.Rəfiyev küçəsi 29 nömrəli ünvanda, müəssisənin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Müəssisənin 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekünlarına aid hesabatı.
2. Digər məsələlər.

Ümumi yığıncağa bütün səhmdarlar şəxsiyyət vəsiqəsini, varisliyi təsdiq edən sənədi, etibarnamə ilə istirak edənlər isə notarial qaydada təsdiqlənmiş etibarnaməni təqdim etməlidirlər.

Əlaqə telefonu- 489-34-60.

***"Olefin ET və İM" ASC-nin direktoru***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3459
SİFARİŞ 932
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00